Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

4-cü cild

18 oktyabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# I SESSİYASI İCLASININ

# PROTOKOLU № 5

*Milli Məclisin iclas salonu.*
*18 oktyabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 109 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 11.04 dəq.) |
|---|---|
| İştirak edir | 108 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Elmin Həsənov**, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Baş İdarəsinin rəisi.

**Təmraz Tağıyev**, Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının sədri.

**Hümbət Hüseynov**, Azərbaycan Qəsəbə Bələdiyyələri Milli Assosiasiyasının sədri.

**Almas Salehova**, Azərbaycan Kənd Bələdiyyələri Milli Assosiasiyasının sədri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. “Bələdiyyələrin statusu haqqında” və “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

2. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

3. “Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Konstitusiya Məhkəməsi haqqında” və “Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

4. “Turizm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

8. “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” Azərbaycan Respublikasının Qanununa Əlavə – “Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı”nda dəyi-

şiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

9. “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. “Heyvanlar aləmi haqqında”, “Ətraf mühitin mühafizəsi haqqında” və “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. “Əhalinin sağlamlığının qorunması haqqında” və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

14. “Məhkəmələr və hakimlər haqqında” və “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

15. “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Əhmədov, Rafael Hüseynov, Musa Qasımlı, Elman Nəsirov, Kamal Cəfərov, Aqil Abbasov, Zahid Oruc, Vüqar Bayramov, Siyavuş Novruzov, Ceyhun Məmmədov, Razi Nurullayev, Sahib Alıyev, İlham Məmmədov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.15 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**1. “Bələdiyyələrin statusu haqqında” və “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Siyavuş Novruzov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**2. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**3. "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Konstitusiya Məhkəməsi haqqında" və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Arzu Nağıyev, Qüdrət Həsənquliyev, Aydın Mirzəzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**4. “Turizm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar Bayramov, Polad Bülbüloğlu, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
| Lehinə | 98 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Fazil Mustafa, Siyavuş Novruzov

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 7–9-cu maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**7. Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Siyavuş Novruzov, Əli Məsimli, Fazil Mustafa, Razi Nurullayev, Qüdrət Həsənquliyev, Zahid Oruc, Elşad Musayev, Gülşən Paşayeva, Kamran Bayramov, Aydın Hüseynov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
| Lehinə | 105 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**8. "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa Əlavə – "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**9. "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 107 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**10. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**11. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Azay Quliyev, Ceyhun Məmmədov, Səyyad Salahlı, Elçin Mirzəbəyli, Əlibala Məhərrəmzadə, Sadiq Qurbanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.58 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**12. “Heyvanlar aləmi haqqında”, “Ətraf mühitin mühafizəsi haqqında” və “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Sadiq Qurbanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.58 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**13. “Əhalinin sağlamlığının qorunması haqqında” və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov, Razi Nurullayev, Hicran Hüseynova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.11 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**14. "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Azay Quliyev, Bəxtiyar Əliyev, Arzuxan Əli-zadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.29 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**15. "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Fazil Mustafa, Bəhruz Məhərrəmov, Bəxtiyar Əliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.42 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*18 oktyabr 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, xoş gördük hamınızı. Mən hörmətli media nümayəndələrini də salamlayıram. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.04 dəq.) |
| İştirak edir | 108 |
| Yetərsay | 83 |

Çox sağ olun.

İclasa başlaya bilərik. Bizim qonaqlarımız var, mən onları da salamlayıram.

Hörmətli həmkarlar, bizim iclasımız Azərbaycan tarixində taleyüklü rol oynamış bir hadisənin ildönümünə təsadüf edir. 33 il öncə bu gün Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunması xalqımızın dövlətçilik potensialının yenidən təzahür etməsi və müstəqil-

lik arzusunun gerçəkləşməsi idi.

Bildiyiniz kimi, son yüz ildən artıq dövrdə Azərbaycan xalqına siyasi müstəqillik imkanı iki dəfə nəsib olmuşdur. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qurulması milli inkişaf tariximizin son dərəcə önəmli hadisəsidir. Parlamentli respublika sisteminin tətbiq edilməsi, demokratik və dünyəvi dövlət quruculuğu yolunda atılan addımlar təkcə Azərbaycanın deyil, bütün müsəlman Şərqinin siyasi inkişafında yeni mərhələ açmışdı. Təəssüf ki, xalqımız əsrin əvvəllərində qurduğu dövləti cəmi 23 ay yaşada bilmişdir.

1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa edən dövlətimiz üçün də əslində eyni tale yazılmışdı. Hamımız yaxşı xatırlayırıq, hörmətli həmkarlar, ötən əsrin 1990-cı illərinin əvvəllərində ölkəmiz ağır problemlər qarşısında qalaraq dərin siyasi, iqtisadi və hərbi böhran vəziyyətinə düşmüşdü. Dövlətin idarə edilməsində, daxili və xarici siyasətin həyata keçirilməsində kobud səhvlərə yol verilmişdi. Ölkə həyatının bütün sahələrini bürüyən hərcmərclik və özbaşınalıq real vətəndaş müharibəsi təhlükəsi törətmişdi. Belə bir şəraitdə Ermənistan silahlı qüvvələri torpaqlarımızın işğalını gündən-günə genişləndirir, bu isə destruktiv prosesləri daha da sürətləndirirdi. Dövlətin varlığı, xalqın müqəddəratı sual altında idi. Biz hamımız bunu yaxşı xatırlayırıq.

Hörmətli həmkarlar, 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan dünyamiqyaslı siyasi və dövlət xadimi Ulu Öndər Heydər Əliyev misilsiz idarəçilik məharəti və siyasi uzaqgörənliyi, əzmkarlığı və yorulmaz səyləri nəticəsində Azərbaycanı gözləyən fəlakətlərin qarşısını almağı, dövlətin qarşısında dayanan ağır problemləri həll etməyi bacardı. Ümummilli Lider

dünyanın böyük güclərinin iradəsinə qarşı çıxaraq Azərbaycan üçün hazırlanmış planları alt-üst etdi, xalqımızı və dövlətimizi sabitlik və inkişaf dövrünə çatdırdı. Bugünkü müasir Azərbaycan Respublikası Heydər Əliyevin xalq və Vətən naminə fədakarlığının ən parlaq ifadəsidir.

Hörmətli həmkarlar, mən bu fikri xüsusi vurğulamaq istəyirəm ki, Ulu Öndərin böyük siyasətə qayıdışı onun Azərbaycan Ali Sovetinin sədri seçilməsi ilə başlanmışdır. Xilaskarlıq missiyasını həyata keçirmək yolunda onun parlamentdə gördüyü işlər, gördüyü tədbirlər parlamentarizm və dövlətçilik tariximizin şanlı səhifələrini təşkil edir.

Hörmətli həmkarlar, Ümummilli Liderin inkişaf strategiyasını yeni çağırışlar şəraitində davam etdirən möhtərəm Prezident İlham Əliyevin daxili və xarici siyasəti Azərbaycanı zirvələrə yüksəltmişdir.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əzəli tarixi torpaqlarımızın Ermənistanın 30 illik işğalından azad edilməsi, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması nəinki ölkəmiz, həm də bütün dünya üçün tarixi əhəmiyyətli bir hadisə olmuşdur. Azərbaycan Cənubi Qafqaz bölgəsinin liderinə, qlobal geosiyasətdə söz sahibi olan bir dövlətə çevrilmişdir.

Hörmətli həmkarlar, bildiyiniz kimi, dövlət başçısının fərmanına əsasən dünən Füzuli şəhəri günü qeyd edildi, iki gündən sonra Zəngilan şəhəri günü qeyd olunacaq. Bu hadisələr möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə tarixi qələbələrə nail olmuş Azərbaycan Respublikasının gücünün və qüdrətinin rəmzləridir. Əminliklə söyləmək olar ki, möhtərəm cənab Prezidentin liderliyi, xalqımızın birlik və həmrəyliyi dövlətimizin müstəqillik yollarında bundan sonra da inamla irəliləməsini təmin edəcək.

Hörmətli həmkarlar, təklif edirəm ki, Müstəqilliyin

Bərpası Günü münasibəti ilə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Azərbaycan xalqının və dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni uğurlar arzulayaq. *(Alqışlar.)*

Çox sağ olun. Hesab edirəm, bu alqışlar bizim təbrik məktublarını təsdiqləyən alqışlardır.

Hörmətli həmkarlar, mən sizin hər birinizi bayram münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.

Sizinlə yenə də bir neçə fikrimi bölüşmək istəyirəm. Həmişə olduğu kimi səfərlərdən sonra mən, əslində, Milli Məclisə, sizə, hörmətli həmkarlarım, hesabat verirəm.

Bildiyiniz kimi, Milli Məclis sədrinin başçılığı ilə nümayəndə heyətləri oktyabrın 10-da və 11-də Tacikistan Respublikasında, oktyabrın 13-dən 15-dək isə İsveçrə Konfederasiyasında işgüzar səfərlərdə olmuşdur. Oktyabrın 11-də nümayəndə heyətimiz Tacikistan Konstitusiyasının 30 illik yubileyi münasibəti ilə paytaxt Düşənbədə keçirilən beynəlxalq parlament konfransında iştirak etmişdir. Konfransda etdiyim çıxışda mən Azərbaycanla Tacikistanın dövlətlərarası münasibətlərinin möhkəm təməl üzərində davamlı inkişaf etdiyini qeyd etdim. Çoxəsrlik tarix, mədəniyyət, din kimi ortaq dəyərlərin birləşdirdiyi xalqlarımızın dostluq və qardaşlıq münasibətlərinin dərinləşməsində dövlət başçılarının rolunu xüsusi vurğuladım. Ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm təsir göstərən amillərdən biri olan parlamentlərin qarşılıqlı fəaliyyəti barədə fikirlərimi bölüşdüm.

Hörmətli həmkarlar, onu da qeyd edim ki, Tacikistanda səfərdə olan müxtəlif ölkələrin nümayəndə heyətlərinin rəhbərləri konfransdan bir gün əvvəl Tacikistan Prezidenti

Emoməli Rəhmon ilə görüşdülər. Görüş zamanı Azərbaycanla Tacikistan arasında olan münasibətlər xüsusi vurğulandı. Prezident Emoməli Rəhmon Ulu Öndər Heydər Əliyev ilə bağlı xoş xatirələrini bölüşdü, möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafı sahəsində əldə olunan nailiyyətləri qeyd etdi.

Hörmətli deputatlar, səfər çərçivəsində mən bir sıra ikitərəfli görüşlər də keçirdim. Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva və Qazaxıstan Parlamenti Senatının sədri Maulen Aşımbayev ilə aparılan danışıqlarda digər məsələlər ilə yanaşı, parlamentlərarası əməkdaşlığın inkişaf yolları da nəzərdən keçirildi. Siz yaxşı bilirsiniz ki, bu ölkələrin parlament sədrləri bir neçə dəfə Azərbaycana təşrif buyurublar, rəsmi səfərlərdə olublar. İşçi səfərlərdə də bizimlə bərabər orada çox mühüm hadisələri qeyd ediblər.

Hörmətli həmkarlar, nümayəndə heyətimizin İsveçrəyə səfərində isə əsas məqsəd oktyabrın 14-də Cenevrə şəhərində Parlamentlərarası İttifaqın 149-cu Assambleyasında iştirak etmək idi. Assambleyada "Daha sülhsevər və dayanıqlı gələcək üçün elm, texnologiya və innovasiyadan istifadə" mövzusunda müzakirələr aparıldı. Çıxışımda bildirdim ki, elm, texnologiya və innovasiya kimi sahələr Azərbaycanın inkişaf gündəliyində mühüm yer tutur. Dayanıqlı inkişaf məqsədləri və hədəfləri ölkəmizin milli inkişaf planlarına və strategiyalarına daxil edilib. Ölkəmizdə müasir innovasiyalar və rəqabət qabiliyyətli insan kapitalı 2030-cu ilədək dövrü əhatə edən sosial-iqtisadi inkişaf strategiyasının beş prioritet sahəsindən biridir.

Qeyd etdim ki, qlobal çağırışlar şəraitində ölkələrin bir-birinin inkişaf arzularını dəstəkləmək kimi mənəvi öhdəliyi var. 2020-ci ildən bəri Azərbaycan 140-dan çox

ölkəyə 330 milyon ABŞ dolları dəyərində humanitar, iqtisadi və texniki yardım göstərmişdir.

Hörmətli həmkarlar, mənim çıxışımın mühüm bir hissəsi gələn ay Bakıda keçiriləcək COP29 konfransına həsr olunmuşdu. Bildiyiniz kimi, Assambleyada dünya ölkələri parlamentlərinin nümayəndələri – parlament sədrləri, sədr müavinləri, deputatlar iştirak edirdilər. Mən həmkarlarıma COP29 çərçivəsində Milli Məclisin Parlamentlərarası İttifaqla birlikdə təşkil edəcəyi Parlament konfransı barədə geniş məlumat verdim. İqlim dəyişmələrinə qarşı mübarizədə qanunvericilik orqanlarının çoxtərəfli platformalarda birgə fəaliyyətinin əhəmiyyətini qeyd etdim. Həmkarlarımı bir daha COP29 konfransına dəvət etdim.

Hörmətli deputatlar, səfər çərçivəsində Parlamentlərarası İttifaqın Baş katibi, Türkiyə, İran, Albaniya parlamentlərinin sədrləri ilə görüşdüm. Mən həmsöhbətlərimə Cənubi Qafqaz regionunda mövcud olan vəziyyət, COP29 ərəfəsində Azərbaycanın qarşılaşdığı haqsız hücumlar və təhdidlər barədə məlumat verdim, bu barədə parlamentimizin və bütövlükdə, ölkəmizin mövqeyini bildirdim. Görüşlərdə ikitərəfli əməkdaşlıq məsələləri barədə də fikir mübadiləsi aparıldı.

Hörmətli həmkarlar, hesab edirəm, Tacikistana və İsveçrəyə işgüzar səfərlər uğurlu keçdi və bununla əlaqədar mən nümayəndə heyətlərinin hər bir üzvünə dərin minnətdarlığımı bildirirəm. Həmçinin buradan hörmətli Aydın müəllimə də dərin minnətdarlığımı bildirirəm. Tacikistanda olanda hörmətli həmkarımız Aydın Mirzəzadə konfrans panellərində çox fəal iştirak etmişdir.

Bizim İsveçrədə olan həmkarlarımız hələ qayıtmayıblar. Çünki orada konfrans işini hələ davam etdirir. Onlara elə buradan öz təşəkkürümü bildirirəm.

Hörmətli həmkarlar, bu qədər.

Gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.15 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, ənənəvi olaraq 30 dəqiqəmiz var, 10 nəfər çıxış edə bilər. Xahiş edirəm, gündəmdə, ya da gündəlikdə olan məsələlərlə bağlı kim çıxış etmək istəyirsə, buyursun, yazılsın.

Hörmətli həmkarlar, hörmətli müavinlər də söz istədi. İcazənizlə, mən əvvəl onlara söz verim, sonra bu siyahıya keçəcəyik. Ancaq 10 nəfər deputat çıxış edəcək. Buyurun, hörmətli Əli Əhmədov.

**Əli Əhmədov.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Mən də Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsinin növbəti ildönümü münasibəti ilə çox böyük məmnuniyyətlə hər birinizi səmimi qəlbdən təbrik etmək istəyirəm. Ümummilli Liderimiz Heydər Əliyevin bir kəlamını bir daha xatırlatmağın vacib olduğunu düşünürəm. O qeyd edirdi: “Müstəqilliyi əldə etmək nə qədər əhəmiyyətlidirsə, onu qoruyub saxlamaq ondan da əhəmiyyətli, ondan da çətin, ondan da şərəflidir”. Müstəqillik bir dəfə əldə edilən aksiyadır. Amma onu qorumaq üçün hər gün, hər ay, hər il daim mübarizə

aparmaq, daim fəaliyyət göstərmək lazımdır.

Azərbaycanın müasir tarixi bir daha göstərir ki, Azərbaycanın əldə etdiyi müstəqilliyin qorunması öz aktuallığını bu gün də saxlamaqdadır. Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində əldə etdiyimiz Qarabağ qələbəsi, hesab edirəm ki, dövlətimizin uğurlarını gözü götürməyən qüvvələr tərəfindən Azərbaycana qarşı təzyiqlərin başlaması üçün səbəb olmuşdur. Amma mən səbəbi təkcə bunda görmürəm. Eyni zamanda, Azərbaycanın qalib dövlətə çevrilməsi, güclənməsi, qüdrətinin artması regionumuzla bağlı məkrli niyyətlərin həyata keçirilməsinin qarşısını alan çox ciddi bir sipərə çevrilibdir. Bu mənada Azərbaycana qarşı müxtəlif təhdidlər, müxtəlif təzyiqlər başlayır və biz bunu hər an görürük, müşahidə edirik. Təbiidir ki, Azərbaycan cəmiyyətinin buna qarşı mübarizə aparması haqqında fikirlərimizi səsləndiririk.

Bütün bunların Azərbaycana qarşı müəyyən problemlər yaratdığını qeyd etməklə yanaşı, bəlkə də pozitiv sayıla biləcək bir məqamı da qeyd etmək istəyirəm. Bu da ondan ibarətdir ki, bu cür təhdidlərin, təzyiqlərin olması Azərbaycan cəmiyyətini birləşdirir, onun monolitliyini artırır, xarici təhdidlərə qarşı "immunitet"ini gücləndirir.

Biz bu gün açıq şəkildə müşahidə edirik ki, Azərbaycan cəmiyyəti, bütün Azərbaycan xalqı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləyir. Bizə qarşı haqsız təhdidlər artdıqca bu monolitlik daha da güclənir. Təbiidir ki, Azərbaycan cəmiyyətinin birliyi bundan əvvəlki dövrlərdən fərqli olaraq indi daha da qüdrətli bir amilə çevrilib.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, dünyada iki cür dövlətlər var. Bir qrup özünü müharibə partiyası kimi,

digəri isə sülh partiyası kimi aparır. Azərbaycan sülh siyasətini, sülh proqramını açıq şəkildə bəyan edibdir. Kimlərinsə xoşuna gəlmədiyinə baxmayaraq, bu siyasət uğurla davam etdirilir. İlham Əliyevin siyasəti bu vaxta qədər uğur qazandığı kimi, onun rəhbərliyi altında həyata keçirilən sülh siyasəti və sülh proqramı da uğur qazanacaqdır. Hesab edirəm ki, Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsinə bundan artıq töhfə təsəvvür etmək mümkün deyil. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Rafael müəllim söz istəmişdi. Buyurun.

**Rafael Hüseynov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Bu gün Azərbaycanın millət təqviminin ən əlamətdar günüdür. "Ən əlamətdar günlərindən biri" deyil, məhz "əlamətdar günüdür" deyirəm. Ona görə ki, bu gün silqəti etibarı ilə 28 May Gününə bərabərdir. Bu millət var olduğu müddətcə onun qazandığı ən ali sərvət istiqlalıdır, dövlət müstəqilliyidir. Artıq bərpadan sonra bizim dövlət müstəqilliyimizin 33 yaşı tamam olur.

İstiqlalı qazanıb, müstəqilliyi əldə edib, onu itirmək, 70 il həsrətini çəkmək elə bir məktəb, elə bir yol, elə bir dərsdir ki, insanlar istiqlalın, müstəqilliyin üstünə gələn hər ilin qədrini daha artıq bilirlər, daha artıq qiymətləndirirlər. 70 il boyunca Azərbaycan insanının qəlbində müstəqillik eşqi həmişə var olmuşdur. 1920–1970-ci illərdə – Sovet siyasətinin ən qəddar zamanlarında Azərbaycanda müxtəlif dönəmlərdə "Gənc Azər", "İldırım", "Azərbaycan dili uğrunda mübarizə ittifaqı" və bu qəbildən o çağın damğası ilə digər anti-Sovet təşkilatları yaranmış, fəaliyyət göstərmişdir. O insanlar cəzalanıblar, sürgün ediliblər, həbslərdə yatıblar. Ancaq bu, Azərbaycan insanının milli ruhunun ifadəsi idi. Müstəqillik eşqi bu

millətin ruhunda yaşayır və onu susdurmaq mümkün deyildir.

1991-ci il oktyabrın 18-də “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktının elan edilməsi ilə biz yenidən böyük bir yola çıxdıq. 2 il tamam olmamış onu yenidən itirə bilərdik. Azərbaycan nə bəxtiyardır ki, onun taleyində Ulu Öndər kimi unudulmaz, qüdrətli bir şəxsiyyət var idi. O, bu istiqlalı, bu müstəqilliyi ən fırtınalı illərdən keçirdi, XX əsrdən XXI əsrə yetirdi.

21 ildir ki, Azərbaycan dövlətinə Prezident İlham Əliyev rəhbərlik edir. Bunlar qətiyyən sadə illər deyil. Əgər biz müstəqilliyin bərpasının əvvəlindəki Azərbaycanla bugünkü Azərbaycanı müqayisə etsək, fərqli Azərbaycan görərik. Ölkəmizin bütün tarixi boyunca ən yüksək inkişafı, əldə etdiyi ən böyük zəfərlər məhz bu son 21 il ərzində Ulu Öndər Heydər Əliyevin qoyduğu təməllər üzərində Prezident İlham Əliyevin yaratdığı yeni, müstəqil, qüdrətli Azərbaycandır.

2002-ci ildə biz Avropa Şurası Parlament Assambleyasının növbəti yığıncağından qayıdandan sonra Ulu Öndərin qəbulundaydıq. Bizim nümayəndə heyətini qəbul edirdi. O görüşün şahidlərindən indi bu Məclisdə iştirak edənlər də var. O zaman mən çıxış etdim və Ulu Öndərə söylədim ki, bizim nümayəndə heyətinə rəhbərlik edən cənab İlham Əliyevi Siz bizim hamımızdan yaxşı tanıyırsınız, övladınızdır, gözünüzün qarşısında böyüyüb, bütün həyatı Sizin gözünüzün önündə keçib. Ancaq Avropa Şurasındakı İlham Əliyevi biz daha yaxın məsafədən müşahidə edirik. Görürük ki, o, mübarizələrin içərisində Azərbaycanın, dövlətin və millətin maraqlarını necə ağılla, zəka ilə, hansı üstünlüklə qoruyur. Biz fəxr edirik.

Dünyanın digər ölkələrindən olan deputatlar da heyrandırlar. Siz də iftixar edə bilərsiniz ki, belə övladınız var.

Bu gün mən bütün Azərbaycan qarşısında, bütün Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları önündə deyirəm: azərbaycanlılar iftixar edə bilər ki, onların belə lideri, belə rəhbəri, belə öndəri var ki, Azərbaycanı bu təlatümlü, çalxantılı zamanın içərisindən uğurla keçirib, Qarabağ Zəfərini qazanıb, Azərbaycanı daha böyük yüksəlişlərə aparıb.

Bu nöqtədə çox vacib bir məqama diqqət yönəltmək istəyirəm. Bu gün Azərbaycana qarşı ən müxtəlif istiqamətlərdən hücumlar, təhdidlər var, Azərbaycanın böyük uğurlarına kölgə salmaq, hansı isə şəkildə mane olmaq təşəbbüsləri var. Bütün bu hücumlar, bütün bu həmlələr Azərbaycanın istiqlalına, müstəqilliyinə yönəlib. Azərbaycan dövlətinə yönələn bu hücumlar, əslində, bizim bayrağımıza, dövlət rəmzlərimizə, dövlət rəmzlərimizdən biri olan ölkə başçısına yönələn hücumlardır. Ona görə düşünürəm ki, bu gün hər bir azərbaycanlı və hər bir Azərbaycan vətəndaşı bu mübarizələrə hazır olmalıdır. Heç kəs sakitcə oturmamalıdır. Bu həmlələri, sadəcə, müşahidə etməklə keçmək olmaz. Hər bir Azərbaycan vətəndaşının milli borcu və qeyrətin ondan tələb etdiyi hissiyyatdır ki, səsini qaldırsın, lazım olanda mübarizələrini aparsın. Çünki bu mübarizələr millətimizi, dövlətimizi, dövlətimizin başçısını, istiqlalımızı və bizim üçün çox əziz olan müstəqilliyimizi qorumaq deməkdir.

**Sədrlik edən.** Çox sağ olun. İndi isə mən sözü hörmətli Musa müəllimə verirəm. Müavinlərin çıxışlarını qurtaraq, sonra isə hörmətli deputatlara keçək. Musa müəllim, buyurun.

**Musa Qasımlı.** Hörmətli xanım sədr, hörmətli

həmkarlar, tariximizin mühüm hadisələrindən biri olan 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsi birdən-birə olmadı. Hələ 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin Ümummilli Lider Heydər Əliyevin ağsaqqal deputat olaraq sədrliyi ilə keçirilən iclasında muxtar respublikanın adından "sovet sosialist" ifadələri çıxarılmış, Ali Sovet "Ali Məclis" adlandırılmış, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı olaraq qəbul edilmiş, dövlət rəmzlərini qəbul etmək Azərbaycan SSR Ali Sovetinə tövsiyə edilmişdi. Cümhuriyyəti özünə düşmən hesab edən, müstəqilliyimizin əleyhinə olan SSRİ-nin və Kommunist Partiyasının hələ mövcud olduğu bir şəraitdə belə cəsarətli qərarların qəbul edilməsi onların varlığına zərbə vurdu. Muxtar Respublika Ali Məclisinin müraciətindən sonra 1991-ci il fevralın 5-də Azərbaycan SSR-in adından "sovet sosialist" ifadələri çıxarıldı, "Azərbaycan Respublikası" adlandırıldı. Ümummilli Lider Heydər Əliyev bu salonda Azərbaycan Respublikası Ali Sovetinin sessiya iclasındakı çıxışında Naxçıvan deputatları və əhalisi adından bəyan etdi ki, SSRİ-nin saxlanılmasına dair 1991-ci il martın 17-ə təyin edilmiş referendumun keçirilməsinin əleyhinədir, Azərbaycan müstəqil dövlət kimi yaşaya bilər. Referendum Naxçıvanda keçirilmədi.

Dövlət müstəqilliyinin bərpasından sonra, əslində, yüzilliklər boyu millətimizin istəklərini cənab Prezidentimiz İlham Əliyev gerçəkləşdirdi. 2020-ci il sentyabrın 20-də başlayan Vətən müharibəsində təcavüzkar Ermənistanın məğlub edilməsi, müstəqillik tariximizdə ilk dəfə olaraq 2023-cü il aprelin 23-də Laçında Həkəri çayının

üstündəki körpüdə Ermənistanla sərhəddə nəzarət buraxılış məntəqəsinin qurulması ilə dövlət sərhədləri üzərində tam nəzarətin yaradılması, 2023-cü il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində terrorçu, separatçı rejimin təslim edilməsi, oktyabrın 15-də müzəffər Ali Baş Komandanımız, cənab Prezidentimiz İlham Əliyevin Xankəndidə dövlət bayrağımızı ucaltması və dövlət suverenliyinin 1991-ci ildən sonra ilk dəfə bütün ölkə ərazisində bərqərar edilməsi ilə millətimizin arzuları həyata keçirildi.

1991-ci il oktyabrın 18-dən bu günə qədər keçirilən yolun tarixi təcrübəsindən alınan başlıca ibrət dərsi ondan ibarətdir ki, millətimizin hədəflərinə çatmasının başlıca şərti güclü dövlət, qüdrətli dövlət rəhbəri, ümummilli maraqlara cavab verən bu siyasətin davam etdirilməsidir. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. İndi isə deputatların çıxışlarına keçirik. 10 nəfər. Xahiş edirəm, reqlamentə riayət edin. Elman Nəsirov. Elman müəllim, buyurun.

**Elman Nəsirov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, mən də fürsətdən istifadə edib bizim çox dəyərli bayramımız – Müstəqilliyimizin Bərpası Günü münasibəti ilə hər birinizi təbrik edirəm. Ulu Öndər Heydər Əliyev söyləyirdi ki, müstəqilliyimiz daimi və əbədidir. Həmin siyasətin davamçısı cənab İlham Əliyevin fikirləridir ki, müstəqillik bizim ən böyük sərvətimizdir, bizim ən böyük dəyərimizdir. Həm də bugünkü dünya reallığında müstəqil dövlət olmaq, müstəqil siyasət həyata keçirmək, milli maraqlara söykənən siyasəti reallaşdırmaq çox qəliz, çox mürəkkəb bir məsələdir. Bu siyasəti həyata keçirən dövlətlər çox zaman təzyiq altına düşür və bu gün biz tam

şəkildə Azərbaycana qarşı müəyyən beynəlxalq dairələrin koordinasiya olunmuş fəaliyyətinin motivlərini başa düşürük. Biz ABŞ konqresmenlərinin və senatorlarının, AŞPA təmsilçilərinin, Avropa İttifaqı deputatlarının, İsveçrə, Norveç, hollandiyalı deputatların Azərbaycana qarşı son addımlarının da motivlərini bilirik. Fürsətdən istifadə edib Amerika Birləşmiş Ştatlarının konqresmenlərinə, senatorlarına üzümü tutaraq söyləmək istəyirəm ki, tənqid edəndə gərək buna mənəvi haqqın olsun.

Amerikada qaradərili əhalinin azadlıq mübarizəsinin ən məşhur mücahidlərindən biri Martin Lüter Kinqin məşhur bir nitqi var idi. O söyləyirdi ki, “I have a dream” – “Mənim bir arzum var”. Onun ən böyük arzularından biri o idi ki, Amerika Birləşmiş Ştatlarının, məsələn, Alabama ştatında qaradərili uşaqlarla ağdərililər əl-ələ tutub getsinlər. Mən də amerikalı konqresmenlərə və senatorlara üzümü tutub söyləyirəm: mənim də bir arzum var ki, nəhayət, ölkəniz Uşaq hüquqları haqqında Konvensiyanı ratifikasiya etsin. Yəni bu, biabırçılıqdır. Amerika Birləşmiş Ştatları indiyə qədər bu konvensiyanı ratifikasiya etməyib. Dünyada yeganə ölkədir ki, uşaqlar ömürlük həbs oluna bilərlər və onların həbs müddətinin azaldılması da qeyri-mümkündür. Qanun buna icazə vermir. Mənim bir arzum var ki, ABŞ, nəhayət, Qadınlara qarşı diskriminasiyanın bütün formalarının ləğv edilməsi haqqında Konvensiyaya imza atsın. İndiyə kimi atmayıb. Eyni zamanda, mənim başqa bir arzum da var ki, ABŞ, nəhayət, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakta imza atsın. Ona da imza atmayıb.

Nəhayət, çıxışımın sonunda söyləyirəm ki, Braun Universitetinin “Müharibənin qiyməti” adlı son hesabatında qeyd olunur ki, Amerika Birləşmiş Ştatları 11

sentyabr hadisəsindən sonra antiterror hesab etdiyi əməliyyatlarda 4,3-4,7 milyon insanın həyatına son qoyub. Bax, bu reallıqları yaddan çıxarmasınlar. Mənim arzum budur ki, ayrı-ayrı dövlətlərin daxili işlərinə qarışmasınlar.

**Sədrlik edən.** Sağ olun. Kamal Cəfərov. Buyurun.

**Kamal Cəfərov**. Çox sağ olun, hörmətli xanım sədr. Bu gün Müstəqilliyimizin Bərpası Günüdür. Ötən günlərdə biz Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi və oktyabrın 15-də isə müzəffər liderimiz İlham Əliyevin ilk dəfə Prezident seçilməsi ilə bağlı ildönümünü qeyd etdik. Bu əlamətdar günlər Azərbaycan xalqının, onun milli kimliyinin, dövlətçiliyimizin təntənəsi və möhtəşəm qələbələrimizin təməlidir. Bu əlamətdar günlər, həmçinin dövlət kimliyimizi dəyərləndirmək, dövlət tariximizi yenidən nəzərdən keçirmək üçün xüsusi imkan yaradır.

Əziz həmkarlar, tarixin reallıqlarını düzgün dərk etmək lazımdır. Etiraf etməliyik ki, 1918-ci ildə elan edilən müstəqillik, eyni zamanda, 1991-ci ildə bərpa edilən müstəqillik o vaxtkı geosiyasi şəraitin, tarixi hadisələrin məntiqi nəticəsi idi və təəssüf ki, formal xarakter daşıyırdı. 1918-ci ildə Azərbaycanın müstəqilliyi Birinci Dünya müharibəsi və rus imperiyasının dağılması ilə yaranan geosiyasi boşluğun nəticəsi idi. Xarici güclərin böyük təsiri, daxili, siyasi qeyri-sabitlik bu müstəqilliyi formal və qısaömürlü etdi. 1991-ci ildə Sovet İttifaqının dağılması prosesi sürətlənərkən biz müstəqilliyimizi bir çox ölkələrə nisbətən daha gec elan etdik. Hətta Sovet İttifaqının əsasını təşkil edən Rusiya belə bizdən iki ay əvvəl öz müstəqilliyini bəyan etmişdi. Bu faktları tarixin bir hissəsi kimi qəbul etməliyik. Lakin unutmamalıyıq ki, bu tarix bizə dərslər verməlidir. Çünki millət yalnız özünü

dərk edəndə güclü olur, xalq öz kimliyini tanıdıqda qüdrətli olur. Məzmun baxımından Azərbaycanın müstəqilliyinin əsl bərpası 1990-cı ilin noyabrında Naxçıvanda Ulu Öndər Heydər Əliyevin cəsarətli təşəbbüsü ilə başladı. O, "sovet sosialist" sözlərini Naxçıvanın adından çıxararaq üçrəngli bayrağımızı rəsmi dövlət bayrağı elan etdi. Bu addım yalnız dövlətçiliyin bərpası deyildi, həm də müstəqilliyimizin ideoloji təməlini möhkəmləndirən bir qərar idi. Ona görə də Ulu Öndər Heydər Əliyev təkcə müasir Azərbaycan dövlətinin qurucusu deyil, həm də əsl müstəqiliyimizin banisi olmuşdur.

1993-cü il iyunun 15-dən, yəni Qurtuluş Günündən etibarən atılan strateji addımlar 2020-ci ildə müzəffər liderimiz İlham Əliyevin rəhbərliyi ilə xalqımızı böyük Zəfərə çatdırdı. Əliyev dövlət idarəçiliyi sübut etdi ki, Azərbaycanın gücü sabitlik, təhlükəsizlik, iqtisadi inkişaf və müstəqil xarici siyasətdən keçir. Bu idarəçilik irsi əsasında formalaşan dövlət kimliyi isə bizim suverenliyimizin qarantıdır. Azərbaycanın parlaq gələcəyi də məhz Əliyev dövlət idarəçiliyi nəticəsində formalaşan bu kimlikdədir. Bizim vəzifəmiz isə bu kimliyi gələcək nəsillərə aşılayaraq qorumaqdır. Çünki bu kimliyin qorunması həm də Azərbaycanın rifahı və təhlükəsizliyinin təminatıdır. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aqil Abbasov. Aqil müəllim, buyurun.

**Aqil Abbasov**. Təşəkkür edirəm, Sahibə xanım. Mən də bütün deyilənlərə qoşuluram. Müstəqilliyimizin Bərpası Günü münasibəti ilə hamını təbrik edirəm.

Mən başqa mövzu haqqında danışmaq istəyirəm. Türklər Sultan Mehmet haqqında "Fatehlər fatehi" adlı gözəl bir film çəkiblər. Film hələ davam edir. 19 seriya

çəkiblər. Çox təəssüf ki, bizdə belə filmlər çəkilmir. Həmin film ilə bizim bugünkü vəziyyətimiz arasında paralellər apardım. Son 30 ildə başımıza hansı hadisələr gəlib, bu hadisələrdən Ulu Öndər və möhtərəm Prezident bizi necə çıxardıb... Eyni ilə Sultan Mehmetin apardığı siyasətdir. Bütün Avropa Osmanlıya düşmən idi. Bütün Avropa Osmanlını dağıtmaq üçün birləşmişdi. İmperiyanın içərisində də indi bizdəki kimi kərtənkələlər var idi. Amma Sultan Mehmet bunların hamısı ilə mübarizə apardı və İstanbulu azad etdi. Mən "fəth etdi" demirəm, İstanbul, onsuz da, bizim idi. İstanbulda türk bayrağını qaldırdı. 500 ildir, o bayraq zirvələrdədir. Paralellər aparanda gördüm ki, biz 44 gündə qələbə qazandıq. O da aprel ayında İstanbula hücum edib və bu proses may ayında bitdi. Təxminən 40-45 gün. Çox qəribə təsadüfdür. İstanbulu fəth edibdir. Bizim möhtərəm Prezident də 44 günə Şuşanı fəth etdi. Öz torpağımızı fəth etmək düz deyil, amma belə deyirəm. Xankəndidə də bayrağımızı ucaltdı. Möhtərəm Prezidentimizin dediyi kimi, o bayraq orada əbədi dalğalanacaq.

Çox qəribə paralellər gördüm. Böyük bir məqalənin, ya da əsərin mövzusudur. Mən inanıram ki, bizdə də möhtərəm Ali Baş Komandan, cənab Prezident haqqında belə bir film çəkiləcək. Onlarda o film "Fatehlər fatehi: Sultan Mehmet" adlanır. Mən yazıçı kimi deyirəm, bizdə də "Fatehlər fatehi: Sultan İlham Əliyev" adlanacaqdır. Sağ olun.

**Sədrlik edən.** Siz həmişə maraqlı çıxışlar edirsiniz. Amma düşünürəm ki, sultan deyil – Prezident İlham Əliyev haqqında. Dediniz, başa düşdük, eşitdik. Çox sağ olun. Zahid Oruc. Zahid müəllim, buyurun.

**Zahid Oruc.** Hörmətli sədr, xalqımız 8 noyabr – Zəfər,

20 sentyabr – Suverenlik Gününə qədər 1991-ci ildə qazandığı müstəqilliyi öz təqvimində qara haşiyələrin işğalı altında qeyd edirdi. 2024-cü ilin 18 oktyabrı əsla 33 il əvvəlki tarix deyil, parlaq Vətən müharibəsinin birbaşa nəticəsidir. Yulian təqvimini qalibiyyətləri ilə Roma imperiyasına bəxş edən Sezar kimi İlham Əliyev də ordu və xalqı ilə birlikdə Azərbaycanın qələbələrini simvollaşdırdı, işğal keçmişindən, məğlubiyyət, soyqırım, köçkünlük əsrindən xilas olduğu yeni təqvim yaratdı. Müstəqilliyimizə üçəsrlik tariximizdən baxsaq, xanlıqlar, çarizm, Sovet İttifaqı dövlətləri və ondan sonrakı dövrdə azərbaycanlıların dövlət və millət varlığı həmişə rus imperiyası və İrandan, ya da Cümhuriyyət qurucularının yardım istədikləri Vudro vilsonlardan asılı olub. I Pyotrdan sonra heç bir rus lideri ermənilərі azərbaycanlılara qurban verməyib. İlham Əliyev 300 illik tarixin gedişini və hökmlərini dəyişdirdi. Özünün dediyi kimi, qlobal layları tərpətdi. Qarabağı və Naxçıvanı xilas edən Nərimanov da, İranda azərbaycanlı davası aparan Bağırov da Azərbaycanı indiki qədər müstəqil edə bilməyib. Heydər Əliyev kursu xalqımızı həqiqi müstəqilliyinə qovuşdurdu və biz indi 1991-ci ildəki oktyabrdan deyil, 2020-ci ildən sonrakı yeni tarixdən danışırıq.

2024-cü ilin müstəqillik gününün ikinci əlaməti tarixdə ilk dəfə ermənilərin kompakt yaşadığı Xankəndidən etnik təmizləmə yolu ilə deyil, könüllü getməsidir. Bir daha vuğulayırıq ki, Ermənistandan fərqli olaraq biz heç vaxt monoetnik dövlət olmayacağıq. Əgər Sovet Birliyi dağılanda ərazilərimiz işğal olunmasa idi, Dağlıq Qarabağ Muxtar Vilayəti qalacaqdı və indi biz bayramı ermənilərlə birgə qeyd edirdik. 2020-ci illə də müqayisə edə bilmərik, Cümhuriyyət zamanı ilə də. Çünki ermənilər onda da

Qarabağda müəyyən sayda mövcud idilər. Beləliklə, Azərbaycanın varlığı tarixində ilk dəfədir, millətimiz erməni muxtariyyəti və işğalı olmadan müstəqilliyini qeyd edir.

İndiki azadlığımızın üçüncü atributu 1991-ci ildə işğalı həyata keçirənlərin öz ədalət məhkəmələrini gözləmələridir. İkinci Dünya müharibəsindən sonra 75 ildə bu, heç bir dövlətə ayrılıqda müyəssər olmayıb.

Bir çox keçmiş Sovet ölkələrindən fərqli olaraq ölkəmizdə hakimiyyət Brüsseldən təyin olunmur. O cümlədən İran dövləti qacarlardan sonra ilk dəfə müharibədə qələbəmizdən bəhrələnmək və azərbaycanlıları ali dini şura altında birləşdirmək üçün prezidentini, bir azərbaycanlını 80 namizəd içərisindən xalqa rəhbər seçib, Zəfərimizdən faydalanıblar. Ona görə də 2023-cü ildə sona çatan erməni-azərbaycanlı konfliktini indi əbədi qurtarmaq və daimi sülhü bərqərar etmək də məhz Azərbaycandan asılıdır. Böyük Qayıdışın və bütövlüyümüzün rəmzi olan yeni müstəqilliyimiz əbədi və möhkəm olsun! Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli xanım sədr, öncə Sizi və nümayəndə heyətini uğurlu və məhsuldar səfərlər münasibəti ilə təbrik edirəm. Möhtərəm Prezidentin müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq, parlament diplomatiyası inkişaf edir və güclənir. Bu, həm də bizim bu gün müzakirə etdiyimiz güclü müstəqilliyimizin təzahürüdür.

Bu gün Azərbaycanda Müstəqilliyin Bərpası Günüdür. Dünən Füzuli Şəhəri Günü qeyd olundu. Oktyabrın 15-də cənab İlham Əliyevin ilk dəfə dövlət başçısı seçilməsindən 21 il keçdi. Ötən əsrin 1990-cı illərində Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qısa müddətdə

müstəqilliyi itirmək təhlükəsi ilə üz-üzə qaldı. Yalnız 1993-cü ilin iyununda xalqımızın təkidli tələbi ilə Ümummilli Liderimizin yenidən hakimiyyətə qayıtması müstəqilliyin itirilməsi riskini aradan qaldırdı. Bu gün bizim əldə etdiyimiz uğurların, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa edilməsinin banisi məhz Ümummilli Liderdir. Qarabağı, Füzulini, Şuşanı işğaldan azad edən gənclər Ulu Öndər Heydər Əliyev məktəbinin, möhtərəm Prezidentin idarəçiliyinin yetirmələridir. Mən həm Azərbaycanın əldə etdiyi uğurları həzm edə bilməyən marjinal daxili siyasi qüvvələrin, həm də bir sıra xarici ölkələrin qərəzli mövqelərinə uyğun olaraq, qeyd etmək istərdim ki, Ümummilli Lider hakimiyyətə gələn zaman yalnız siyasi anarxiya deyil, həmçinin iqtisadi bir tənəzzül müşahidə edilirdi. Belə ki, Ümummilli Lider hakimiyyətə gələn zaman Azərbaycanın iqtisadiyyatının həcmi cəmi 375 milyon manat, büdcə gəlirləri 100 milyon manat idi. Ümummilli Liderin rəhbərliyi ilə islahatların aparılması Azərbaycan iqtisadiyyatının çox qısa müddətdə 4,5 dəfə böyüməsinə imkan yaratdı. Eyni zamanda, son 21 ildə biz Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinin daha da güclənməsini müşahidə etdik.

2003-cü ildə cənab Prezident dövlət başçısı seçilən zamandan son 21 ili müqayisə etsək, bu dövr ərzində Azərbaycanda minimum əmək haqqı 38 dəfə, minimum pensiya 14 dəfə artıb. 2003-cü ildə Azərbaycanda ÜDM-in həcmi 7 milyard dollar idi. Bu rəqəm 21 ildə 72 milyard dollara qədər yüksəlib. Eyni zamanda, 2 milyard dollar olan dövlət rezervlərimiz son 21 ildə 70 milyard dollara qədər artıb. Bunlar ondan xəbər verir ki, həm geoiqtisadi, həm də geosiyasi mövqeyimiz möhkəmlənib. Müstəqilliyimizin bərpası məhz son 21 ildə və ondan da öncə

Ümummilli Liderimizin hakimiyyətə yenidən qayıtması nəticəsində daha da gücləndi. Bu gün Azərbaycan regionun aparıcı iqtisadi gücü olaraq geosiyasi məsələlərə təsir edən ölkədir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Siz çox vacib bir aspekti vurğuladınız. Çox sağ olun. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, hörmətli qonaqlar. Mən də deyilən bütün təbriklərə qoşuluram, bu bayram günü münasibəti ilə xalqımızı təbrik edirəm.

Dünyada 5 minə yaxın xalq yaşayır. Lakin bu 5 min xalqın cəmi 200 dövləti BMT-də qeydiyyatdan keçib. Onlar müstəqil dövlətlər adlansalar da, görürük ki, çoxu heç müstəqil deyil. Kimsə Ermənistan kimi kiminsə yedəyində gedir, kimsə də Avropa Birliyi, Avropa İttifaqı kimi qurumlarda təmsil olunur, başqa dövlətlərin maraqlarını həyata keçirir, öz ölkələrinin maraqları isə kənarda qalır. Azərbaycan çox az ölkələrdəndir ki, bu gün müstəqil siyasət aparır. Cənab Prezident Azərbaycan xalqının maraqlarını ən yüksək səviyyədə dünyada təmsil edir.

Keçmişdə belə bir ifadə var idi ki, Azərbaycanı Heydər Əliyevlə, bir də nefti ilə tanıyırlar. Bu gün artıq Azərbaycanı cənab Prezidentin adı ilə tanıyırlar. Harada İlham Əliyevin adı çəkilirsə, bilirlər ki, orada Azərbaycan var, orada söz var, əməl var, ictimai-siyasi sabitlik, sülh, əmin-amanlıq var. Ona görə də bir çox beynəlxalq tədbirlər Azərbaycanda keçirilir.

Azərbaycan öz müstəqilliyini bərpa edəndə 15 müttəfiq respublika arasında ən acınacaqlı müstəqillik ölkəmizə nəsib olub. Bir tərəfdən, yerində olmayan rəhbərlər, digər tərəfdən isə, Azərbaycan ərazilərinin işğal olunması.

Bizim xatirimizdədir, burada müstəqilliklə bağlı müzakirələr gedəndə, səhv etmirəmsə, 15 müttəfiq respublika arasında müstəqilliyimizi 14-cü elan etdik. Çünki bizdən qabaq, demək olar ki, bütün ölkələr öz müstəqillik bəyannamələrini vermişdilər. Həm o vaxtkı Azərbaycanın müxalif adlandırdığı, bu gün isə özlərini "demokrat" adlandıranların səriştəsizliyi, naşılığı, vətənə xidmət etməməsi, həmçinin dövlət başçılarının qorxaqlığı Azərbaycanın müstəqilliyinin elan edilməməsi idi.

Xatırlayıram, Azərbaycanın ərazisi işğal olunan dövrdə ordu yaratmaq əvəzinə, deyirdilər ki, gəlin, adını qvardiya qoyaq. Qvardiya tamam başqa şeydir, ordu isə tamam başqa bir şeydir. Yəni hətta bundan qorxub çəkinirdilər və Azərbaycanı müstəqil dövlət kimi görə bilmirdilər. Ümummilli Lider burada elan edəndə ki, Azərbaycan müstəqil yaşaya bilər, bu parlamentdə bir çoxları ayağını yerə dirəyib "reqlament" deyə qışqırırdılar. Amma Heydər Əliyev Azərbaycana parlament mədəniyyətini, dövlətçilik mədəniyyətini gətirdi və dövləti daşlı, çınqıllı yoldan çıxardı.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Azərbaycanın müasir tarixində əlamətdar günlərdən biri də 2003-cü il oktyabrın 15-nə təsadüf edir. Həmin gün həm də Azərbaycanın gələcəyinin həll olunduğu tarix idi. O gün xalqımız böyük əzm və müdriklik nümayiş etdirərək Azərbaycanın gələcək inkişafına, ictimai-siyasi sabitliyinin qorunmasına səs verdi.

Prezident seçkilərindən sonra Azərbaycan yeni bir mərhələyə daxil oldu. Ölkəmiz müstəqil daxili və xarici

siyasət həyata keçirdi. Qısa müddətdə nəhəng enerji layihələrini reallaşdırdı. Ölkənin sosial-iqtisadi inkişafı təmin olundu, sürətli ordu quruculuğu həyata keçirildi. Milli-mənəvi dəyərlərimizin qorunması, milli həmrəyliyin təmin olunması, güclü Azərbaycan konsepsiyasının həyata keçirilməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası istiqamətində mühüm tədbirlər həyata keçirildi. Azərbaycan qısa vaxtda dünyanın enerji təhlükəsizliyində mühüm rol oynayan dövlətə çevrildi.

Azərbaycan bütün bu uğurlara Prezident İlham Əliyevin uzaqgörən, prinsipial və qətiyyətli siyasəti, yüksək liderlik bacarığı nəticəsində nail oldu. Bu gün məhz bu siyasət nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilib. Dünya dövlətləri ölkəmizlə əlaqələrin inkişafına, əməkdaşlığın dərinləşdirilməsinə ciddi maraq göstərirlər.

Məlum olduğu kimi, bir neçə gündən sonra ölkəmiz COP29 kimi mötəbər tədbirə ev sahibliyi edəcək. Bu, Azərbaycanın qazandığı nüfuzun və yüksək etimadın əyani sübutudur. Bunlar göstərir ki, ölkəmizdə bütün layihələr məqsədyönlü və planlaşdırılmış formada həyata keçirilir. Azərbaycan mərhələli şəkildə bütün hədəf və məqsədlərinə nail olur.

Bu gün Azərbaycana qarşı qərəzin, aparılan çirkin kampaniyaların səbəblərindən biri də məhz bu uğurlardır. Ölkəmizin bölgədə yeni reallıq yaratması, müstəqil siyasət həyata keçirməsi bir çox dövlətləri ciddi narahat edir. Hazırda Qərbin bəzi dairələri sanki Azərbaycana qarşı qarayaxma kampaniyası aparmaq üçün növbəyə durublar. Ölkəmiz əleyhinə qərəz kampaniyasını durmadan davam etdirirlər. Azərbaycanın həyata keçirdiyi müstəqil siyasətin qarşısını almağa, bölgəmizə sülhün

gəlməsinə, Ermənistanla münasibətlərin normallaşmasına ciddi səylə mane olmağa çalışırlar. Ancaq bütün qərəz və düşmənçiliyə baxmayaraq, Azərbaycan hər zaman olduğu kimi bütün məqsəd və hədəflərinə nail olacaq. 30 ilin təcrübəsi bu reallığı bir daha təsdiq etdi. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. 18 oktyabr – Azərbaycanda Müstəqilliyin Bərpası Günü tariximizin ən şanlı səhifələrindən biridir. 1991-ci ildə xalqımız buxovları sındıraraq öz müstəqil dövlətini yenidən bərpa etdi, azadlıq arzusunu gerçəkləşdirdi. Bu əlamətdar gündə qəhrəman xalqımızın birliyini, azadlıq sevgisini, qətiyyətini bir daha xatırlayırıq və bilirik ki, müstəqilliyimiz əbədidir.

Bununla bərabər, bu gün Azərbaycanın müstəqil siyasət yeritməsi bir çox ölkələri narahat edir. Mövcud ölkələrin hamısı müstəqil olduqlarını bəyan etsələr də, reallıqda bu, belə deyil. Müstəqillik var ki, yalnız kağız üzərində mövcuddur. O cür müstəqilliyi qəbul etmək istəmədiyimiz üçün təzyiqlərlə üzləşirik. Bu gün fəxrlə deyirik ki, biz, doğrudan da, tam müstəqil dövlətik və tam müstəqil siyasət yürüdə bilirik. Məgər bu, xalqımızın əldə etdiyi ən böyük xoşbəxtlik deyilmi? Yaşasın müstəqil və suveren Azərbaycan!

Fürsətdən istifadə edib bir məsələyə də münasibət bildirmək istəyirəm. Bəzi binalarda, evlərdə təbii qaz yoxdur. Həmin bina və evlərin sakinləri hər kəs kimi elektrik enerjisinə görə bərabər tarif ödəyirlər. Bu məsələ ciddi narazılıq yaradır. Xeyli müraciətlər almışam. Elə deputatı olduğum İmişlidə də belə binalar və yerlər var. Səbəb isə binalar tikilən zaman təbii qaz infrastrukturunun

nəzərə alınmamasıdır. Amma bu, vətəndaşın günahı deyil. Mən araşdırdım və gördüm ki, bir sıra ölkələrdə bunlar nəzərə alınıb və bu tip binalarda yaşayanlara elektrik enerjisi güzəştli tariflərlə satılır. Obyektiv səbəblərdən təbii qazla təmin olunmayan bina və evlərdə yaşayan ailələrin güzəştli şərtlərlə elektrik enerjisi ilə təmin olunmasını təklif edirəm.

Qarşıdan qış gəlir, havalar artıq soyuyub. Bu məsələnin tez bir zamanda müzakirəsinin keçirilməsini vacib bilirəm. Həm də aidiyyəti dövlət orqanlarının, o cümlədən Nazirlər Kabinetinin bu məsələ ilə bağlı mövcud durum və planlar haqqında bizə də məlumat verməsini xahiş edərdim. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun. Əgər Sizdə məktublar varsa, xahiş edirəm. Fərid müəllim, məsələ ilə məşğul olun, götürün, sonra bununla bağlı arayış təqdim edərsiniz. Sonra Sizinlə də ayrıca danışarıq. Müzakirə deyirsiniz, ancaq məktubların hamısını alın. Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev.** Hörmətli xanım sədr, dəyərli həmkarlar. Müstəqilliyin Bərpası Günü ilə bağlı mən də hər birinizi təbrik edirəm.

Bəli, düz 33 il öncə, bun gün bu salonda müstəqilliyin bərpası haqda Konstitusiya Aktı qəbul olundu. Ancaq hadisələrin sonrakı gedişi, torpaqlarımızın işğalı bu azmış kimi, vətəndaş savaşı və bir neçə yerə parçalanmaq təhlükəsi ilə üzləşməyimiz göstərdi ki, Konstitusiya Aktının qəbulu, sadəcə, niyyətdir. Bu, hələ müstəqilliyin bərpası demək deyildi. Ona görə Ulu Öndər Heydər Əliyev deyirdi ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətindir.

Biz indi görürük ki, müstəqilliyi qoruyub saxlamaqdan da çətini var. O da de-yure müstəqil statusunu de-fakto da

təsdiqləməyi bacarmaqdır. Bu gün dünyada de-yure müstəqil dövlətlərin sayı 200-dən artıqdır. Amma onların nə qədəri de-fakto müstəqildir? Bax, məsələ burasındadır. Təəssüf ki, de-fakto müstəqil dövlətlərin, yəni ancaq öz milli maraqlarından çıxış edənlərin sayı sözdə müstəqil olan dövlətlərdən azdır, həm də dəfələrlə azdır. Sözdə müstəqil olanların bir hissəsi Ermənistan kimi geosiyasi alət, digər hissəsi həm ideoloji, həm də hərbi işğal altında olan bir ölkənin timsalında plasdarm, üçüncü qismi isə peyk funksiyasını yerinə yetirir.

Fəxrlə qeyd edim ki, vətəndaşı olduğum dövlət bu gün de-yure olduğu qədər də de-fakto müstəqil dövlətlər sırasındadır. İqtisadi, hərbi potensial, eləcə də insan resursları baxımından bizdən qat-qat güclü xeyli dövlət var ki, onlar heç də Azərbaycan kimi  müstəqil siyasət yeridə bilmirlər. Səbəb, təbii ki, ilk növbədə lider faktoru ilə əlaqədardır.

Beləliklə,  Cümhuriyyət qurucuları Azərbaycanın bir hissəsini coğrafi varlıqdan həm də siyasi varlığa çevirmələri ilə tarixə düşdükləri, Ulu Öndər Heydər Əliyev çox mürəkkəb proseslərin tam əleyhimizə işlədiyi vaxtda həmin sərhədlər çərçivəsində dövlət qurmağı bacarması ilə minnətdarlıqla anıldığı və anılacağı kimi, cənab İlham Əliyevin yırtıcı güclərin israr və təhdidlərə qarşı çıxmalarına baxmayaraq, açıq və gizli işğala son qoyaraq bütün torpaqlarımız üzərində suverenliyimizi təmin etməsi də əsrlər keçsə də unudulmayacaq.

Artıq müstəqilliyini bərpa etmiş Azərbaycanın qüdrətli keçmişimizə dayanan böyük mənəvi coğrafiyasının bərpası yönündə də ilk mühüm addımı atan məhz cənab İlham Əliyevdir. Bu addımın arxasınca digərlərinin gələcəyinə artıq kimsədə şübhə yoxdur. Çünki harada

yaşamalarından asılı olmayaraq, azərbaycanlıların haqq və hüquqları heç vaxt indiki qədər qətiyyətlə və peşəkarlıqla qorunmayıb. Burada da Qərbi Azərbaycan kökənlilər hazırda ön plandadır. Onlar öz yurdlarına dönməlidirlər və dönəcəklər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. İlham Məmmədov. Buyurun.

**İlham Məmmədov.** Hörmətli xanım sədr, söz verdiyiniz üçün çox sağ olun. Mən də ilk növbədə Müstəqilliyin Bərpası Günü münasibəti ilə möhtərəm Prezidentimiz cənab İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva başda olmaqla xalqımızı və hörmətli xanım sədr, Siz başda olmaqla hörmətli deputat həmkarlarımı ürəkdən təbrik edirəm.

Bu günü Ulu Öndərimiz Heydər Əliyevin dediyi bir cümlə ilə belə qiymətləndirmək olar: “Müstəqilliyimiz daimidir, əbədidir, dönməzdir”. Ümummilli Lider Heydər Əliyevin qurub yaratdığı, qoruyub saxladığı müstəqil Azərbaycanda bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımızın əsrlər boyu arzusunda olduğu ən böyük və şərəfli arzusu həyata keçdi. Möhtərəm cənab Prezidentimiz dünya xəritəsində bir zərrə qədər görünən Azərbaycanı dünyanın özü qədər böyütdü. Müstəqilliyimizi əldə etdiyimiz ilk günlərdə öz mövcudluğunu itirmək təhlükəsi qarşısında olduğu bir ölkə bu gün dünyanın təhlükəsizliyinə məsul olan təşəbbüskar bir ölkədir. Məhz buna misal olaraq bu günlərdə keçiriləcək COP29-u nümunə göstərə bilərik. Dünyanın ən böyük qlobal tədbirinin son hazırlıq işlərinə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin şəxsən nəzarəti və diqqəti onu göstərir ki, Azərbaycan bu tədbirə uğurla ev sahibliyi edəcək, ölkəmizin malik olduğu potensialı bir daha dünyaya göstərmək imkanı olacaq.

Əlbəttə, Azərbaycan bu tədbirə ev sahibliyi etməyə təsadüfən seçilən bir ölkə deyil. Azərbaycan böyük bir təcrübəyə sahib olaraq, eyni zamanda, bu gün əsas söz sahibi kimi bir çox məqamlarda qlobal sistemin dialoq masasını hər zaman formalaşdıran, təşəbbüskar qismində çıxış edib. Bu, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Qoşulmama Hərəkatına sədrliyi müddətində də artıq dünyaya bir sübut oldu.

Azərbaycan bu gün Cənubi Qafqazın beyin mərkəzinə, beynəlxalq platformalar mərkəzinə çevrilib. Bakı, Şuşa, Qarabağımızın fərqli-fərqli bölgələri artıq dünyanın bir çox beyin mərkəzlərinin və siyasi institutlarının toplaşdığı mərkəzə çevrilib. Bax, bu artan nüfuza etimad, COP29-a ev sahibliyi etməyimiz anti-Azərbaycan Qərb koalisiyasının qıcığına səbəb olubdur. Təbii ki, belə qarayaxma kampaniyalar İsveçrə Konfederasiyasının, Kanadanın, Amerikanın, Fransanın, eyni zamanda, daxildən Əli kərimlilərin, Cəmil həsənlərin, Sevinc osmanqızıların, qənimətlərin və digər anti-Azərbaycan qüvvələrinin artıq gündəlik işidir. Amma bütün bunlara baxmayaraq, Azərbaycan bəşəriyyət qarşısında məsul olduğu o vəzifəni uğurla yerinə yetirir.

Hörmətli xanım sədr, Azərbaycanın milli maraqlarına heç bir qüvvə təsir edə bilməz. Bu günlərdə Sizin İsveçrədə Parlamentlərarası İttifaqın toplantısında səsləndirdiyiniz bu təklifə təşəbbüskarlıq missiyası olaraq Azərbaycan birgə keçirdiyi...

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, gündəliyin məsələlərinə keçirik. Bildiyiniz kimi, gündəliyimizdə 15 məsələ var. İndi isə 1-ci məsələyə keçirik. “Bələdiyyələrin statusu haqqında” və “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” qanunlarda də-

yişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, layihə üçüncü oxunuşda təqdim edilir. Hörmətli həmkarlar, onu da xatırlatmaq istəyirəm ki, Milli Məclisin Daxili Nizamnaməsinə görə, qanun layihəsinin üçüncü oxunuşu zamanı layihə bütövlükdə səsə qoyulur. Üçüncü oxunuş zamanı qanun layihəsinin mətnində dəyişiklik edilə bilməz.

Hörmətli həmkarlar, layihəyə Regional məsələlər komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən sözü komitənin sədri hörmətli Siyavuş müəllimə vermək istəyirəm. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, qanun layihəsi cənab Prezidentin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə daxil olubdur. Birinci və ikinci oxunuş dövründə qanunla əlaqədar hər hansı bir təklif daxil olmayıbdır. Sadəcə, bura texniki xarakterli kiçik düzəliş əlavə olunur. Burada göstərilən "elektron portal" ifadəsi "informasiya sistemi" ifadəsi ilə əvəz edilir. Qalan məsələlər isə öz qaydasındadır. Həmkarlarım tərəfindən qanunla əlaqədar nə yazılı, nə şifahi əlavə təkliflər verilmədiyi üçün səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Heç kimin nə sualı, nə sözü yoxdur. Buyurun, məsələyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

Səs vermədi 0
İştirak edir 106
Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti 5 məsələ ikinci oxunuşda olan qanun layihələridir. İndi 2-ci məsələyə keçirik. Bu, Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, buyurun.

**Nurlan Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Layihə ilə bağlı ilk oxunuş zamanı geniş məlumat verilmişdir. Hər hansı rəy və təklif yoxdur. Olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Nurlan müəllim, çox sağ olun. Hörmətli həmkarlar, bu qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Mən indi komitənin sədri hörmətli Azər Əmiraslanovdan xahiş edəcəyəm. Azər müəllim, siz də komitənin rəyini bildirin. Buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Məsələyə komitədə baxılmışdır, hörmətli xanım sədr. Rəyimiz müsbətdir. Layihənin dəstəklənməsini xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli

həmkarlar, bilirsiniz ki, qanun layihəsi ikinci oxunuşda əvvəlcə əsas kimi qəbul edilməlidir. İndi isə xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb. Ona görə mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Mən xüsusilə yeni seçilən deputatlara xatırladıram ki, biz ikinci oxunuşun qaydalarına uyğun olaraq, qanun layihəsini əvvəlcə maddələr üzrə, sonra isə bütövlükdə səsə qoyacağıq.

Hörmətli həmkarlar, bu layihədə 3 maddə var. Mən onları bir-bir səsə qoyacağam. Buyurun, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. 1-ci maddə qəbul edildi.

İndi 2-ci maddəyə səs verməyinizi xahiş edəcəyəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
| --- | --- |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
İndi isə 3-cü maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
| --- | --- |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.
İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
| --- | --- |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu məsələ də "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Konstitusiya Məhkəməsi haqqında" və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihələridir. Bu bizim 3-cü məsələmizdir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Hər hansı dəyişiklik olmadığı üçün layihənin olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində də baxılıb. Komitənin sədri hörmətli Arzu Nağıyev, buyurun, komitənin rəyini bildirin.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Layihəyə komitədə baxılmışdır. Əlavə rəy və təklifimiz yoxdur. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Əvvəlcə biz bu qanun layihəsini əsas kimi qəbul edək. Hörmətli həmkarlar, ikinci oxunuşdur, xatırladıram. Qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə biz müzakirəyə keçəcəyik. Yazılanlar var. Qüdrət Həsənquliyev. Qüdrət müəllim, buyurun.

**Qüdrət Həsənquliyev.** Hörmətli sədr, həmkarlar, Məclis iştirakçıları. Hörmətli sədr, ilk öncə Sizi və nümayəndə heyətinin üzvlərini uğurlu səfər münasibəti ilə təbrik edirəm və yeni uğurlar arzulayıram.

18 oktyabr – Müstəqilliyin Bərpası Günü münasibəti ilə hər birinizi, xalqımızı təbrik edirəm. Xalqımızın tarixinə qızıl hərflərlə yazılmış bu gündə 71 ildən sonra yenidən müstəqil dövlət qurmağın qürurunu bizlərə yaşatmış milli azadlıq hərəkatının üzvlərini, hərəkatın lideri Əbülfəz Elçibəyi, müstəqilliyimizi və yeni yaranmış dövlətimizi qorumuş, onu dağılmaq təhlükəsindən xilas etmiş böyük dövlət adamı Heydər Əliyevi böyük ehtiramla yad edirəm. Əmir Teymurun sözləri ilə ifadə etsəm: “Dövlətin gücü xalqın birliyində və ədalətdədir”. Müstəqilliyimizin dönməz və əbədi olması üçün Allah birliyimizi əlimizdən almasın, bizi ədalətdən məhrum etməsin!

Hörmətli sədr, mən müzakirə olunan məsələ ilə bağlı birinci oxunuşda öz fikirlərimi söyləmişdim. Sadəcə olaraq, bir təkliflə çıxış etmək istəyirəm. Bilirsiniz ki, bu günlərdə Niderland Parlamentinin Nümayəndələr Palatası Azərbaycanla bağlı iki bədnam qətnamə qəbul etmişdir. Hesab edirəm ki, Milli Məclis adından onlara layiqli cavab verildi. Mənim təklifim ondan ibarətdir ki, iclaslararası dövrdə Milli Məclisin adından kollegial bir

orqan kimi qərarlar qəbul etmək, yaxud bəyanatlarla çıxış etmək, parlamentin işinin təşkili ilə əlaqədar olaraq Milli Məclisin bir rəyasət heyətinin formalaşdırılmasına ehtiyac var. Sədrin rəhbərliyi ilə, müavinlərin və komitə sədrlərinin iştirakı ilə Milli Məclisin işinin təşkili ilə bağlı mütəmadi olaraq iclaslar keçirilir və bu, təqdirolunandır. Amma, məncə, bunu rəsmiləşdirməyə ehtiyac var ki, iclaslararası dövrdə Milli Məclis adından bəyanatlarla çıxış etmək mümkün olsun.

Bilirik ki, Daxili Nizamnaməyə görə, sədrin səlahiyyətlərinə öz müavinləri və komitə sədrləri ilə birlikdə qanunvericilik üzrə illik planlar hazırlamaq və Prezident Administrasiyası ilə bunu razılaşdırmaq daxildir. Yəni bu iş, onsuz da, görülür. Amma belə bir kollegial qurumun formalaşdırılması, məncə, müzakirə oluna bilər, yaxud da parlamentin sədrinə o səlahiyyətlər verilə bilər ki, Milli Məclisin iclaslararası dövrdə bəyanatlarla çıxış etmək imkanı olsun. Diqqətinizə görə çox sağ olun. Mən layihəni dəstəkləyəcəyəm.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm. Edilən dəyişiklikləri dəstəkləyirəm və hesab edirəm ki, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya Milli Məclisdən seçilmə prosedurlarını daha da dəqiqləşdirir. Yəni bu məsələdə seçim imkanlarını daha da genişləndirir.

18 oktyabr – Müstəqilliyin Bərpası Günü münasibəti ilə, hörmətli xanım sədr, Sizin təbrikinizə qoşuluram. Bu, hər birimizi sevindirən, eyni zamanda, qürur duyduğumuz ən vacib bir tarixdir. Ondan sonra keçən dövr göstərir ki, Azərbaycan xalqı bu müstəqilliyə layiq idi. Müstəqilliyimizin bərpası uğrunda mübarizənin əsas qəhrəmanı Azərbaycan xalqı idi, onun ayrı-ayrı dəyərli oğul və

qızları idi, ziyalıları idi, kimliyindən asılı olmayaraq, hər bir vətəndaşımız idi. Bu gün Azərbaycan xalqı, doğrudan da, müstəqilliyə layiq olduğunu göstərir.

Hörmətli xanım sədr, mən də bəzi xarici ölkə parlamentlərinin anti-Azərbaycan kampaniyasında fəallığı məsələsinə öz fikrimi bildirmək istəyirəm. Niderland parlamentinin iki palatası, İsveç Federal Məclisinin Xarici siyasət komitəsi anti-Azərbaycan qətnamələri qəbul edib. Hətta uzaq İslandiyanın iki deputatı parlamentdə anti-Azərbaycan qətnaməsi qəbul etmək üçün təşəbbüs göstərib. Mənə, sadəcə olaraq, maraqlıdır ki, bizim Niderlanda nə pisliyimiz keçib? İsveçrə ilə hansı məsələdə bizim maraqlarımız toqquşur? Yaxud da hansı məsələdə biz onların – İslandiyanın, Niderlandın payını əlindən almışıq? Anti-Azərbaycan qətnaməsinə səs verən həmin avropalı deputatların neçəsi Azərbaycanda olubdur? Yaxud da neçəsi azərbaycanlı deputatla beynəlxalq tədbirlərdə üzbəüz oturub Azərbaycanla bağlı məsələni müzakirə edibdir?

Mən hörmətli hüquqşünaslardan, o cümlədən, Ziyafət müəllim, Sizdən soruşuram. Hansı beynəlxalq konvensiyada yazılıb ki, bir ölkənin milli parlamenti digər ölkənin daxili işlərinə qarışacaq qətnamə qəbul etmək hüququna malikdir? Belə bir hüquq varmı? Əgər yoxdursa, bizə demokratiya, insan hüquqları dərsi keçmək istəyən Avropa parlamentlərinin vaxtaşırı anti-Azərbaycan qətnamələri qəbul etməkdə məqsədləri nədən ibarətdir? Bəlkə bizim öz müstəqil daxili, xarici siyasət yeritmək praktikamız onların xoşuna gəlmir? Bəlkə Azərbaycanın öz təbii sərvətlərindən milli maraqlarına uyğun olaraq istifadə etməsi onların xoşuna gəlmir? Yaxud da COP29 kimi möhtəşəm tarixi bir tədbirin Azərbaycanda keçirilməsi ilə

bağlı Niderland parlamentindən, İslandiyanın o iki deputatından icazə alınmayıb?

Mən hesab edirəm ki, bu məsələdə xarici ölkə parlamentləri adi etika qaydasına, mədəniyyət qaydasına riayət etməlidirlər. Vaxtaşırı belə məsələlərdə parlamentimizin etiraz səsi ucaldılır, dostluq qruplarına məktublar göndərilir. Mən hesab edirəm, təkcə dostluq qruplarının məktubları azdır. Niyə dostluq qrupları üzvlərinin hər biri ayrılıqda həmin parlamentə öz etirazlarını bildirməsinlər? Yaxud da dostluq qrupuna üzv olmayan deputatlarımız... Mən özümə də irad bildirirəm ki, niyə ora etiraz məktubu göndərməmişəm.

Fürsətdən istifadə edərək bəzi xarici ölkə parlamentlərinin Azərbaycanın daxili işlərinə qarışmaq siyasətini pisləyirəm və hesab edirəm ki, bu, heç də yaxşı nümunə deyil. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox hörmətli Aydın müəllim, mən hamıya müraciət edirəm, biz burada qanun layihəsini müzakirə edirik. Mühüm məsələyə toxunursunuz. Mən məsələyə də, mövzuya da, Sizə də hörmət edirəm. Ona görə sözünüzü kəsmirəm. Siz presedent yaradırsınız. Siz də, Sizdən əvvəl Qüdrət müəllim də. Biz qanun layihəsi haqqında danışmalıyıq. Bizim gündəliyimiz var. Gəlin, belə edək, 30 dəqiqə danışmayaq, 2 saat danışaq. 3 dəqiqə vaxt verim, bütün parlament danışsın. Bizim nizamnaməmiz var.

Siz ritorik suallar qoyursunuz. Hələ Ziyafət müəllimdən də cavab istəyirsiniz ki, Sizə indi cavab versin. İclas xaricində bunun üçün kifayət qədər vaxt var. Siz çox təcrübəli politoloqsunuz. Əminliklə deyə bilərəm, bütün bu suallara cavabları bilirsiniz.

İndi isə bizim jurnalistlərə üzümü tuturam. Xahiş

edirəm, bundan bir şou düzəltməyin, bununla bağlı heç yana da heç nə verməyin.

Hörmətli həmkarlar, indi isə işimizi davam etdiririk. Çıxışlar bitdi. Biz qanun layihəsinə maddələr üzrə münasibət bildirməliyik. 4 maddə var. Mən onları iki-iki səsə qoyuram. Buyurun, 1-ci və 2-ci maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddələr qəbul edildi.

İndi mən 3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddələr qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 4-cü məsələyə keçirik. “Turizm haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Vüqar Bayramova söz verirəm. Vüqar müəllim, buyurun.

**Vüqar Bayramov,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Qanun layihəsinin birinci oxunuşu zamanı hörmətli Musa Quliyev tərəfindən ətraflı məlumat verilmişdir.

Çox qısa olaraq qeyd etmək istərdim ki, qanun layihəsi “Turizm haqqında” Qanunun 19-cu maddəsinə dəyişiklikləri özündə ehtiva edir. Belə ki, qanun layihəsi məhz turizm zonalarında bir sıra sənaye müəssisələrinin fəaliyyətini qadağan edir. Bu, birbaşa ətraf mühitin qorunması ilə bağlıdır.

Eyni zamanda, bu qanun layihəsi həm də Qarabağ və Şərqi Zəngəzurda turizm zonalarının yaradılması baxımından vacibdir. Çünki Kəlbəcərdə 5 yeni turizm zonasının yaradılması nəzərdə tutulur. Bu baxımdan, təbii ki, qanun layihəsi xüsusilə turizmin inkişafı, ətraf mühitin qorunması baxımından kifayət qədər aktualdır.

Qanun layihəsi Əmək və sosial siyasət komitəsində müzakirə edilib. Rəyimiz müsbətdir. Hörmətli həmkarları-

mızdan dəstək olmalarını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Bu qanun layihəsinə Mədəniyyət komitəsində də baxılıb. Çox hörmətli Polad müəllim, buyurun, komitənin rəyini bildirin.

**Polad Bülbüloğlu,** *Milli Məclisin Mədəniyyət komitəsinin sədri.*

Çox sağ olun. Komitədə baxıldı. Heç bir irad və təklif yoxdur. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Polad müəllim. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılıb. Azər müəllim, buyurun, Siz də komitənin rəyini bildirin,

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, rəyimiz müsbətdir. Layihə ilə bağlı heç bir təklif və qeydimiz yoxdur. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb. İndi qanun layihəsini maddələr üzrə səsə qoyacağıq. Qanun layihəsi 1 maddədən ibarətdir. Xahiş edirəm, həmin maddəyə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti 5-ci məsələ Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Nizami Səfərova söz verirəm. Nizami müəllim, buyurun.

**Nizami Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Qanun layihəsi barədə birinci oxunuşda ətraflı məlumat verilmişdir. Xatırlatmaq istərdim ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

layihəyə əsasən məcəlləyə təcavüz, soyqırım, insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri ilə yanaşı, yeni beynəlxalq cinayətin – ekosid cinayətinin əlavə edilməsi nəzərdə tutulur.

Müzakirələr zamanı hörmətli deputat Erkin Qədirli tərəfindən maddəyə bir sıra yeni terminlərin əlavə edilməsi ilə bağlı təklif irəli sürülmüşdür. Ancaq bu təklif qəbul olunmamışdır. Qanun layihəsinin olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Qanun layihəsi 2 maddədən ibarətdir. Buyurun, 1-ci maddəyə səs verin.

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi 2-ci maddəni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. 6-cı məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Kamal müəllim, məsələyə dair bu dəfə də Siz məlumat verəcəksiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**Kamal Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Hər hansı rəy və təklif olmadığı üçün səsə qoyulmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, hörmətli həmkarlar, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Yazılanlar var. Fazil Mustafa. Fazil müəllim, buyurun.

**Fazil Mustafa.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Bildiyiniz kimi, bu qanun cəmiyyətdə də, müxtəlif sosial platformalarda da geniş müzakirə olundu. Belə bir tendensiya vurğulanmağa başlayıb ki, biz cərimələrin sayını hədsiz dərəcədə artırırıq və vətəndaşın minimum əmək haqqına uyğunlaşdıra bilmirik. Amma bu qanun layihəsi ilə bağlı elə iradlar səslənmədi. Cəmiyyətin əksəriyyəti qəbul etdi ki, bu, bir çox hallarda insanların məsuliyyətsizliyindən, bəzən də mədəni komponentlərin çatışmazlığından doğan addımlardır. Ona görə də bu dəyişikliyin dəstəklənməsi ictimai rəydə artıq müşahidə olundu.

Mən konkret maddələr üzrə bəzi dəyişikliklərin olunmasını təklif edirəm. Tullantılar haqqında qanunvericiliyin pozulması adlanan 266-cı maddədə "məişət tullantılarının

tutumlardan (urnalardan) kənar yerlərə atılmasına görə" – qeyd olunub. Bir çox yerlərdə, rayon ərazisində seçicilərdən aldığımız informasiyaya əsasən millət vəkili olaraq biz özümüz də çox vaxt icra orqanlarına müraciət edirik ki, filan ərazidə hansısa bir şəkildə tutumlar yoxdur. Bu təchiz edilməlidir. Yaxud azdırsa, bunu artırmaq lazımdır. Ona görə, məncə, burada "lazımi sayda tutumlarla təchiz olunma yerlərinə rəğmən" sözlərini qeyd etsək, yerində olar. Yəni əgər kifayət qədər yoxdursa, vətəndaş onu hara atmalıdır? Zibili harasa buraxmalıdır. Ona görə də daha çox icra orqanlarının, bu işlə məşğul olan bələdiyyə orqanlarının məsuliyyətini artırmaq baxımından onlar buranı lazımi səviyyədə tutumlarla təchiz etməlidirlər.

İkinci. 266.4, prim 1-ci maddədə "məişət tullantılarının buna cavabdeh şəxslər tərəfindən vaxtında xüsusi ayrılmış ərazilərə daşınmamasına görə" qeyd olunub. Burada da bir problem var. Elə icra hakimiyyətləri, elə bələdiyyələr var ki, onların daşınma vasitələri məhdud saydadır, ərazi də çox böyükdür. Burada hər hansı bir şəkildə obyektiv olmayan səbəblərə görə, yaxud da hansısa bir motiv qoymalıyıq ki, bu məsuliyyət həmin peşə ilə məşğul olan, o işi icra edən şəxslərin boynunda qalmasın. Yəni kimsə deyəcək ki, zibil daşınmayıb, vəssalam. Bunun imkanı yoxdur, maşın yoxdur, yaxud da ərazi böyükdür, gün ərzində çatdırmaq mümkün deyil. Hər halda bu məsələdə də həddən artıq böyük bir cərimə – vəzifəli şəxslər 500 manat məbləğində, hüquqi şəxslər 2 min manat məbləğində olması ilə bağlı burada obyektivlik bir az pozula bilər. O baxımdan ödənişin olması vacibdir.

Üçüncü. Tullantı və vasitələrdə hər hansı mayenin atılması ilə bağlı bir hissə var. Burada, məncə, zərərli

mayelərin atılması nəzərdə tutulmalıdır. Zibil daşıyan bir adam butulkada olan suyu yola boşaldıbsa, buna görə məsuliyyət daşıması nə dərəcədə məntiqli olar? Orada texniki yağdan, yaxud da yolu çirkləndirən hansısa bir maye vasitəsindən, benzindən, dizel yanacağından söhbət gedə bilər. Bu baxımdan da mən hesab edirəm ki, "maye" sözündən öncə "zərərli" sözü qeyd olunsun. Yəni zərərli mayelərin tullantı vasitələrindən yola, yaxud da yol ətrafına buraxılması cəzalandırılmalıdır.

Hesab edirəm ki, əsasən, bu üç təklifin qiymətləndirilməsi vacib olar. Burada, həmçinin dənizlə bağlı məsələnin də olması yerində olar. Biz ancaq yolu nəzərdə tutmuşuq. Dənizin, dəniz kənarının çirkləndirilməsi ilə bağlı məsələ də bu dəyişikliklərdə yer alsa, daha doğru olar. Çünki ən çox rastımıza çıxan dəniz və çay kənarlarının bu cür tullantılarla çirkləndirilməsidir. Burada daha çox yalnız yoldan, yol ətrafından, vaqonlardan söhbət gedir. Daha da genişləndirsək, məncə, məqsədəuyğun olar. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Fazil müəllim, Siz dediniz ki, zibil daşıyanlara hər hansı bir motivasiya etmək lazımdır, yoxsa necə? Buyurun.

**Fazil Mustafa.** Üzr istəyirəm, orada "vaxtında daşınmamasına görə" qeyd olunub. Bu "vaxtında" sözü bir az mücərrəd anlayışdır. Elə yer var ki, məsələn, Sabunçu rayonunda ərazi böyükdür. Gün ərzində elə ola bilər ki, bir maşındır... Əgər 10 maşın varsa, həmin işi kommunal təsərrüfat sahəsinə rəhbərlik edən şəxslər rahatlıqla edə bilirlər. Ona görə də biz bura "obyektiv səbəblərdən" sözlərini əlavə etməliyik ki, hər hansı şəkildə hüquqi şəxs birdən-birə 2 min manat cərimə olunmasın. Bəlkə əsassız olacaqdır, çatdıra bilməyib, imkanı olmayıb. Biz bunları

mütləq nəzərə almalıyıq.

**Sədrlik edən.** Çox sağ olun. Mən, sadəcə, onu dəqiqləşdirdim. Burada motivasiyadan söhbət getmir, ona görə bu sualı verdim. Siyavuş müəllim, sualınız var, yoxsa təklifiniz? Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Bu məsələlər tez-tez gündəmə gəlir. Burada zibillərin daşınmasının bələdiyyəyə heç bir aidiyyəti yoxdur. Əslində bu, bələdiyyəyə verilməlidir, bu onun səlahiyyətidir. Lakin bu gün bunu kommunal təsərrüfatı, yaxud da onların imzaladığı müqavilə əsasında hansısa şirkətlər yerinə yetirir. Mən mətbuatda da tez-tez rast gəlirəm. Deyirlər ki, bələdiyyə hara baxır? Bunun bələdiyyəyə aidiyyəti yoxdur. Yəni o məsələyə vətəndaş pul ödəyirsə, o, tamam başqa şirkətlərə, yaxud da başqa təşkilatlara gedir. Bələdiyyəyə daxil olmur. Ona görə də aydınlıq gətirmək istəyirəm ki, bunun bələdiyyəyə aidiyyəti yoxdur.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Layihədə 9 maddə var. Mən onları üç-üç səsə qoyacağam. Buyurun, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddələr qəbul edildi.

4-cü, 5-ci və 6-cı maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bunlar da qəbul edildi.

Son üç maddəni – 7-ci, 8-ci və 9-cu maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bunlar da qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələlərə keçirik. Növbəti 2 məsələ məzmun və mahiyyətcə bir-birinə yaxındır. 7-ci məsələ Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında, 8-ci məsələ isə "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa Əlavə – "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə qanun layihələridir. Qeyd edim ki, hər iki qanun layihəsi inzibati ərazi bölgüsü məsələləri ilə bağlıdır. Odur ki, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək. Onu da qeyd edim ki, məsələlərin müzakirəsi ilə əlaqədar Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Baş İdarəsinin rəisi hörmətli Elmin Həsənov buradadır. Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının sədri hörmətli Təmraz Tağıyev, Azərbaycan Qəsəbə Bələdiyyələri Milli Assosiasiyasının sədri hörmətli Hümbət Hüseynov və Azərbaycan Kənd Bələdiyyələri Milli Assosiasiyasının sədri Almaz xanım Salehova iclasımızda iştirak edirlər. Mən sizi bir daha salamlayıram.

Hörmətli həmkarlar, qanun layihələrinə Regional məsələlər komitəsində baxılıb. Siyavuş müəllim, xahiş edirəm, Siz qanun layihələrinə dair ümumi bir məlumat verin. Hörmətli həmkarlar, xatırladım ki, belə məsələlər olanda biz müzakirələri birgə, ancaq səsverməni ayrılıqda keçiririk. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli qonaqlar. Azərbaycanda yerli özünüidarəetmə sistemi müasir dövrümüzə

qədər uzun və zəngin bir tarixi inkişaf yolu keçmişdir. Yerli özünüidarəetmə orqanlarının yaranması və inkişafı ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynamış, dövlətlə vətəndaşlar arasında birbaşa əlaqənin möhkəmlənməsinə xidmət etmişdir.

Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi bütün sahələrdə olduğu kimi, yerli özünüidarəetmə sisteminin yenidən qurulması prosesinə də təkan verdi. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun rəhbərliyi altında müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi ölkədə demokratiyanın inkişafı, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, idarəetmədə səmərəliliyinin artırılması istiqamətində atılan ən əhəmiyyətli addımlardan oldu. Məhz yeni Konstitusiyanın qəbulundan sonra Azərbaycanda ilk dəfə müasir yerli özünüidarəetmə institutunun – bələdiyyə orqanlarının əsası qoyuldu. Bu sahədə hüquqi bazanın təkmilləşdirilməsini təmin edən və bələdiyyələrin fəaliyyətinin hüquqi tənzimlənməsini müəyyən edən normativ hüquqi aktlar qəbul edildi.

Ümummilli Lider Heydər Əliyev yerli özünüidarəetməni ölkəmizdə gedən demokratik proseslərin mühüm bir hissəsi kimi dəyərləndirərək bu sahədə dövlət siyasətinin əsas istiqamətlərini müəyyən etmiş oldu. O qeyd edirdi ki, özünüidarəetmənin səlahiyyətli, müstəqil orqanları demokratiyanın inkişaf şərti və eyni zamanda, dövlətin idarə edilməsində vətəndaşlar üçün imkanlar yaradılmasının göstəricisidir.

Ulu Öndərin siyasi irsini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən aparılan uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa edildi,

müstəqilliyi və beynəlxalq nüfuzu daha da möhkəmləndi, qəbul edilən dövlət proqramları davamlı inkişafa, çevik idarəetmə sisteminin və səmərəli əlaqələndirmə mexanizmlərinin tətbiqinə əlverişli şərait yaratdı. Torpaqlarımızın işğaldan azad edilməsi Azərbaycan tarixində ilk dəfə olaraq bu ərazilərdə bələdiyyə seçkilərinin keçirilməsi kimi mühüm hadisəyə şahid olmağa imkan verəcəkdir.

Ölkə Prezidentinin təşəbbüsü ilə həyata keçirilən ardıcıl və məqsədyönlü islahatlar, eyni zamanda, bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsinə və yerli sosial-iqtisadi məsələlərin həllində onların iştirakının genişləndirilməsinə, bununla da yerli özünüidarəetmədə səmərəliliyin artırılmasına xidmət edir. Xüsusən də sosial-iqtisadi vəziyyətlə əlaqədar, tarixi və digər yerli xüsusiyyətlər, habelə yerli əhalinin rəyi nəzərə alınmaqla bələdiyyələrin birləşdirilməsi üzrə həyata keçirilən tədbirlər idarəetmədə səmərəliliyin təmin olunmasına, xərclərin optimallaşdırılmasına və göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasına şərait yaradır.

Məlumat üçün qeyd olunmalıdır ki, 1999-cu ildə keçirilmiş ilk bələdiyyə seçkiləri nəticəsində Azərbaycanda, ümumilikdə, 2667 bələdiyyə fəaliyyətə başladı. 2004-cü ildə bələdiyyələrin sayı artırılaraq 2731-ə çatdırıldı. Lakin 2009-cu ildə 1014 bələdiyyənin birləşməsi nəticəsində bələdiyyələrin ümumi sayı 1717 oldu. 2014-cü ildə 110 bələdiyyə birləşərək ümumi say 1607 təşkil etdi. Son olaraq 2016-cı il aprelin 4-də Naxçıvan Muxtar Respublikasında Qoşadizə bələdiyyəsinin Babək bələdiyyəsinə birləşməsi nəticəsində bələdiyyələrin sayı 1606 oldu. Hazırda ölkəmizdə bələdiyyələrin ümumi sayı 1606 təşkil edir.

"Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının

Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 5 aprel 2024-cü il tarixli Qanununa əsasən ölkə üzrə sonuncu bələdiyyə seçkilərinin keçirildiyi ildən sonrakı 4 ilin son 2 ili ərzində əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələr onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla, Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə digər bələdiyyələrlə birləşdirilir.

Eyni zamanda, birləşmə və ya ayrılma nəticəsində əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələrin yaradılmasına onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla yol verilir.

Bu qanunun tələblərinə əsasən bələdiyyələrin birləşmə ilə bağlı Azərbaycan Respublikasının Milli Məclisinə təqdim etdikləri rəylərə baxılmış və nəticədə 1400 bələdiyyənin birləşdirilməsi yolu ilə ölkə ərazisində bələdiyyələrin ümumi sayının 685-ə endirilməsi nəzərdə tutulmuşdur. Yəni bu birləşmədən sonra 1606 bələdiyyədən 685-i qalacaq.

Bununla əlaqədar olaraq tərəfimizdən aşağıdakı qanun layihələri hazırlanmışdır: Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında Azərbaycan Respublikasının qanun layihəsi və “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” Azərbaycan Respublikasının Qanununa Əlavə – “Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı”nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının qanun layihəsi.

Qeyd olunan qanun layihələri bələdiyyələrdə idarəetmənin səmərəliliyinin artırılmasına, resurslardan qənaət-

lə istifadə edilməsinə, xidmətlərin keyfiyyətinin artırılmasına, regionların balanslı inkişafının təmin edilməsinə, habelə bələdiyyələr arasında daha sıx əməkdaşlığın qurulmasına hədəflənmişdir.

Hörmətli xanım sədr, Milli Məclisdə deputat həmkarlarımız dəfələrcə çıxışlarında bələdiyyələrin çoxluğu ilə bağlı qeyd etmişdilər. Biz axırıncı qanunumuzu qəbul edəndə bu səlahiyyətlər artıq Milli Məclisə verilmişdir. Milli Məclisə daxil olan rəylərin hər biri nəzərə alınır. O rəylər əsasında bu bələdiyyələrin birləşməsi prosesi gedir. Eyni zamanda, qeyd etmək istərdim ki, bu birləşmə nəticəsində siyasi sistemdə də bir yenilik ortaya çıxacaqdır.

Bilirsiniz ki, Azərbaycanda qeydiyyatdan keçmiş 26 siyasi partiya var. Bu siyasi partiyaların bələdiyyə seçkilərində partiya kimi iştirak etmək üçün əgər onlar əvvəlcə bələdiyyələrin 30 faizində namizəd irəli sürürdülərsə, onda partiya şəklində iştirak edirdilər. 30 faizində namizəd irəli sürə bilmirdilərsə, onda partiya şəklində iştirak edə bilmirdilər. Əgər əvvəllər 500 namizəd irəli sürəcəkdilərsə, indi azalma ilə bağlı artıq 200 namizəd irəli sürməlidirlər ki, partiya şəklində iştirak etsinlər. Bu da siyasi partiyaların yerli strukturlarının möhkəmlənməsinə, onların yerli özünüidarəetmədə iştirakına bir təkan verəcəkdir.

Hər iki layihə çox mütərəqqidir. Bilirsiniz ki, qarşıdan növbəti bələdiyyə seçkiləri gəlir. Bu bələdiyyə seçkilərinə yeni layihə əsasında, yəni 685 bələdiyyədə seçki ilə gedəcəyik. O baxımdan da deputat həmkarlarımı bu layihəyə səs verməyə çağırıram. Təşəkkürümü bildirirəm.

**Sədrlik edən.** Çox sağ olun, hörmətli Siyavuş müəllim, çox ətraflı məlumat verdiniz. Minnətdarıq. İndi isə müzakirəyə keçirik. Əli Məsimli. Əli müəllim, buyurun.

**Əli Məsimli.** Çox sağ olun, hörmətli sədr. Siyavuş

müəllim çox geniş, əhatəli, eyni zamanda, bu layihənin məqsədi, mahiyyəti, hədəfləri barəsində müfəssəl məlumat verdi. Ona görə təşəkkür edirəm. Qeyd etmək istəyirəm ki, bu layihənin konsepsiyası düzdür, hədəflər dəqiq müəyyənləşib. Ona görə bu layihəni dəstəkləyirəm.

Eyni zamanda, bir neçə məqamı qeyd etmək istəyirəm. Burada Siyavuş müəllim də göstərdi. Azərbaycanda bələdiyyələrin sayı 1999-cu ildən bu yana 2700-dən 685-ə enib. Bu, 685 bələdiyyənin fəaliyyəti zamanı optimal rəqəm olacaqmı? Bu, böyük suallardan biridir.

İkinci. Hədəflər çox düzgün müəyyənləşib – bələdiyyə institutunun səmərəliliyinin yüksəldilməsi, xidmətin keyfiyyətinin yaxşılaşdırılması və sair. Təkcə bələdiyyələrin sayını azaltmaqla həmin hədəflərə nail olmaq mümkündürmü? Hesab edirəm ki, yox, buna kompleks yanaşmaq lazımdır. Ona görə sadə bir həqiqəti qeyd edək ki, toplananların yerini dəyişəndə, yaxud da onları birləşdirəndə cəm dəyişmir. Bu kontekstdə bələdiyyələrin sayının azaldılması bir tərəfdən bir sıra idarəetmənin təşkilati quruluşunun təkmilləşdirilməsi yönündə diskussiyalara, faydalı müzakirələrə impuls verib yol açacaq, eyni zamanda, bələdiyyələrlə bağlı bir sıra problemlərin həllinin sürətləndirilməsi məsələsini vacib edəcək.

Bu kontekstdən mən iki məqama toxunmaq istərdim. Birinci ondan ibarətdir ki, bələdiyyə institutunun islahatına, hörmətli sədr, təkcə bələdiyyələrin islahatı kontekstindən deyil, idarəetmənin təşkilati quruluşunun bütövlükdə təkmilləşdirilməsi kontekstindən yanaşmaq lazımdır. Ona görə də bu layihənin qəbul edilməsi, hesab edirəm ki, vacib bir məqama impuls verəcək, onu aktuallaşdıracaq. "Mərkəzi idarə orqanları – yerli idarə orqanları – bələdiyyələr" modelindən torpaqlarımız işğaldan azad

edildikdən sonra “Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi – yerli icra orqanları – bələdiyyələr” modelinə keçid məskunlaşma artdıqca, genişləndikcə çox aktual bir məsələ kimi ortaya çıxacaq. Hesab edirəm ki, dediyim ikinci üçbucaq xeyli dərəcədə perspektivlidir. Bu, bütövlükdə, təkcə işğaldan azad olmuş ərazilərə deyil, digər sahələrimizə də sirayət edən zaman məskunlaşma çoxaldıqca orada bələdiyyə faktorunun da öz əksini tapması bu idarəetmənin həmin üçbucaq formasında daha səmərəli işləməsində mühüm rol oynayacaq.

İkinci məqam. Bələdiyyələr nə qədər qüsurlu olsa da, insan təfəkkürü hələ ki, yerli problemlərin həssas, sürətlə və keyfiyyətlə həyata keçirilməsi kontekstində bələdiyyədən yaxşı bir struktur düşünüb tapa bilməyib. Ona görə də bələdiyyələr barəsində bədgümanlığı bir kənara qoyub onun səmərəlilik fəaliyyətinin təşkil edilməsi istiqamətində islahatları dərinləşdirmək məsələsinin önə çıxarılması vacibdir. Bu kontekstdə bir neçə məqamı qeyd etmək istərdim. İlk növbədə, hesab edirəm ki, bələdiyyələr Konstitusiyamızda yazıldığı kimi müstəqil olmalıdır. Müstəqil olmasa, onların sayının 2700, yaxud da indi olduğu kimi 685 olmasının heç bir əhəmiyyəti olmayacaq. Bələdiyyələrin müstəqilliyi təmin edilməlidir.

İkinci. Son dövrlərdə bələdiyyələrin maliyyəsi 30-35 milyon manatdan 50 milyon manata yaxınlaşma səviyyəsindədir. Biz bunu müsbət qiymətləndiririk. Amma etiraf edək ki, bu 50 milyon manat ortabab bir biznes strukturunun illik gəlirindən heç də çox deyil və nəzərə alaq ki, həmin 50 milyona yaxın vəsaitin 55 faizi əmək haqqına, 25 faizi mal və xidmətlərin alınmasına, cəmi qalan 20 faizi – 10 milyona qədər vəsait isə digər məsələlərin həllinə yönəldilir. Ona görə də bələdiyyələrin

çoxunun, xüsusən regionlarda heç maaş verməyə imkanı olmur. Bax, bu nöqteyi-nəzərdən hesab edirik ki, bu islahatlarda bələdiyyələrin maliyyəsinin təkcə dövlət vəsaiti hesabına deyil, çoxvariantlı, çoxmənbəli maliyyələşmə mexanizminə keçirilməsi prosesinin sürətləndirilməsi bu problemlərin həllində aparıcı rol oynayar.

Üçüncü. Hörmətli sədr, hesab edirəm ki, mülkiyyət məsələsi çox aktualdır. Neçə illər keçib, hələ bələdiyyələrin mülkiyyət məsələsi tam, aydın öz əksini tapmayıb. Heç olmasa, bundan sonra bələdiyyələrin mülkiyyətindən səmərəli istifadə edilməsi istiqamətində proqram xarakterli sənədlərin hazırlanıb sürətlə həyata keçirilməsini vacib hesab edirəm.

Seçicilərlə görüş zamanı qaldırılan məsələlərin içərisində Qax rayonunun əhalisi ev tikmək üçün bələdiyyə torpaqlarından payın alınmasını daha çox qaldırırdı. Burada müxtəlif səbəblər ucbatından gecikmələr var. Reyestr xidməti tərəfindən müvafiq rəylə bağlı gecikmələr, habelə perspektiv planlar və sair. Hesab edirəm ki, bu kontekstdə həmin insanların məmnunluğunu təmin etmək üçün yeni yaradılan, yeni formalaşmış bələdiyyələrin sərhədləri tez müəyyənləşməlidir və həmin insanlara o pay torpaqlarının verilməsi işi sürətləndirilməlidir. Amma bir nüansı da deyim. Torpaq Fondu ölçüsüz bir şey deyil, məhduddur. Ona görə də burada təkcə 5-6 sot torpaq verməklə yanaşı, xüsusi sahələrin ayrılması, orada çoxmərtəbəli binaların tikilməsi məsələsi həll olunmalıdır. Əks halda bir müddətdən sonra bu qəbildən olan Torpaq Fondu bitsə, kənd təsərrüfatı üçün yararlı torpaqlarda tikintiyə başlanılacaq. Bu, həm ərzaq təhlükəsizliyi, həm də mənzillə təminat məsələlərində çox ciddi problemlər yaradacaq.

Nəhayət, qarşıdan bələdiyyə seçkiləri gəlir. Bələdiyyələrin problemlərinin optimal həllinə bələd olan xeyli dərəcədə bələdiyyə işçiləri var. Onları dinləməklə, rəylərini öyrənməklə seçkilər zamanı yerli problemləri həll etməyə qadir səriştəli insanların bələdiyyəyə cəlb edilməsi istiqamətində addımlar atılar. Hesab edirəm ki, bu layihə perspektivlidir. Qeyd etdiyim istiqamətdə biz həmin o idarəetmə sisteminin üç pilləsinin optimal kombinasiyasına nail olsaq, yerli problemlərin həllinin sürətləndirilməsində böyük nəticələr əldə edə bilərik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Layihəni dəstəkləyirsiniz. Mən onu da qeyd etmək istəyirəm ki, Siyavuş müəllim, Əli müəllim, siz o məsələləri kifayət qədər qaldırırsınız. Bəlkə burada əyləşən hörmətli həmkarlarımız hamısı bilmir, ancaq görüşlərdə, bizim komitə sədrlərinin iclaslarında siz bu məsələlərin hamısına diqqət yetirirsiniz. Eyni zamanda, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü də bu məsələləri qaldırdı. Burada Ədliyyə Nazirliyinin təmsilçiləri də var. Fikirləşin, bəlkə birlikdə hansı isə bir dinləmə də keçirmək olar. Siz dünən bu haqda dediniz. Mən düşünürəm ki, sırf bu məsələlər vacibdir. Lazım olan qurumlardan dəvət edib bir dinləmə də təşkil etmək olar. Çox sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklif var ki, 5 dəqiqəyə keçək. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fazil Mustafa. Fazil müəllim, buyurun.

**Fazil Mustafa.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, bildiyiniz kimi, dekabr ayında bələdiyyə seçkiləri keçiriləcəkdir. Bu ərəfədə belə bir

qanun layihəsinin müzakirəyə çıxarılması olduqca zəruridir. Hörmətli komitə sədri Siyavuş Novruzov əsaslandırılmış şəkildə qanun layihəsini təqdim etdi. Biz də bu dəyişiklikləri dəstəkləyirik. Həmçinin siyasi partiya olaraq da bizim bu məsələdə marağımız var. Biz bələdiyyələrin sayını azaldırıq. Təbii, bu, hamımız tərəfindən qəbul olunan çevik idarəetmə modeli üçün vacibdir. Amma səlahiyyətlərini necə, artıra biləcəyikmi? Çünki hər hansı bir partiya üzvü bələdiyyə seçkilərinə qatılmaq istəyəndə onun səlahiyyətlərinin olmadığı əsas gətirilərək orada iştirak etməyə o qədər də maraq göstərmir. Amma biz elə etməliyik, cəlbedici olsun, partiyalar da, ayrı-ayrı vətəndaşlar da bilsinlər ki, bu qurumda gerçək mənada xidmət göstərmək imkanı olacaqdır.

İndi biz sayı azaltdıq. Amma bu o deməkdir ki, bir-birindən uzaq məsafədə olan kəndlərin təmsilçiləri bir yerə, bir bələdiyyə mərkəzinə gələcəklər. Biz elektron bələdiyyə infrastrukturunu lazımi səviyyədə qura biləcəyikmi? Rayonlarda, mərkəzlərdə belə bələdiyyələrin otaq sayı 5-6, 10 otaqdan çox deyil. Burada hansı idarəetmə modeli qurmaq olar ki, digər bölgələr bura daha çox elektron vasitələrlə müraciət etsinlər və fiziki cəhətdən bələdiyyələrə baş çəkməsinə gərək olmasın?

Builki büdcədə də bələdiyyələrə 7,5 milyon manat vəsait ayrılır. Diqqət edirsinizsə, bizdə subvensiyaların həcmi 1,5 milyon manatdır. Bu o deməkdir, bələdiyyələrin elə bir ciddi layihələri yoxdur ki, dövlət tərəfindən, büdcədən ora lazımi səviyyədə vəsait verilsin. Biz bunu artırmalıyıq, layihələrin sayı artmalıdır.

Baxın, burada Siyavuş müəllim qeyd etdi. Tullantıların daşınması, əslində, bələdiyyəyə verilməlidir. İndiyə qədər verilmədi və səbəbini də aydınlaşdırmaq çox çətindir.

Qəbiristanlıqlarla bağlı qərar qəbul etmişdik. Xatırladım ki, 2018-ci il dekabrın 4-də Nazirlər Kabinetinin qərarı var. Həmin qərarda göstərilirdi ki, yerli icra hakimiyyəti orqanları tabeliyində olan qəbiristanlıqları 3 ay müddətində bələdiyyələrə təhvil verməlidirlər. Nazirlər Kabinetinin qərarından 6 il keçib. Burada – Milli Məclisdə ədliyyə nazirinin hörmətli müavini hesabat verərkən qeyd etmişdi ki, 4204 qəbiristanlıq var. Onlardan yalnız 3268-i bələdiyyələrə təhvil verilib. Təhvil verilməmənin səbəbi kimi də xəritələrin müəyyən olunmaması göstərilir. Biz 30 ildir, müstəqil dövlətik, hələ də bələdiyyələrlə hansı isə bir inzibati ərazi vahidi hüdudlarında xəritələri yekunlaşdırıb verə bilməmişik. Bələdiyyələrin böyük əksəriyyətinin əlində xəritə yoxdur. Öz ərazisində hansı isə bir işi həyata keçirməkdə tərəddüd edirlər. Rayonların bələdiyyə strukturları bəzi hallarda, demək olar ki, bir-birinin hüdudlarına müdaxilə etməli olurlar. Bu da çox vaxt qanun pozuntusu kimi qiymətləndirilir. Bu baxımdan hesab edirəm ki, məsələyə bir az daha fərqli yanaşıb bələdiyyələrin inkişafını təmin etmək lazımdır.

Burada bələdiyyənin sayını azaltdıq. Bakı şəhərində də bu istiqamətdə təxminən 4 rayonda iş görülür. Amma biz indiyə qədər Bakıda böyük şəhər bələdiyyəsi yarada bilmədik. Bəlkə heç Bakı şəhərində bələdiyyələrin konkret fəaliyyət imkanları geniş deyil. Bəlkə də biz elə Bakıda, Gəncədə, Sumqayıtda Bakı bələdiyyəsi, Gəncə bələdiyyəsi, Sumqayıt bələdiyyəsi yaradaraq daha bürokratik məsələləri çözə bilərik.

Baxın. 1918-ci ildə müstəqil dövlətimiz qurulmazdan əvvəl Bakı şəhərində su çəkilib. Bakı şəhərində bütün fəaliyyətlər Bakı bələdiyyəsi tərəfindən, onun məclisi tərəfindən həyata keçirilirdi və böyük işlər görülmüşdü.

Bu gün Bakının yüzlərcə problemi var ki, o məsələlərdə bələdiyyənin hər hansı bir rolu yoxdur, tıxaclar, nəqliyyatın idarə olunması... Türkiyədə və digər başqa yerlərdə görürük ki, nəqliyyatın və sairin idarə olunması bələdiyyənin əlindədir. Bələdiyyə cəmiyyətin dərdlərini, problemlərini daha yaxşı bildiyinə görə, mərkəzləşməyə çox da aludə olmadığına, tabe olmadığına görə yerlərdə vətəndaşın konkret problemini rahatlıqla həll edə bilir. Biz, nəhayət, bu seçkilərdən başlayaraq bu mərhələyə gəlməliyik. Bu, dövlətin də, icra orqanlarının da yükünü azaldacaq, onların daha çox öz spesifik fəaliyyəti ilə məşğul olmasına şərait yaradacaqdır. Mən qanun layihəsini dəstəkləyirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Fazil müəllim. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, bələdiyyələrin birləşdirilməsini bəyənirəm, çoxdan gözlədiyim, arzusunda olduğum qanun layihəsidir, dəstəkləyəcəyəm.

Bələdiyyələrin inkişafı və fəaliyyət göstərdikləri ərazilərdə insanların həyatında daha müsbət rol oynaması üçün təkliflərimi deyirəm. Bələdiyyələrin bilik və bacarıqlarının artırılması üçün konkret işlərin görülməsinə ehtiyac var. Bunlar bələdiyyələrin idarə edilməsi, layihələrin həyata keçirilməsi və biznes fəaliyyətinin qurulmasıdır. Ədliyyə Nazirliyi hər il belə təlimlər keçirir. Amma o təlim və seminarların faydası gözləntilərimiz qədər deyil. Bələdiyyə iş yeri yaratmalı, bələdiyyə biznes layihəsini həyata keçirib pul qazanaraq yerli inkişafa töhfə verməlidir. Amma bu gün görürük ki, bir çox bələdiyyələrin gözlə görünən qazancı, əsasən, torpaqların satışı və icarəyə verilməsidir.

Demək olar ki, əksər kənd bələdiyyələri dotasiya alır. Dotasiya alan bələdiyyələr necə inkişaf layihəsi həyata keçirə bilər? Əgər bir bələdiyyə özünü saxlaya bilmirsə, sakinlərə necə xidmət göstərə bilər? Məhz bunu əsas gətirərək təklif edirəm ki, yaradılacaq 684 bələdiyyənin hər biri ilə bağlı ayrı-ayrılıqda inkişaf strategiyası hazırlansın. Bələdiyyələrin biznes bacarıqlarının inkişaf etdirilməsi üçün onların banklarla əlaqələri gücləndirilsin və banklar onların inkişaf strategiyasında birbaşa iştirakçı olsunlar.

İkincisi. Bələdiyyələrin biznes bacarıqlarının inkişaf etdirilməsi üçün xarici tərəfdaşlar da cəlb edilsin. Dünyada yerli inkişaf üzrə xeyli təşkilatlar var ki, onlar bu sahədə bizə ciddiköməklik göstərə bilər. Biz bələdiyyələrə öz ayaqları üzərində dayanmağı, sonra isə xidmət etdiyi əraziləri inkişaf etdirməyi öyrətməliyik.

Üçüncüsü. Bələdiyyələrin tez-tez, ən azı ildə bir dəfə ümumrespublika yığıncağının keçirilməsi də vacibdir ki, hər bir bələdiyyənin ən azı 2 üzvü orada iştirak etsin, ekspertlər olsun, təcrübə bölüşsünlər, dünya təcrübəsindən nümunələr gətirilsin. Bələdiyyə üzvləri daim analoji toplantılarda olmalıdırlar ki, dünya görüşləri artsın, təcrübə toplasınlar. Toplantılar da, sadəcə, "üstəgəl" işarəsi qoymaq xatirinə keçirilməsin. Çünki mən həm yerli, həm də xaricdə keçirilən belə tədbirlərdə iştirak etmişəm və onların səmərəli olması məndə o qədər də inam yaratmayıb.

Digər təklifim isə budur: Hər bir seçki dairəsindən deputatlar iki nəfər bələdiyyə üzvünü dəvət etsinlər, birlikdə toplantı keçirək. Onlar problemlərini sadalasınlar və məhz o cəhətdən yanaşaraq işlər aparaq. Əmlak, torpaq sənədləşməsi ilə bağlı o qədər çətinliklər var ki, heç

onların xeyli hissəsi burada səsləndirilməyib. Amma onlar üçün ciddi maneələr yaradır. Ümid edirəm ki, bələdiyyələrin birləşməsindən sonra biz artıq bələdiyyələrin verdiyi gözəl töhfələr haqqında danışa biləcəyik. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev**. Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli həmkarlar, bizim "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa görə, 92-ci maddə "Normativ hüquq aktların icrasına nəzarət" adlanır. Burada da qeyd olunub ki, normativ hüquqi aktların icrasına nəzarət və yoxlanılması normayaratma orqanları, vəzifəli şəxslər və müvafiq normativ hüquqi aktlarla nəzərdə tutulmuş xüsusi orqanlar, şəxslər tərəfindən həyata keçirilir. Yəni bizim qəbul etdiyimiz qanunların icrasına Konstitusiya qanunu ilə birbaşa nəzarət hüququmuz var. Bu bizim üzərimizə bir vəzifə kimi qoyulur.

Hörmətli Siyavuş müəllim qeyd etdi. 1999-cu ildə 2736 bələdiyyə olub. Bir neçə dəfə birləşdirilməklə onların sayı 1605-ə çatmışdı. İndi də təqribən üç dəfəyə yaxın azaldılır, 685-ə endirilir. Bunun üçün biz əvvəl qəbul etdiyimiz o qanunlara uyğun olaraq, bir yoxlama aparmalıyıq ki, görək, bu birləşmələr özünü nə dərəcədə doğruldur? Bunun müsbət nəticələri nədən ibarət oldu?

Hörmətli Əli müəllim Məsimov burada qeyd etdi ki, onların 50 milyon ümumi büdcəsi var. Onun də cəmi 10 milyonu xidmətlərə və digər işlərin görülməsinə sərf olunur. Əslində, bələdiyyələr vətəndaşlarımız üçün də, dövlətimiz üçün də bir yükə çevrilib. Bizim həmkarımız hörmətli Elman Nəsirov iclas başlayanda dedi ki, mənim bir arzum var. Mənim də bir arzum var ki, Siyavuş

Novruzov tez-tez belə təşəbbüslərlə çıxış etsin və bələdiyyələrin sayı 1-ə çatsın. Bir gün də bir layihə gətirsin ki, bələdiyyələri ləğv edək.

Həqiqətən də, bu statusla bələdiyyələr faktiki surətdə bir dövlət institutu kimi, yəni yerli özünüidarə orqanı kimi özünü doğrultmadı. Yeni yaradılanda biz deyirdik ki, zamanla təcrübə toplayacaqlar, onların səlahiyyətləri genişlənəcək. Əksinə, biz müşahidə etdik ki, mərkəzi icra hakimiyyəti orqanları, hətta yerli icra hakimiyyəti orqanlarının səlahiyyətlərini özlərinə götürməyə başladılar. İndi bu gün rayon icra hakimiyyətlərinin belə çox məhdud səlahiyyətləri var.

Biz bələdiyyələri inkişaf etmiş Avropa ölkələrindən götürmüşük. Orada "municipality" adlanır. Yəni hər kəs internet vasitəsi ilə girib onların səlahiyyətləri ilə bizdə olan bələdiyyələrin səlahiyyətlərini qarşılıqlı müqayisə edə bilər. Mən, əlbəttə, qanun layihəsinə səs verəcəyəm. O mənada səs verəcəyəm ki, bunlar axırda yoxa çıxsınlar. Amma hər bir yaşayış məntəqəsinin öz bələdiyyəsi olmalıdır. Bələdiyyə hər hansı bir şəhərin yaşayış məskənində yerli özünüidarəetmə deməkdir. Burada bəzi həmkarlarım dedi ki, bunun fəlsəfəsi çox düzgün qoyulub və sair. Amma mənim yanaşmam bir az fərqlidir. Diqqətinizə görə çox sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fasiləsiz? Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Qüdrət müəllim, mənim Sizə bir sualım var. Azərbaycan xalqı istəyəcək ki, bir dənə də bələdiyyə olmasın? Əsas odur.

Zahid Oruc. Buyurun.

Fasiləsiz işləyirik?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Zahid müəllim, buyurun.

**Zahid Oruc.** Hörmətli sədr, hörmətli Məclis üzvləri, bələdiyyələr artıq konstitusion bir təsisatdır. Ona görə də bu məsələlər yalnız referendumla həll oluna bilər. Əlbəttə, 1999-cu ildə biz bu təsisatı artıq seçkilərlə formalaşdıranda, ondan sonra da müxtəlif beynəlxalq xartiyalara, protokollara, sənədlərə qoşulanda yaxşı mənada belə düşünülürdü ki, bunlar yerli problemlərin həllində icra hakimiyyətləri sistemi ilə birgə çalışacaq. Mən yaxşı xatırlayıram, rəhmətlik Yevda Abramov burada demişdi ki, 1917-ci ilin fevralında burjua inqilabı baş verdi. Bolşeviklərin hakimiyyətə gəldiyi dövrdə ikihakimiyyətlilik mərhələsi olmuşdu. Hakimiyyət məsələsi həmişə həssasdır və yerli qüvvələr heç vaxt hakimiyyəti bələdiyyə təsisatına bütövlükdə verməyəcək.

Açığı, mən özüm də bütün yerli hakimiyyətin bələdiyyələrə verilməsinin əleyhinəyəm. Bu gün də o mövqeyimi bölüşürəm. Amma biz indi məsələnin əsas konsepsiyasından danışırıq. Siyavuş müəllim partiya təmsilçisi olaraq 1999-cu ildən bu yana keçən dövrün çox uğurlu təsvirini verdi, yaxşı təqdimat etdi. Elə düşünürəm ki, bu birləşmələr işin xeyrinədir. Çünki həqiqətən də, bələdiyyələrin say etibarı ilə 1999-cu ildə 2667, 2004-cü ildə 2731 olması nə yerli problemlərin həllinə, nə kollegiallığa, nə də qərar qəbul etmənin sürətinə və sairə töhfə verməyib. 685 sayla bağlı əsaslandırmaları da doğru sayırıq. Çünki beynəlxalq praktika bunu təsdiqləyir.

Mən verilən vaxt çərçivəsində bir-iki xarici nümunə söyləmək istəyirəm. Bir sıra hallarda bizdə deyilir. Bizdə bələdiyyə sistemi siyasi hakimiyyət məsələsini həll etmir. Baxmayaraq ki, partiyalar bu prosesin əsas öncül qüvvələrindən biri kimi çıxış edirlər. Amma, məsələn,

qardaş Türkiyədə bələdiyyə sistemi real hakimiyyət deməkdir. Vali sistemi səlahiyyətlərinə görə nisbətən azdır. Bizdə əsas parlament, yəni hakimiyyət qolları sırasında mövcuddur və yerli problemlərin həlli üzrə siyasi təsisatdır, yenə də biz onu qəbul edirik. Amma bu, siyasi hakimiyyət məsələsini bütövlükdə həll etmir. Rəqəmləri səsləndirmək istəyirəm. Deməli, Türkiyədə hər bələdiyyə vahidinə düşən əhali sayı orta hesabla 60 min nəfər, Gürcüstanda 55 min nəfər, Estoniyada 16 min nəfərdir. Bu rəqəm ölkəmizdə 6,5 min nəfərdir. Digər ölkələrdə rəqəmlər daha da fərqlidir. Burada bələdiyyə büdcələrindən, 50 milyondan danışıldı. Bu, yalnız 2005-ci ildə olub. İndiki dövrdə bu rəqəm 36 milyondur. Mən özüm də təəccüblənirəm. Bir sıra həmkarlarımızda rəqəmlər çox fərqlidir.

Təmsil etdiyim mərkəz bələdiyyə sistemi ilə bağlı sorğular keçirmişdir. Sosial yardımların həyata keçirilməsində bələdiyyə sistemi yalnız 8,7 faiz paya malikdir. Yerli icra hakimiyyəti orqanlarının 22,8 faiz, nazirlik və komitələrin 43,4 faiz payı var. Yəni əsas sosial-iqtisadi məsələlər mərkəzi hakimiyyət orqanlarının üzərində qurulubdur.

Hörmətli Fazil müəllim burada çox mühüm məsələlərə toxundu. Həqiqətən də, başadüşüləndir ki, dövlət rəhbərinə və hörmətli Mehriban xanımın adına gələn o məktubların, müraciətlərin seli aşağı hakimiyyət orqanlarının birinci mərhələdə o prosesi qarşılamasından çox dərəcədə asılıdır. Mən əminəm ki, o rəqəmlər Administrasiyanın müvafiq qurumları tərəfindən elan olunur, əksərimiz də onlara baxırıq. Kifayət qədər böyük rəqəmlərdir. Dövlət başçısının bu qədər qlobal proseslərdə dövlətin əsas siyasi kursunu müəyyənləşdirən lider kimi yükünə rəğmən, yerli

məsələlərin Administrasiyaya və Birinci vitse-prezidentə gəlməsi özü də aşağı hakimiyyət orqanlarındakı vəziyyətin bir indikatorudur. Ona görə də düşünürəm ki, biz bu qərarı müdafiə etməliyik. Əminəm ki, gələcəkdə bələdiyyə sisteminin həm səlahiyyətlərinin genişlənməsi, həm də kadr bazasının inkişafı mümkün olacaq, yerli icra hakimiyyəti orqanları onlara alternativ və rəqib kimi deyil, tamamlayıcı kimi baxa biləcəklər. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Zahid müəllim. Biz 30 ildən bir az çoxdur ki, müstəqilik. Bu sistem Sizin nümunə gətirdiyiniz o xarici ölkələrdə də bəlkə 30 ildə möhkəmlənməyib, oturuşmuş olmayıb. Bəlkə buna da bir vaxt lazımdır. Bəli, mən Sizinlə tamamilə razıyam. Çox sağ olun. Elşad Musayev. Elşad müəllim, buyurun.

**Elşad Musayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli sədarət. Hamını salamlayıram. Hörmətli Siyavuş müəllim qanun layihəsi ilə bağlı geniş açıqlama verdi. Bu qanun layihəsi reallıqdan doğan səbəblərdən ortaya çıxıb. Bəri başdan deyim ki, qanun layihəsini dəstəkləyəcəm. Nəzərə alaq ki, dünya təcrübəsində yerli idarəçiliyin 4 növü var. Azərbaycan o ölkələrdəndir ki, burada yerli idarəçilik həm yerli icra hakimiyyətləri, həm də yerli özünüidarəetmə orqanları, bələdiyyələr tərəfindən həyata keçirilir. Bələdiyyələr dünyanın hər yerində demokratik bir təsisat kimi qəbul olunur və seçkilər yolu ilə formalaşır. Azərbaycanda bələdiyyələrin fəaliyyət müddəti elə də çox deyil. Ona görə bu müddət ərzində, təbii ki, müəyyən problemlər, müəyyən reallıqlar yaranır. Yeni qanun layihəsinin ortaya çıxması məhz bu reallıqların tələbidir. Ola bilsin, müəyyən dövrdən sonra yenə də hansı isə bir dəyişiklik edilər.

Bir şeyi nəzərə alaq ki, əgər biz yerlərdə bələdiyyələrin

normal fəaliyyət göstərməsini istəyiriksə, onda onlara normal şərait yaratmaq lazımdır. Bələdiyyələrin normal fəaliyyət göstərməsi üçün ilk növbədə onların maliyyələşməsinə ciddi fikir vermək lazımdır. Bələdiyyələrin əlində vəsait olmalıdır. Qardaş Türkiyədən danışılır. Məsələn, Türkiyədə bələdiyyələrin əlində çoxlu müəssisə və sair var, nəqliyyat bunların əlindədir. Bunlar cürbəcür vasitələr sayəsində maliyyələşirlər. Misal üçün, vaxtı ilə bizdə reklam məsələsində bələdiyyələrin müəyyən qədər gəlirləri olub. İndi yol kənarında olan reklamları onların əlindən alıblar. Səhv etmirəmsə, Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyindədir. Belə olan halda əgər biz bələdiyyənin qazanc yerlərini kəsiriksə, onda bunların normal fəaliyyətinə də ümid edə bilmərik.

Bir şeyi də deyim. Müəyyən müddət ərzində bələdiyyələrdə çoxlu problemlər yaradılıb və müvafiq orqanlar lazımdır ki, bu problemlərə nəzarət etsinlər, onların qarşısını alsınlar. Mən təmsil olunduğum Biləcəri bələdiyyəsi barədə deyim ki, onların da çoxlu borcu var. Faktiki onların hesabı bağlı vəziyyətdədir. Əgər hər hansı vəsait daxil olursa, o dəqiqə silinir. Mənim öyrəndiyimə görə, bu borc da indiki bələdiyyədə işləyənlərin vaxtında olmayıb, bundan əvvəlki dövrlərdə olub. Yeni gələnlər də çalışırlar ki, nəyi isə düzəltsinlər, amma düzəldə bilmirlər. Əgər biz bələdiyyələrin fəaliyyətini inkişaf etdirmək istəyiriksə, ilk növbədə, orada külli-miqdarda borc var. İndi rəqəmlərdə səhv edərəm. Bu borc ya dondurulmalıdır, ya da silinməlidir. Çünki müvafiq orqanlar bu borcu yaradanlara qarşı lazım olan tədbiri vaxtında görsəydilər, bu gün belə bir vəziyyət yaranmazdı. Mən açıq deyim, əgər bu borc silinməsə, yaxud dondurulmasa, Biləcəri bələdiyyəsi normal fəaliyyət göstərə bilməyəcək. Mən bilmirəm,

ölkəmizdə başqa bələdiyyələrdə belə problem var, ya yoxdur. Ona görə bunu diqqətinizə çatdırdım. Sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Elşad müəllim. Gülşən Paşayeva. Buyurun.

**Gülşən Paşayeva**. Hörmətli xanım sədr, hörmətli sədarət, hörmətli deputatlar. Bizim bu gün müzakirə etdiyimiz hər iki qanun layihəsi olduqca vacib və əhəmiyyətlidir. Mənə elə gəlir ki, bu, bəlkə də bu prosesin ilk addımlarıdır. Çünki, məncə, biz bələdiyyələrlə bağlı bu prosesi davam etdirməliyik. Seçkilərə qədər bir neçə məsələlərə də bu istiqamətdə toxunmalıyıq. Çünki söhbət ancaq kəmiyyətdə deyil, biz onların sayını azalda bilərik. Söhbət, eyni zamanda, keyfiyyətdən gedir. Biz də istərdik ki, gələcəkdə seçilən bələdiyyələrdəki şəxslər öz fəaliyyətini həm kəmiyyət, həm də keyfiyyət istiqamətində daha yüksək səviyyədə həyata keçirsinlər. Bu mənada məndən əvvəl çıxış edən bir neçə deputatın fikrini dəstəkləyirəm.

İlk olaraq seçildiyim 13-cü dairədə, yəni Binə və Qalada məhz bələdiyyələrlə bağlı olan vacib bir məsələni gündəmə gətirmək istəyirəm. Orada məhz torpaqla bağlı sənədləşmədə, doğrudan da, ciddi problemlər baş verir. Mənə elə gəlir ki, gələcəkdə də bu məsələni komitələrdən sonra plenar iclasda qaldırmaq vacibdir. Cənab Prezidentin də bununla bağlı bir sıra sərəncamları var. Əgər bu insanlar bu gün sənədləşmədə müəyyən problemlərlə rastlaşırlarsa, eyni zamanda, əmlak vergisini həmin bələdiyyələrə vermirlər. Ona görə məsələ ancaq bələdiyyələrin hansı isə büdcəsinin artırılmasında deyil. Mən vətəndaşların bələdiyyələrə vergiləri verməsi üçün müvafiq imkanların, mexanizmlərin yaradılması ilə bağlı məsələ qaldırardım. İnanıram ki, gələcəkdə biz Milli Məclis

olaraq bu istiqamətdə bələdiyyələrin məhz səlahiyyətləri, eyni zamanda, maliyyələşməsi baxımından bir sıra məsələlərə daha məqsədyönlü toxunacağıq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Gülşən xanım. Siyavuş müəllim, etiraz etmirsinizsə, Kamran müəllimə də qulaq asaq, Siz sonda çıxış edin. Kamran Bayramov. Buyurun.

**Kamran Bayramov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Əziz həmkarlar, sözün düzü, mən bu qanun layihələri ilə bağlı komitə iclasında geniş çıxış etdim, təkliflərimi verdim. Amma sadəcə olaraq dəyərli həmkarlarımın burada səsləndirdikləri fikirlərlə bağlı bir münasibət bildirmək istəyirdim. Əslində, ölkəmizdə üçüncü dəfədir ki, bələdiyyələrin birləşməsi prosesi baş verir. Ötən birləşmə prosesləri göstərmişdir ki, həqiqətən də, bunlar bələdiyyələrin ümumi inkişaf fəaliyyətlərinin səmərəsinin artırılması üçün olduqca səmərəli addımlar olmuşdu. Bu gün bələdiyyələrin inkişafında olan problemlərdən biri də məhz onların sayının çox olmasıdır. Dünya təcrübəsi göstərir ki, həqiqətən, birləşməyə hər zaman ehtiyac var. Çünki bələdiyyələr birləşir, böyüyür, güclənir. Onların həm əmlak, həm də torpaq ehtiyatları böyüyür, eyni zamanda, əhatə etdikləri ərazilər artır, genişlənir.

Mən hörmətli həmkarım Qüdrət müəllimin təklifinə bir münasibət bildirmək istəyirəm. O arzu etdi ki, bələdiyyələr ləğv olunmalıdır. Məndə də sual yaranır ki, yaxşı, bələdiyyələr ləğv olundu, bundan sonra nə olacaq? O yerlərdə məsələlər necə həll olunacaq? Çünki yerli özünüidarəetmənin iki əsas məqsədi var: birincisi, dövlətin yerlərdə yükünün azaldılması, ikincisi, həmin ərazilərdə yaşayan vətəndaşların qərarların qəbul edilməsi və dövlət idarəçiliyi, yerli idarəçilik prosesində iştirakının təmin edilməsi. Ümumiyyətlə, bələdiyyə bir təcrübə məktəbidir,

məsuliyyət təcrübəsinin bir məktəbidir. Demək olar ki, dünyanın hər bir ölkəsində bu cür qurumlar mövcuddur. Biz burada, əsasən, onların səlahiyyətlərinin artırılması ilə deyil, onlarda mövcud olan səlahiyyətlərin düzgün tənzimlənməsi ilə bağlı fikirləşməliyik.

Həmkarlarım bir neçə problem qaldırdılar. Məsələn, Elşad müəllim küçə reklamı ilə bağlı məsələ qaldırdı. Arayış vermək istəyərdim ki, küçə reklamının yayımına görə ödəniş hələ də bələdiyyədədir. Qanunda yazılıb ki, bələdiyyələr yalnız onların mülkiyyətində olan torpaqlarda yerləşdirilən küçə reklamı qurğularından ödəniş ala bilərlər. Amma bu günə qədər əksər bələdiyyələrin mülkiyyət sənədləri verilməyib. Bu səbəbdən də onlarda bu ödənişlərin tutulması prosesində böyük problemlər yaranıb. Yəni ilk növbədə onların səlahiyyətində olan vəzifələrdə dəqiqləşdirilmə aparılmalıdır.

Bir nömrəli problem məhz bələdiyyələrdə xəritələrin və mülkiyyət sənədlərinin olmamasıdır. Eyni zamanda, bələdiyyələr əmlak vergisi tuturlar. Məsələn, ölkə üzrə yüz minlərcə ev bu günə qədər sənədləşməyib. Bu səbəbdən də bələdiyyələr yerli büdcələri doldura bilmirlər və həmin sənədsiz evləri vergilərə cəlb edə bilmirlər. Əgər ötən ilin büdcəsi 30-40 milyon arasıdırsa, sadaladığım bu iki məsələ öz həllini tapsa, bu məbləğ, yəni ümumi büdcə gəlirləri dəfələrcə arta bilər. Heç yeni səlahiyyətlərin verilməsinə ehtiyac belə qalmaz. Ona görə də düşünürəm ki, bu birləşmə prosesi, bu layihə, dövlətimiz tərəfindən atılan bu addımlar, təşəbbüs yaxşılığa doğrudur. Bu, islahatın bir növüdür.

Mənim fikrimcə, yeni bələdiyyələr yaranandan sonra, orada seçkilər keçiriləndən sonra dövlət onların maliyyə və iqtisadi potensialının gücləndirilməsi, fəaliyyətinin

səmərəsinin artırılması istiqamətində növbəti addımlar atacaq. Çünki onlar böyüsə də, o problemlər bu gün də qalmaqdadır. Düşünürəm ki, dövlətimiz, hökumətimiz bu problemlərin həlli istiqamətində də öz sözünü deyəcəkdir, səmərəli addımlar atacaqdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Kamran müəllim. Siz deyirsiniz, "inanıram, düşünürəm". Amma doğrudan da, əminik ki, bu, birinci addımdır. Bu haqda artıq deyildi. Bu qanun layihəsindən sonra hansı isə növbəti addımlar olacaq. Siyavuş müəllim, Siz yazılmısınız, ona görə söz verirəm. Buyurun.

**Siyavuş Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Bu, bir oxunuşda qəbul olunan məsələdir və ona görə də müəyyən suallar yarandı. O suallarla əlaqədar bəzi məsələlərə aydınlıq gətirmək istəyirdim ki, qaranlıq məsələ qalmasın. İlk növbədə çıxış edən hər bir kəsə öz təşəkkürümü bildirirəm. Həm dəstəklədilər, həm də qanun layihəsinin mahiyyətini, vacibliyini bildirdilər. Müxtəlif təkliflər irəli sürüldü. Sizin təklifiniz də çox düzgündür ki, bələdiyyələrlə bağlı seçkiyə qədər bir dinləmə keçirməyə ehtiyac var. Biz belə bir dinləmə təşkil edərik.

Burada bələdiyyələrin digər üzvlərinin də təqdim olunması ilə bağlı qeyd olundu. Burada üç assosiasiyanın rəhbəri iştirak edir. Bütün bələdiyyələr – kənd, şəhər və qəsəbə bələdiyyələri onlarla ünsiyyətdədirlər və onları da bütün komitə iclaslarına dəvət edirik. Bu iclasa da dəvət edərik. Onlar kənd bələdiyyələri, şəhər bələdiyyələri haqqında, onların problemləri haqqında məlumatları olduğu kimi komitə üzvlərinə çatdırırlar. Digər millət vəkillərinə də bu formada yanaşırlar.

Hörmətli Əli müəllim burada bir məsələyə toxundu. Hörmətli Əli müəllim, xatırlayırsınızsa, cənab Prezident

də regional siyasətlə bağlı məsələ qaldırdı ki, icra hakimiyyətləri sosializmdən qalmış bir strukturdur. Biz indi səlahiyyətli nümayəndələr təyin edirik. Bu onların işi ilə əlaqədar bir pilot layihədir. Ola bilsin ki, gələcəkdə bunlar tamamilə başqa bir formada öz əksini tapsın. Bu gün işğaldan azad olunmuş ərazilərdə və Naxçıvan Muxtar Respublikasında üç struktur fəaliyyət göstərir: Prezidentin səlahiyyətli nümayəndələri, icra hakimiyyəti və bələdiyyələr. Konstitusiyada bunların səlahiyyətləri göstərilib. Ancaq dəyişiklik nəticəsində regional idarəetmənin yeni bir forması ortaya qoyula bilər, yəqin, buna da hazırlıq gedir. Bununla da gələcəkdə bu sahədə bələdiyyələrin münasibətlərinin tənzimlənməsi ortaya çıxa bilər.

Fazil müəllim qeyd etdi. Fazil müəllim, biz iki qanun qəbul etdik. Bu gün birinci məsələdə biz məhz informasiya portallarının olması ilə əlaqədar bu qanunu qəbul etdik. Bələdiyyələr əvvəllər bu prosesləri yazılı şəkildə verirdisə, indi artıq elektron vasitə ilə həyata keçirəcəklər. Orada müddətləri də azaltmışıq, 3 gün etmişik. Ona görə də hər bir rayonda, hər bir kənddə bələdiyyələrin nümayəndələri iştirak edəcək və insanlar birbaşa əlaqə saxlamaq üçün həmin nümayəndələr vasitəsi ilə bələdiyyələrlə ünsiyyət qura biləcəklər. Bu sahədə işlər gedəcək.

Digər tərəfdən, biz Türkiyə ilə tez-tez müqayisə edirik. Bu gün heç Bakı Şəhər Polis İdarəsi, Bakı Şəhər Prokurorluğu Bakı şəhəri merinə tabe deyil, ayrı strukturdur. Bələdiyyəyə necə tabe olsunlar? Hansı formada? Bizdə qanunvericilik tamam başqa formadır, idarəetmənin sistemi tamam başqadır. Axı, biz Türkiyənin idarəetmə sistemini burada tətbiq edə bilmərik. Türkiyədə mənzil tikintisinə bələdiyyə qərar verir. Bələdiyyənin polisi, vergisi, digər strukturları var. Əgər kimsə qanunu pozursa, vergini

vermirsə, bələdiyyə ora nümayəndələrini göndərir. Dərhal qapısını bağlayırlar, imkan vermirlər ki, vergi gecikdirilsin. Bizdə, axı, bu səlahiyyətlər verilməyibdir.

Burada Kamran müəllim bələdiyyələrə verilən səlahiyyətlə bağlı qeyd etdi. Məsələn, biz bələdiyyələrlə bağlı 20-dən artıq qanun qəbul etmişik. İndi gələcəkdə bunu məcəllə şəklinə də salmaq istəyirik. Bu qanunlarda göstərilir ki, yerli vergilərin hamısı bələdiyyə tərəfindən yığılmalıdır. Bu gün başqa bir qərarla yerli vergilər vergi ilə bağlı sahəyə verilib. Keçmişdə o qurum Vergilər Nazirliyinə tabe idi. Amma yerli vergini bələdiyyə yığmalıdır. Bələdiyyəyə ərazisində olan mədən vergilərini vermişdilər. Axırıncı qərarla mədən vergilərini bələdiyyələrdən alıb yenə Dövlət Vergi Xidmətinə verdilər. Bizə də söz verdilər ki, büdcə müzakirəsi zamanı bələdiyyələr buradan milyon yarım vəsait toplayırdı və biz bu milyon yarımı bələdiyyələrə artıqlaması ilə qaytaracağıq. Bu günə qədər qaytarırlar, hələ görmürük. Büdcə müzakirəsində bu məsələyə toxunacağıq.

Büdcədən ayrılan vəsait. Bələdiyyə ilə birlikdə dotasiya və subvensiya ilə 8 milyon pul ayrılıb. Siyasi partiyalara, qeyri-hökumət təşkilatlarına, yaxud da mətbuata ayrılan vəsaiti, say etibarı ilə götürsək, bələdiyyələrdən qat-qat yuxarıdır. Yəni orada bələdiyyə sayı 1606, partiya sayı isə 26-dır. Dövlət büdcəsindən ayrılan vəsait müxtəlifdir. Elə məsələlər var ki, artıq mərhələli şəkildə öz həllini tapmalıdır. Biz də çalışırıq. Bunların hamısını komitədə dəfələrcə müzakirə etmişik, bilirik. Hesab edirik ki, bu məsələlərin hamısı öz həllini tapacaqdır.

Qüdrət müəllim, yerli özünüidarəetmə vətəndaşla dövlət arasında əlaqədir. Bu əlaqəni itirmək olmaz. Orada məhəllə komitələri var, yığışıb məsələlər müzakirə edirlər,

qərar qəbul edirlər və qərarların qəbul olunmasında xalq iştirak edir. Belə şeyi ləğv etmək olmaz. Onda sabah kimsə də deyər ki, elə Milli Məclisi də ləğv edək. Mən hesab edirəm ki, yaranmış struktura bu cür yanaşmaq olmaz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Siz yenə də ətraflı məlumat verdiniz. Ancaq burada bizim deputatlar problem haqqında danışdılar və təkliflər verdilər. Problemlər də kompleks xarakter daşıyır. Təkliflər də var. Düşünürəm ki, Siz sonra həmin problemləri də sistem halına salınmış formada – hamısını yazılı surətdə götürəcəksiniz. Dediyimiz dinləmə ilə bağlı. Sonra onun vaxtına baxarıq. Bu elə-belə diskussiya olmasın, hansı isə birinci blok, ikinci blok və sair problemlər haqqında dinləmələr də keçirilsin.

Aydın müəllim, sualınız, yoxsa təklifiniz var? Xahiş edirəm, tez edin, buyurun.

**Aydın Hüseynov.** Hörmətli xanım sədr, mənim təklifim Tovuz rayonunun bələdiyyəsi ilə bağlıdır. Burada Tovuz rayonunu təmsil edən çox hörmətli millət vəkillərimiz var. Müraciətimə onlar da diqqət yetirsinlər.

Azaflı bələdiyyəsi ilə Bayramlı bələdiyyəsi birləşib Bayramlı bələdiyyəsi adlanır. Azaflı bizim milli tarixi köklərimizə bağlanan tarixi bir addır. Bələdiyyələr birləşərkən də tarixi əhəmiyyətli yaşayış məskənlərinin adlarının saxlanması tövsiyə olunur. Ona görə mən hesab edirəm ki, burada Azaflı bələdiyyəsi olsa, daha yaxşı olardı. Təşəkkür edirəm və qanun layihəsini dəstəkləyirəm.

**Sədrlik edən.** Sağ olun, Aydın müəllim. Hörmətli həmkarlar, daha çıxış edən yoxdur. Mən qanun layihələrini bir-bir səsə qoyacağam. İndi 7-ci məsələdəki qanun layihəsinə münasibət bildirin. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə 8-ci məsələdəki qanun layihəsini səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyimizin 7 məsələsi qalır. Bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir. 9-cu məsələ "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Komitənin sədri Arzu müəllimə söz vermək istəyirəm. Arzu Nağıyev. Buyurun.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. Sizin də qeyd etdiyiniz kimi, qanun layihəsi "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklə bağlıdır. "Azər-

baycan Respublikasının Silahlı Qüvvələri haqqında" Qanunun qüvvədə olan 9.6-cı maddəsinin redaksiyasına əsasən Nazirlər Kabineti tərəfindən Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin, yəni burada tək Müdafiə Nazirliyi sistemi deyil, eyni zamanda, Dövlət Təhlükəsizliyi Xidmətinin, Sərhəd Qoşunlarının və digərlərinin maddi-texniki vasitələrinin təmin edilməsi qaydası və norması ayrılıqda fərdi olaraq müəyyən edilir. Burada silahlı birləşmələrin növündən asılı olaraq rütbə ardıcıllığı, eyni zamanda, qoşun növü, silah növü və digərləri nəzərdə tutulur.

Təklif edilən dəyişikliyə əsasən bütün Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin maddi-texniki vasitələrlə təmin edilməsi üçün Nazirlər Kabineti tərəfindən vahid qayda müəyyən ediləcəkdir. Silahlı Qüvvələrin tərkibinə daxil olan qurumlar həmin vahid qaydaya əsasən təminat normalarını ayrıca müəyyən edəcəklər.

Göründüyü kimi, 9.6-cı maddəyə təklif edilən dəyişikliklərin həcmi az olsa da, mahiyyətinə görə uyğunlaşma xarakterli deyil və üç oxunuşda qəbul edilməsi nəzərdə tutulur.

Layihə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində geniş müzakirə olunmuşdur və birinci oxunuşda plenar iclasa tövsiyə edilmişdir. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim. Çıxış etmək istəyən yoxdur. Mən layihəni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti 10-cu məsələ "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də, Arzu müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, bu layihə barəsində də məlumat verin. Buyurun.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, bu qanun layihəsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim edilir. Əsas məsələ toplantılara çağırılmaqla bağlıdır. Burada bir neçə maddələrdə hərbi təlim toplantı müddətinin dərəcəsi müəyyən olunur. Əvvəllər konkret olaraq 10 gün, 40 gün, 50 gün göstərilirdi. İndi "günədək" qeyd olunur. Bu da məhz son vaxtlar dinc quruculuq işləri ilə bağlıdır, yəni müharibə bitdikdən sonra ümumi çağırışla bağlıdır. Bir məsələni də qeyd etmək istərdim. Orada müəyyən dərəcələrə bölünür – birinci dərəcəli ehtiyatda olanlar, ikinci dərəcəli ehtiyatda olanlar, üçüncü dərəcəli ehtiyatda olanlar.

Hörmətli həmkarlar, onu da qeyd etmək istəyirəm ki, bunlar da müxtəlif qoşun növlərində, eyni zamanda, müxtəlif Silahlı Qüvvələrdə yaş həddinə görə təyin olunur. Bir misal gətirim: birinci dərəcəli ehtiyatda olan əsgərlər, matroslar, çavuşlar, gizirlər və miçmanlar 35 yaş, kiçik zabitlər 50 yaş, mayor, polkovnik-leytenantlar 50 yaş,

ikinci dərəcəli ehtiyatda olan əsgərlər, matroslar 50 yaş, üçüncü dərəcəli ehtiyatda olanlar 50 yaş, kiçik zabitlər, mayor və polkovnik-leytenantlar 55 yaş, polkovniklər üçün 60 yaş... Yəni bunları sadalamaqla qeyd etmək istəyirəm ki, bəzən insan müəyyən yaşa uyğun olaraq, təqaüdə çıxa bilər, lakin zabit kimi 10 il ehtiyatda olsun. Onun da il ərzində neçə dəfə çağrıla bilməsi bu qanunda öz yerini tapmışdır.

Qanun layihəsi komitəmizdə geniş müzakirə edilmişdir və birinci oxunuşda plenar iclasa tövsiyə olunur. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə də bir-birinə yaxındır. 11-ci məsələ Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, 12-ci məsələ isə "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında" və "Yaşıllıqların mühafizəsi haqqında" qanun-

larda dəyişiklik edilməsi barədə qanun layihələridir. Mən təklif edirəm, qanun layihələrinin təqdimatı ayrılıqda edilsə də, müzakirəsi birgə aparılsın, səsvermə isə həmişə olduğu kimi ayrılıqda keçirilsin.

11-ci məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Layihəyə dair məlumat vermək üçün, Kamal müəllim, mən Sizə söz verirəm. Buyurun, məlumat verin.

**Kamal Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihələrinin məqsədi yaşıllıqlar və heyvanlar aləminin mühafizəsi ilə bağlıdır. Bu məqsədə çatmaq üçün qanunvericiliyin çəkindirici xarakterinin gücləndirilməsi təklif edilir.

Birincisi, qanunsuz olaraq ağacları, kolları və ya digər yaşıllıqları kəsməyə görə Cinayət Məcəlləsində xeyli miqdarın və külli-miqdarın hədləri artırılır. İlk dəfə olaraq xüsusilə külli-miqdarda, yəni 50 min manatdan çox olan anlayış müəyyən edilir.

Eyni zamanda, Cinayət Məcəlləsinin 259-cu və 260-cı maddələri üzrə sanksiyalarındakı cərimə cəzasının konkret pul məbləği ilə deyil, cinayət nəticəsində vurulmuş ziyanın müvafiq mislinədək miqdarda pul tənbehi ilə müəyyən olunması təklif edilir.

İnzibati Xətalar Məcəlləsində isə ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətaları müəyyən edən müddəalar təkmilləşdirilir. Heyvanlarla rəhmsiz rəftar edilməsi ilə bağlı maddə yeni redaksiyada təqdim olunur. Buradakı sanksiyalar da sərtləşdirilir. Bununla yanaşı, yeni – Heyvanlarla rəhmsiz rəftarın təbliğ edilməsi və ya kommersiya məqsədi üçün istifadə edilməsi maddəsi əlavə olunur.

Qeyd edilənləri nəzərə alaraq qanun layihəsinin lehinə səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Kamal müəllim. 12-ci məsələyə Aqrar siyasət komitəsində baxılmışdır. Tahir müəllim, mən Sizi dəvət edirəm. Xahiş edirəm, qanun layihəsi ilə bağlı məlumat verin. Buyurun.

**Tahir Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli sədr, hörmətli həmkarlar. Adları göstərilən qanunlara edilmiş dəyişikliklər bilavasitə heyvanlar aləminin, ətraf mühitin və yaşıllıqların qorunmasını, qaydaların və cərimələrin tətbiqini nəzərdə tutur.

"Heyvanlar aləmi haqqında" Qanunun 53-cü maddəsinə heyvanlarla rəhmsiz rəftar edilməsi hallarına görə məsuliyyət nəzərdə tutan maddə daxil edilir. İnzibati Xətalar Məcəlləsinin 274-cü maddəsinə Heyvanlarla rəhmsiz rəftarın təbliğ edilməsi və kommersiya məqsədləri üçün istifadə edilməsi maddəsi əlavə olunur ki, bu da rəftara görə cərimələrin məsuliyyətinin tətbiqini müəyyən edir.

"Ətraf mühitin mühafizəsi haqqında" Qanuna edilmiş dəyişikliyə əsasən Ətraf Mühitin Mühafizəsi üzrə Dövlət Fonduna daxilolmalar sırasına yaşıllıqların götürülməsinə, kəsilməsinə, zədələnməsinə və ya məhv edilməsinə görə dəymiş ziyanla bağlı daxilolmalar da əlavə edilir.

"Yaşıllıqların mühafizəsi haqqında" Qanuna edilmiş dəyişiklik də əhəmiyyətlidir. Belə ki, qanunun yaşıllıqların götürülməsi ilə bağlı müddəası, eləcə də qanunun pozulmasına görə məsuliyyət tədbirləri kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlara, əkinlərə, habelə xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlara şamil edilməyəcəkdir. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, hər iki qanun layihəsinə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində də baxılıb. Mən indi hörmətli Sadiq Qurbanovdan xahiş edəcəyəm, məlumat versin. Buyurun, rəy bildirin.

**Sadiq Qurbanov**, *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun. Dəyərli Sahibə xanım, hörmətli həmkarlar. Komitəmiz bu qanun layihələrini müzakirə edib dəstəkləyir. Onu da qeyd etmək istəyirəm ki, bu, heç də təsadüfi deyil. Bu dəyişikliklərə oxşar qanun maddələri digər ölkələrdə – Qazaxıstanda, Qırğızıstanda, Gürcüstanda, Rusiyada, Latviyada, Ukraynada, hətta İspaniyada, Fransada, Xorvatiyada da nəzərdə tutulub. Artırılma ilə bağlı məsələ burada dəfələrlə səslənib, mediada da bu məsələlərlə bağlı fikirlər var.

Yalnız bir statistikanı deyim ki, 2017-ci ildə Belçikada qanunvericiliyə edilən dəyişikliyə görə, heyvanlarla rəhmsiz rəftara görə cəza 500 avrodan 100 min avroya qədər qaldırılıb. Yəni belə praktikalar var. Hesab edirəm ki, bu, çox doğru bir qərardır və komitəmiz də hər iki qanun layihəsinə müsbət rəy verir. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim. Yazılanlar var. Azay Quliyev. Buyurun.

**Azay Quliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Müzakirəmizə təqdim olunan gündəliyin 11-ci məsələsi ilə bağlı bəzi fikirlərimi sizinlə bölüşmək istərdim. Bu gün dövlətimizin əsas siyasətindən biri ondan ibarətdir ki, ətraf mühitin, yaşıllıqların və heyvanlar aləminin qorunması ilə bağlı mövcud qanunvericiliyə dəyişikliklər edilsin və bu istiqamətdə törədilən həm xəta xarakterli, həm də cinayət

xarakterli bütün əməllərə daha sərt yanaşılsın. Xüsusilə COP29 ərəfəsində belə bir addımın atılması həm də bu gün Azərbaycanın beynəlxalq səviyyədə götürdüyü öhdəliklərin tərkib hissəsi kimi də xüsusi əhəmiyyət kəsb edir.

İndi həm Cinayət Məcəlləsinə, həm də İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklərə əsasən, xüsusilə Cinayət Məcəlləsinin mövcud mətnində yaşıllıqların, ağacların qırılmasına görə 6-7 min manat cərimə nəzərdə tutulurdusa, indi bu həcm dəymiş ziyanın 2 mislinə qədər qaldırılır, azadlıqdan məhrumetmə cəzası da 2 ildən 3 ilə qaldırılır. Bu əməl külli-miqdarda ziyan vurmaqla törədildikdə isə bu cərimə və cəza avtomatik olaraq 3-4 dəfə artırılır. Burada xüsusi qeyd olunmalıdır ki, bu hallar kənd təsərrüfatına və insanların şəxsi mülkiyyətində olan bağlara, həyətyanı sahələrə aid edilmir. Yeri gəlmişkən, biz bu cür qanunların qəbul edilməsində ictimai rəyi də nəzərə almalıyıq və qəbul olunan qanunların mahiyyətini, ruhunu düzgün şəkildə ictimaiyyətə çatdırmalıyıq.

Hörmətli xanım sədr, bilirsiniz ki, son vaxtlar cərimələrlə, müəyyən sanksiyaların artırılması ilə əlaqədar ictimai rəydə də birmənalı müzakirələr getmir. Bəzi qruplar, bəzi adamlar qəbul olunan qanunun mahiyyətini qəsdən təhrif etməyə çalışırlar. Elə bir rəy yaradırlar ki, guya bu cərimələrin artırılması dövlət büdcəsinə xüsusi vəsaitlərin cəlb edilməsi məqsədi daşıyır. Yaxud da məntiqdən tamamilə kənar belə bir fikir var ki, cərimələr insanların maaşına, yaxud pensiyasına uyğun olmalıdır. Dünyanın heç bir yerində belə bir yanaşma yoxdur. Cərimələr heç bir halda insanların maaşı ilə, yaxud da onların pensiyaları ilə ölçülə bilməz. Burada sadə bir prinsip var: həmin xətanı törətmə, qanunun müddəalarına əməl et və cərimə də ödəmə. Cərimə heç bir halda nə

vergidir, nə məcburi ödənişdir. Biz bunu ictimai rəydə doğru-dürüst şəkildə təqdim edə bilmək istərdik. Bu baxımdan həm jurnalistlərin, həm də vətəndaş cəmiyyətinin üzərinə xüsusi məsuliyyət düşür ki, bu istiqamətdə bizim vətəndaşları məlumatlandırsınlar.

İkinci məsələ. Hörmətli xanım sədr, qeyd etdiyimiz kimi, cərimələrlə bağlı sanksiyalar son illər artırılır. Əgər belə bir təklif varsa, deməli, bu sahədə problemlər tam şəkildə həll olunmayıbdır. Cərimələrin əsas məqsədi çəkindirici xarakter daşıyır, insanları bu əməli törətməkdə daha ehtiyatlı olmağa, onu törətməmək üçün daha çox məsuliyyətli olmağa vadar edir. Amma biz bunu hər dəfə artırırıqsa, deməli, burada məsələlər heç də bizim gözlədiyimiz kimi getmir. Ona görə yaxşı olardı ki, bu cür cərimələri artırmamışdan öncə müvafiq qurumlar mövcud vəziyyətlə bağlı bir arayış təqdim etsinlər. Yəni 2-3 il bundan qabaq konkret bir əmələ görə cərimələr artırıldısa və biz yenidən bu cərimələrin artırılmasına qayıdırıqsa, həmin vəziyyət necə olub, inkişaf dinamikası nədən ibarətdir? Biz bunu bilsək, hesab edirəm ki, ictimai rəyin formalaşmasında da bu məlumatlar bizə xeyli köməklik edər. Məsələn, sürət həddinin artırılmasına görə biz 2-3 il bundan qabaq cərimələri artırdıq. Əgər 2022-ci illə 2023-cü ildəki yol-nəqliyyat hadisələrini müqayisə etsək, ötən ildə 2 faiz azalma müşahidə olunur. Bu özü müsbət bir dinamikadır. Digər sahələrlə bağlı ictimaiyyəti, vətəndaşları məlumatlandırsaq, qəbul olunan qərarları əsaslandırsaq, mövqeyimiz daha möhkəm ola bilər. Ona görə də xahiş edirəm, müvafiq qurumlar bu məsələni nəzərə alsınlar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Əlavə və dəyişikliklə bağlı burada “rəhmsiz” ifadəsi işlədilir. Ola bilsin, bu, tərcümədir, ya beynəlxalq termindir. Biz əvvəlki dövrdə “qeyri-insani rəftar” ifadəsindən daha çox istifadə edirdik. İndi, ola bilsin, bu, termin kimi götürülüb və ona görə burada əksini belə tapıb. Düşünürəm, biz bu ifadəyə yenidən baxmalıyıq.

Digər bir məsələ isə sahibsiz heyvanlarla, yəni sahibsiz heyvanların insanlara hücumu ilə bağlıdır. Bu, Azərbaycan cəmiyyətində zaman-zaman geniş müzakirə olunur və mətbuatda da geniş işıqlandırılır. Hesab edirəm, biz bu proses, onun təkmilləşdirilməsi barədə də düşünməliyik. Düzdür, illər öncə bu heyvanlar qətlə yetirilirdi. Sonrakı dövrdə daha mütərəqqi bir addım ataraq onların götürülməsi və saxlanılması istiqamətində müəyyən qərarlar qəbul edildi. Amma bu gün də biz müəyyən yerlərdə, müəyyən ərazilərdə bu kimi problemləri görürük. Ona görə bu istiqamətdə hansı təkmil addımları atmaq olar, düşünməliyik.

Eyni zamanda, qeyd edim ki, bu gün Qərbdə bir sıra ölkələrdə dövlətin bütün sahibsiz heyvanlara sahib çıxması praktikası mövcuddur. Bu, çətin bir məsələdir. Mən düşünürəm, hazırda təbliğat aparmalıyıq ki, insanlar sahibsiz heyvanlara sahiblənsinlər. Bu, bir mədəniyyət kimi, ənənə kimi hansısa formada insanlar arasında təbliğ edilməlidir. Qanunun qəbul edilməsi, cərimələrin tətbiq olunması bu prosesin qarşısının alınması baxımından önəmlidir. Amma eyni zamanda, təbliğat və maarifləndirmə məsələsi də vacibdir.

Mən yaşıllıqlarla, təbiətlə bağlı bir məsələyə də toxunmaq istəyirəm. Biz bir sıra hallarda bəzi bölgələrdə iaşə obyektləri tərəfindən meşələrin çirkləndiyini, zibillərin

atıldığını görürük. Bu da təbiətə, meşə fonduna ciddi ziyan vuran bir məsələdir. Hesab edirəm ki, biz bu barədə də düşünməliyik.

Məndən əvvəl də qeyd olundu. Bu gün Azərbaycan cəmiyyətində bu məsələ müzakirə olunur. Mən də düşünürəm ki, əsas məqsəd və hədəf insanları bu əməllərdən çəkindirməkdir. İndi reallıq ondan ibarətdir ki, bəzən bu cəzalar tətbiq olunsa da, ya insanlar yenə eyni cinayətləri törədirlər, ya da səhvləri təkrarlayırlar. Mən hesab edirəm, insanlar özlərində də bir mədəniyyət formalaşdırmalıdırlar və nəzərə almalıdırlar ki, bu cür əməlləri törətmək olmaz. Ümumilikdə, mən əlavə və dəyişikliklərin lehinə səs verəcəyəm.

**Sədrlik edən.** Çox sağ olun, Ceyhun müəllim. Dediyiniz o mədəniyyət, maarifləndirmə – bunlar hamısı məktəbdən, bəlkə də uşaq bağçasından başlamalıdır, sonra isə ədəbiyyatda, dərsliklərdə və sairdə davam etməlidir. Əgər uşaq bunu kiçik yaşlarında anlasa, başa düşsə, artıq yaşı artdıqca nə meşəni, nə də ağacı qırmaz. Maarifləndirmək lazımdır. İndi Azay müəllim də bunu deyirdi ki, bu məsələ ilə bağlı çıxışlar və sair olsun. Elə deputatların özləri də, Sadiq müəllim, ilk növbədə komitəniz, bu komitənin üzvləri, ümumiyyətlə, bu, hamımıza aiddir. Bu məsələ ilə bağlı həmişə çıxışlar etmək lazımdır.

Səyyad Salahlı. Buyurun.

**Səyyad Salahlı.** Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, əvvəla, bir təklif vermək istəyirəm. Yazılıb ki, 15 qanun layihəsini müzakirə etməliyik. Hər birinə minimum 20 dəqiqə vaxt ayrılırsa, bu, 300 dəqiqə edir. Özündən deyən hər hansı savadlı, bilikli, bacarıqlı deputat bu 15 məsələyə 20 dəqiqədən vaxt sərf etsə, 300 dəqiqə edir. Mən xahiş edirəm ki, qanunlar hazır olduqca deputatlara

ötürülsün. Üçü bir dəfə, beşi bir dəfə, səkkizi bir dəfə. Bunlara ətraflı şəkildə baxıb əlavə mənbələrə də müraciət etmək lazımdır. Bir fikrimizi toplaya bilək, məlumatlanaq.

Qanun barəsində. Şübhəsiz ki, vacib qanundur. Çünki Azərbaycanın başdan-ayağa Aran, Mil, Şirvanın yarısı, Bakının ətrafı yaşıllıqdan məhrumdur. Hətta təklif edərdim ki, ümumiyyətlə, bu, respublikada bir dəbə çevrilsin, icra hakimiyyətləri, heç olmasa, ayda bir dəfə, iki ayda bir dəfə iməcilik yolu ilə yaşıllıqlar salsınlar. Axı, bunun nə dərəcədə vacib olduğunu izah etməyə ehtiyac yoxdur. Ərazimizin yarısı səhra, yaxud yarımsəhradır. Yaşıllığın qorunması olduqca ümdə və əhəmiyyətli bir məsələdir, amma təəssüf ki, əməl edə bilmirik.

Qanunun dili ilə bağlı bəzi iradlarımı bildirmək istəyirəm. "Yaşıllığın götürülməsinə (kəsilməsinə), zədələnməsinə və yaxud məhv edilməsinə görə verilmiş ziyanla bağlı daxilolmalar əlavə edilir" və sair. Azərbaycan dilində "yaşıllığın götürülməsi" ifadəsi yoxdur. Xalq heç vaxt demir ki, "ona bax, yaşıllığı götürdülər". Xalq belə deyir: "Yaşıllığı kəsdilər, doğradılar, məhv etdilər əli qurumuşlar". Çox güman ki, bu, hərfi tərcümənin xətasıdır. Yaşıllığın götürülməsi nə deməkdir?

Yenə də bu haşiyədə üçüncü abzas: "Şamil olunmadığı halların (yaşıllıqların) dairəsi dəqiqləşdirilir". "Halların" sözü ilə "yaşıllıqların" sözü məgər sinonimdir? Bu nə deməkdir? Xahiş edirəm, qanunu təqdim edənlər, yaxud da bu qanunun pərdəarxası müəllifləri buna fikir versinlər. Belə söz yoxdur. Bu, dili tamamilə bərbad günə qoyur.

Bundan başqa, yenə də üçüncü abzasda belə bir ifadə var: "İstifadə edilən bitkilərdən ibarət yaşıllıqlara (əkinlərə)". Əkin hara, yaşıllıq hara? İzah edirəm: əkin insan tərəfindən, yaxud fərdi insan toplusu tərəfindən həyata

keçirilən icbari bir əməkdir. Pambıq, buğda, arpa, çəltik və sair əkirdilər. Bu, əkindir. Yaşıllıq isə yağışın yağması, çayların daşması nəticəsində çayların dağlardan ağac budaqlarını, müxtəlif bitki toxumlarını özü ilə gətirərək ətrafa səpməsidir. Sel kəsiləndən sonra o bitkilər, budaqlar, toxumlar orada becərir. Bu, yaşıllıqdır. Bunu təbiət özü təbii vasitəsi ilə yaradır. Bu sözləri niyə belə qarışdırdıq? Xahiş edirəm, bu məsələlərə fikir versinlər. Mən bunu əvvəlki təcrübəmdən deyirəm. Belə sözlər işlədilirdi: "Filankəsin əmək haqqı bu halda artırıla bilər". Məmurla o vətəndaş arasında dava düşürdü. Tanıdığımız məmur deyirdi ki, olmaya da bilər. Burada deyilir ki, "ola bilər". Mən hələ kitablara baxım, "yuxarı" zəng edim, dəqiqləşdirim ki, ola bilər, yoxsa yox.

Belə qanun olmaz, qanun konkret olmalıdır. Artırılmalıdır, qurtardı. Niyə biz – bu Məclis gələcək münaqişələrə, vətəndaş-məmur davasına şərait yaradırıq? Qanunun dili dəqiq və konkret olmalıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Səyyad müəllim. Ancaq mən Sizin tənqidinizi qəbul etmirəm. Qanun layihələri vaxtında verilir və hər bir deputatın kifayət qədər vaxtı var ki, tanış olsun. Bu, bir.

İkinci, dediniz ki, Bakıda və sairdə yaşıllıqlar salınmır. Dövlət tərəfindən kifayət qədər bu məsələyə diqqət yetirilir. Biz özümüz, bu deputat korpusu dəfələrcə ağaclar əkmişik. Mən indi bu məsələni burada qaldırmaq istəmirəm.

O ki qaldı dil məsələsinə, bəli, mən Sizinlə razıyam. Çox zaman qanun layihələrinin dili çox da asan olmur. Fərid müəllim, Səyyad müəllimin bu dedikləri hamısı qanunun ikinci oxunuşuna uyğundur. Xahiş edirəm, elə bilin ki, Səyyad müəllim artıq ikinci oxunuşda çıxış edib.

Bunların hamısını təklif kimi yazarsınız. Çox sağ olun.

Elçin Mirzəbəyli. Elçin müəllim, buyurun.

**Elçin Mirzəbəyli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Qanun layihələrinə təklif olunan dəyişikliklərin mütərəqqi olduğunu düşünürəm. Amma bununla yanaşı, bir neçə məqama, xüsusilə də "Heyvanlar aləmi haqqında" Qanunun 53-cü maddəsinə təklif olunan dəyişikliklə bağlı diqqətinizi cəlb etmək istəyirəm. Burada qanunvericiliyin pozulmasına görə məsuliyyət nəzərdə tutulur. Təklif olunan dəyişikliklə heyvanlarla rəhmsiz rəftar etdikdə, yəni onlara ağrı, əzab, işgəncə verilməsi, onların döyülməsi və döyüşdürülməsi nəticəsində onları şikəst və ya tələf etdikdə, rəhmsiz rəftarı nümayişkaranə şəkildə, o cümlədən mediada nümayiş etdirilməklə törətdikdə, belə rəftarı təbliğ etdikdə və ya belə rəftara açıq çağırışlar etdikdə və bu cür rəftarı özündə əks etdirən materialları kommersiya məqsədləri üçün istifadə etdikdə belə bir məsuliyyət nəzərdə tutulub. Qeyd edim ki, heyvanlara qarşı rəhmsiz rəftar, onlara əzab və işgəncə verilməsini əks etdirən materiallar bir qayda olaraq sosial şəbəkələrdə, media subyekti sayılmayan internet, informasiya ehtiyatlarında yayımlanır.

"Media haqqında" Qanunun 1.1.2-ci maddəsində media anlayışının açıqlaması verilir: "Media-kütləvi informasiyanın dövri və ya müntəzəm olaraq dərc olunmasını və (və ya) yayımlanmasını həyata keçirmək üçün istifadə olunan alət və vasitələr, habelə onlar vasitəsi ilə formalaşan informasiya mühiti". Yəni media anlayışı konkret olaraq peşəkar medianı nəzərdə tutur. Təbii ki, bu anlayış da qalmalıdır. Amma paralel olaraq daha çox hədəf olan sosial şəbəkələr, qənaətimə görə, bu məsələ də önə çıxarılmalıdır. Çünki dəyişikliyin hədəfi yalnız

mediada baş verən proseslər ola bilməz. Peşəkar media bir qayda olaraq etik qaydalara əməl edir. Eyni zamanda, bəllidir ki, Azərbaycanda peşəkar media subyektləri yalnız media reyestrindən keçdikdən sonra fəaliyyət göstərirlər. Yəni prinsip etibarı ilə digərləri – media reyestrindən keçməyən resurslar media hesab olunmurlar. Yəni bu, təkcə sosial şəbəkələr deyil, eyni zamanda, media reyestrindən keçməyərək media subyekti sayılmayan digər informasiya resurslarına da aid edilməlidir. Bu məsələyə xüsusi diqqət yetirmək lazımdır.

Digər bir aspekt isə qanunun dilində yer alan və anlaşılmayan bir məqamla bağlıdır. Söhbət heyvanlardan gedir. Onların döyülməsi və döyüşdürülməsi nəticəsində onları şikəst və ya tələf etdikdə məsuliyyət yaranır. Belə anlaşılır ki, əgər onlar şikəst və tələf edilməsələr, bu, artıq məsuliyyət yaratmayacaq. Yəni burada məntiq pozğunluğu var. Qənaətimə görə, buna diqqət yetirilsə, daha yaxşı olar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Elçin müəllim, sağ olun. Bu da, əslində, ikinci oxunuşa aiddir.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xeyr, cəmi 3 nəfər çıxış edəcək. Necə olur, hamıya söz veririk, bunlara söz vermirik? Olmur. Sadiq müəllim, sualdır, ya təklifdir?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çünki Siz rəy verən komitəsiniz. Gəlin, Əlibala müəllimə qulaq asaq. Çünki Siz artıq komitədə bu məsələyə baxmısınız. Ona görə deyirəm.

Əlibala Məhərrəmzadə. Buyurun.

**Əlibala Məhərrəmzadə.** Hörmətli xanım sədr, mən qanun layihəsindən razıyam. Təbii ki, qəbul olunmalıdır. Amma bir polemikaya fikir verməyinizi rica edərdim.

Təmsil etdiyim Quba 59 saylı dairədə küçə itləri ilə əlaqədar çox ciddi problem var. Oktyabrın 1-dək küçə itlərinin dişləməsinə məruz qalan insanların sayı 1200-ə çatmışdır. Bu, çox ciddi bir problemdir. Bu qanun layihəsi ilə də paralel olaraq quduzlaşmış itlərin hansısa bir qaydada ləğvi deyək, yaxud da bu problemin hansısa qaydada həlli kifayət qədər ciddi müzakirə predmetinə çevrilib. Bu gün turizm məkanı Qubada, turistlərin müraciət etdiyi bir bölgədə küçə itlərinə görə saat 6-7-dən sonra gəzmək mümkün deyil. Onların sayı təqribən 5 mindən yuxarıdır. Azərbaycanda keçirilən tədbirlər zamanı ölkənin müəyyən bölgələrindən küçə itləri tutulub Qubanın mərkəzinə buraxılır. Müşahidə olunub ki, bu prosesin bitməsi heç də görünmür. Çox xahiş edərdim ki, gələcəkdə bu qanun layihəsini bir polemika kimi müzakirəyə çevirək.

**Sədrlik edən.** Sağ olun. Sadiq müəllim, buyurun.

**Sadiq Qurbanov.** Çox sağ olun, dəyərli Sahibə xanım. Sadəcə olaraq qısa bir arayış verim ki, təkcə ötən il 250 min hektar ərazidə nə az, nə çox, 3 milyon 200 min ağac əkilib. Bilirsiniz ki, bu il “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində 5 milyon ağac əkilməsi planlaşdırılır. 32 ton meşə ağacının toxumlarının, – bunlar keçən il də əkilib, – bu il də eyni qaydada əkilməsi nəzərdə tutulur.

İkinci qısa bir arayış. Yenə mətbuatda gedəcək. Sahibsiz itlərlə bağlıdır. Bilirsiniz ki, dövlət büdcəsindən icra hakimiyyətlərinə bununla bağlı vəsait ayrılır. Sadəcə olaraq bu dəfə bu məsələyə xüsusi diqqət ayrılmasını, itlərə birka vurulmasını, quduzlaşmanın qarşısının alınması üçün vaksin edilməsini müzakirə edə bilərik. Bu arayışı vermək istədim. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Sadiq müəllim, suallar

olmasın deyə, ağaclarla bağlı qeyd etdiyiniz o rəqəmləri, yaxşı olar ki, qanun layihəsi təqdim olunanda, Tahir müəllim, ya da rəy verən komitə kimi Siz vaxtında verəsiniz. Sonra ortaya suallar çıxmasın. Çox sağ olun. Mənim Sizə nəyə görə söz vermədiyimi, əlbəttə ki, başa düşdünüz. Çünki rəy verən komitə və ya əsas komitə sədrləri həmişə sonda çıxış edirlər. Görək, deputatlar hansı məsələləri qaldırırlar. Siz də ümumiləşdirib cavab verəsiniz.

Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Mən qanun layihələrini bir-bir səsə qoyuram. Xahiş edirəm, 11-ci məsələyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.58 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə 12-ci məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.58 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti 13-cü məsələyə keçirik. Bu, "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Səhiyyə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən çox hörmətli Əhliman müəllimə söz verirəm. Əhliman müəllim, buyurun.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Çox hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri, media mənsubları. Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə təqdim olunan qanun layihələri əhalinin dərman vasitələrinə olan ehtiyaclarının qarşılanması, əlçatanlığın və keyfiyyətin artırılması, habelə sığorta olunanların maraqlarının qorunmasına hüquqi zəmin yaratmaq üçün hazırlanmışdır. Bu layihədə sözügedən qanunlara çoxsaylı mahiyyət, texniki, stilistik və redaktə xarakterli dəyişiklik təklif olunur.

Ambulator dərman təminatının əhatə dairəsinin müəyyən olunmasında istifadə olunan əsas prinsiplər adekvat müalicənin təşkili və əhalinin səhiyyə xərclərinin azaldılmasıdır.

Layihədə icbari tibbi sığorta üzrə ambulator dərman vasitələrinin kompensasiya şərtləri, icbari tibbi sığorta çərçivəsində təminat verilən ambulator dərman vasitələrinin xidmətlər zərfi ilə müəyyən edilməsi, o cümlədən İcbari tibbi sığorta fondu hesabına ambulator dərman vasitələrinin təminatı kimi məsələlər öz əksini tapmışdır.

Belə ki, vətəndaşlar ambulator müalicə alarkən dərmanlarını da tibbi sığorta vasitəsi ilə əldə edəcək və icbari tibbi sığortanın əsas məqsədlərindən olan əhaliyə keyfiyyətli və əlçatan tibbi xidmətlərin göstərilməsi təmin olunacaq.

Xüsusilə vurğulamaq istərdim ki, son zamanlarda icbari tibbi sığorta sistemi müəyyən inkişaf yolu keçmiş, bu sahədə yeni maliyyə və nəzarət mexanizmləri tətbiq edilmişdir. O cümlədən əhalinin tibbi ehtiyaclarının daha geniş əhatə olunması üsullarından istifadə edilir. İcbari tibbi sığorta haqlarının toplanmasında və sığorta ödənişlərinin həyata keçirilməsində daha səmərəli tədbirlər görülür və uğurlu islahatlar aparılır.

Hörmətli həmkarlar, sizlərə təqdim olunan qanun layihəsi də bütün bu sistemli islahatların tərkib hissəsidir. Əlavə olaraq qeyd etmək istərdim ki, layihə əhalinin dərman vasitələri ilə təchizatının icbari tibbi sığorta çərçivəsində daha səmərəli təmin edilməsi üçün hazırlanmışdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Çıxış etmək istəyənlər var. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. “Əhalinin sağlamlığının qorunması haqqında” və “Tibbi sığorta haqqında” qanunlara edilən dəyişiklikləri dəstəkləyirəm və çox mütərəqqi hesab edirəm.

Hörmətli xanım sədr, iki məsələni nəzərinizə çatdırmaq istəyirəm. Birincisi, böyük kəndlərdə kiçik və ya böyük tibb məntəqələrinin olmaması, yaxud bərbad vəziyyətdə olmasıdır. Bu məsələ ilə seçkilər zamanı da çox qarşılaşdıq. Demək olar ki, bütün kəndlərdə, qəsəbələrdə bu məsələlər qaldırılırdı. Sonradan araşdırma nəticəsində məlum oldu ki, yalnız mənim deputat olduğum İmişlidə deyil, bütün Azərbaycanda, əsasən, kəndlərdə tibb

məntəqələri ya təmirsizdir, ya işçiləri yoxdur, ya da heç yoxdur. Bu da insanların sağlamlığı üçün çox ciddi problemlər yaradır. Ona görə də bu məsələnin həlli ilə bağlı ciddi addımların atılmasına ehtiyac var. Çünki şəxsən mən görmüşəm ki, bir insan xəstələndi, yaxud ürəkağrısı tutdu, onu maşına qoyub harasa aparmaq olmur. Ona elə həmin yaşadığı kənddə ciddi tibbi xidmət göstərilməlidir. Amma tibbi personal yoxdur. Kimlərsə kustar üsulla addımlar atır və bu da insanın həyatının bitməsinə səbəb olur. Ona görə də, əsasən, böyük kəndlərdə tibb məntəqələrinin olması çox vacibdir.

İkinci. Azərbaycanın səhiyyə xəritəsinin olması vacibdir. Mənim deputatı olduğum İmişlidə belə elə kənd var ki, orada hamı ancaq ürəktutmasından vəfat edir. Elə kəndlər var ki, orada şəkər xəstələri çoxdur. Elə kəndlər var ki, orada təzyiq xəstələri çoxdur. Bunların səbəbləri də bilinmir. Ona görə də Azərbaycanda bütün rayonlar üzrə səhiyyə xəritəsinin olması yaxşı olardı ki, insanların hansı xəstəlikdən xəstələndikləri, yaxud öldükləri məlum olsun və məhz məsələnin kökü həll olunsun, problemin əsası ilə bağlı işlər aparılsın. Elə rayonlar, elə kəndlər var ki, orada 28-36 yaşlı gənc oğlan və qızlar ürəktutmasından vəfat edirlər. Elə kəndlər və rayonlar var ki, orada onkoloji xəstəliklər daha çox cavanlaşıb. 15, 18, 20 yaşında uşaqlar belə onkoloji xəstəliyə tutulurlar. Təbii ki, bunun müxtəlif səbəbləri var. Bu, torpaqdan, çirklənmədən, sudan, günəşdən və sair səbəblərdən ola bilər. Onun üçün də bütöv Azərbaycan üzrə səhiyyə xəritəsinin hazırlanmasını və səhiyyə xəritəsi üzrə də insanların sağlamlığının qorunması ilə bağlı addımların atılmasını təklif edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Razi müəllim. Əhliman

müəllim, biz Sizinlə dünən birinci məsələ ilə bağlı danışırdıq ki, o kəndlərdə problemlər var. Biz bu məsələni də müzakirə edəcəyik. İkinci məsələ. Əhliman müəllim, müxtəlif rayonlarda elə xəritə yoxdur? Yoxsa var?

**Əhliman Əmiraslanov**. Hörmətli deputat həmkarımızın qaldırdığı məsələlərlə bağlı qeyd etmək istərdim ki, ilkin tibbi xidmətin vəziyyəti ilə bağlı məsələni dünən hörmətli sədrimiz Sahibə xanımla müzakirə etdik. Doğrudan da, bu, çox ciddi bir məsələdir. Həm deputat seçkilərində, həm də seçicilərin bizə müraciətlərində, qəbulda bu məsələlər qaldırılır. Bu problem, demək olar ki, bütün rayonlarda, bölgələrdə var. Birinci, o tibb məntəqələrinin maddi-texniki bazası, demək olar ki, yoxdur, bərbad haldadır. İkincisi isə kadr çatışmazlığı problemi var. Bununla bağlı Səhiyyə Nazirliyi ilə söhbətlər aparmışıq, İcbari Tibbi Sığorta Agentliyi ilə bu barədə razılığa gəlmişik ki, dekabr ayında Səhiyyə komitəmizin, Səhiyyə Nazirliyinin, İcbari Tibbi Sığorta Agentliyinin, TƏBİB-in və digər ekspertlərin iştirakı ilə Milli Məclisdə geniş bir dinləmə keçirək. Mən deputat həmkarlarımı da bu dinləməyə dəvət edirəm.

Razi müəllimin səhiyyə xəritəsi ilə bağlı dediyinə əlavə etmək istərdim ki, səhiyyə xəritəsi deyilən bir anlayış yoxdur. Bu və ya digər regionda, şəhərdə, kənddə "epidemioloji tədqiqat" deyilən müayinələr aparılır və bunun da əsasında statistik məlumatlar əldə olunur. Razi müəllim deyir ki, hansı isə kənddə ürəktutmasından ölənlərin sayı çoxdur. Hansı isə yerdə başqa bir patologiya daha çox aşkar edilir. Bu statistika ölkədə var, bu statistika aparılır və Səhiyyə Nazirliyi, TƏBİB tərəfindən buna nəzarət olunur. Ancaq hörmətli Razi müəllim, bir kənddə ard-arda iki nəfərin ürəktutmasından həyatını dəyişməsi o

deмək deyil ki, bu, həmin bölgədəki şəraitlə, ətraf mühitlə və ya digər şərtlərlə bağlıdır. Ürəktutmasından, yəni ürək patologiyasından dünyasını dəyişən insanların sayı kifayət qədər çoxdur. Bu hallar hər yerdə var. Bilirsiniz ki, ürək-damar xəstəliklərindən ölüm 60 faizin üzərindədir. Bütün ölüm hadisələrinin 65 faizə qədəri ürək-damar patologiyasından baş verir. Bölgələr üzrə fərqli patologiyalar barəsində bizdə – Səhiyyə Nazirliyində məlumatlar var. Bu məlumatlar mütəmadi olaraq yığılır.

Qeyd etmək istəyirəm ki, qaldırılan bu məsələlər bugünkü qanun layihəsinin predmeti deyil, ancaq bütövlükdə, səhiyyə ilə bağlı məsələlərdir. Biz bu məsələləri dinləmələrdə müzakirə edərik.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Mən düşünürəm ki, Sizin dediyiniz statistika bəlkə də lazımdır. Çünki elə regionlar var ki, orada insanlarda yod yoxdur deyə, endokrin xəstəliklər sistematik olaraq mövcuddur. Hicran Hüseynova. Buyurun.

**Hicran Hüseynova**. Sağ olun, xanım sədr. Hörmətli həmkarlar, hörmətli Əhliman müəllim bu dəyişikliklər haqqında çox ətraflı danışdı. Çox vacib dəyişikliklərdir. Çünki qanun layihəsi əhalinin dərman vasitələrinə olan ehtiyaclarının maliyyə cəhətdən qarşılanması, onların əlçatanlığı baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu, həm də vətəndaşlara göstərilən tibbi xidmətlərlə bağlı əhalinin sosial təminatına xidmət edən qanun layihəsidir. Belə ki, vətəndaşlar ambulator müalicə alarkən dərmanları da tibbi sığorta vasitələri ilə əldə edə biləcəklər.

Xüsusi olaraq qeyd etmək istərdim ki, cənab Prezidentin apardığı uğurlu islahatlar nəticəsində bütün sahələrdə olduğu kimi, Azərbaycan səhiyyəsi də inkişaf edir və müasir tələblərə cavab verir. Qısa bir müddətdə

icbari tibbi xidmətlərin tətbiqində uğurlu nəticələr əldə olunur və insanlara keyfiyyətli, əlçatan tibbi xidmətlər göstərilir. Bu qanun layihəsi də islahatlara bir töhfədir. Bu baxımdan da mən qanun layihəsini uğurlu, təkmil hesab edirəm və ona səs verəcəyəm. Yəqin ki, bu məsələlərlə bağlı tək mənə deyil, bütün həmkarlarıma ən çox qazilərimiz, şəhid ailələri müraciətlər edirlər. Əlbəttə ki, onlar üçün də çox vacib dəyişikliklər olacaq.

Sahibə xanım, mən də Müstəqilliyin Bərpası Günü ilə bağlı bu gün səslənən bütün təbriklərə qoşuluram. Hamınız sağ olun.

**Sədrlik edən.** Sağ olun, Hicran xanım. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.11 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti 14-cü məsələ "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün Nizami müəllimə söz verirəm. Buyurun, Nizami müəllim.

**Nizami Səfərov**. Hörmətli xanım sədr, hörmətli de-

putatlar. Azərbaycan Respublikasının Prezidenti qanunvericilik təşəbbüsü qaydasında "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini Milli Məclisin müzakirəsinə təqdim etmişdir. Layihənin konseptual cəhətdən qiymətləndirilməsi göstərir ki, nəzərdə tutulan hüquqi yeniliklər dövlət başçısının rəhbərliyi altında məhkəmə-hüquq sistemində həyata keçirilən islahat çərçivəsində növbəti əhəmiyyətli addımdır. Xatırlatmaq istərdim ki, məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi və Məhkəmə-Hüquq Şurasının təşkilati hüquqi əsaslarının möhkəmləndirilməsi üçün ən mühüm hüquqi sənəd qismində "Məhkəmə-hüquq sistemində islahatların dərinləşməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanı çıxış edir. Hörmətli deputatlar "Məhkəmələr və hakimlər haqqında" Qanunda dəyişikliklə bağlı qanun layihəsinin təhlili göstərir ki, burada həm texniki, həm də mahiyyətinə görə substantiv müddəalar nəzərdə tutulur və bu mənada dəyişikliklərin iki mühüm istiqaməti diqqəti cəlb edir. Birincisi, hakimlərin seçim prosesinin təkmilləşdirilməsidir. Vakant hakim vəzifələrinin qısa müddətdə komplektləşdirilməsi məqsədi ilə hakimlərin seçim prosesinin daha da sürətləndirilməsi və hakim təyin edildikdən sonra ilkin təlimin həyata keçirilməsi ilə bağlı müddəaların qanunvericiliyə əlavə edilməsi nəzərdə tutulur. Artıq hakimlərin seçim prosesi əvvəlki 4 mərhələdən fərqli olaraq 3 mərhələni ehtiva edəcək, yəni test imtahanı, yazılı imtahan və müsahibənin keçirilməsi. Eyni zamanda, namizədlər təyin olunduqdan sonra dərhal peşə hazırlığı məqsədi ilə Ədliyyə Nazirliyinin Akademiyasında Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən

edilmiş qaydada təlimə cəlb ediləcəklər.

İkinci istiqamət hakimlərin qiymətləndirilməsi proseslərinin, prosedurlarının təkmilləşdirilməsidir. Təqdim edilən dəyişikliklərə əsasən Hakimlərin qiymətləndirilməsi komitəsinin yaradılması ilə onların obyektiv qiymətləndirilməsinin təmin olunması və peşə ehtiyaclarının müəyyən edilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə Məhkəmə-Hüquq Şurası tərəfindən 9 üzvdən ibarət müvafiq komitə formalaşdırılacaqdır.

Təqdimatın əvvəlində qeyd etdiyim kimi, texniki dəyişikliklər "Məhkəmələr və hakimlər haqqında" Qanunun 86-cı və 93-4-cü maddələrinə edilir. Hakim vəzifəsinə təyin edilmənin xüsusi qaydasını tənzimləyən sonuncu maddə blanket istinadın əvəzinə tamamilə düzgün olaraq "ədliyyə orqanlarında inzibati vəzifəyə və ya prokurorluq işçisi kimi prokurorluğa qulluğa qəbul edilmiş şəxslər" terminindən istifadə edilir.

Hörmətli deputatlar, milli hüquq sistemində həyata keçirilən islahatların əhəmiyyətli hissəsi Məhkəmə-Hüquq Şurası haqqında qanunvericiliyin təkmilləşdirilməsini əhatə edir və hakimiyyətlərin bölünməsi prinsipinin ardıcıl formada həyata keçirilməsini təmin edir. Layihəyə əsasən yeni qurumun – Hakimlərin qiymətləndirilməsi komitəsinin yaradılmasını nəzərə alaraq Məhkəmə-Hüquq Şurasının səlahiyyətləri genişləndirilir və əlavə olaraq Apellyasiya Şurasının Əsasnaməsinin Hakimlərin qiymətləndirilməsi komitəsi haqqında Əsasnamənin təsdiqi, komitənin formalaşdırılması ilə bağlı yeni normalar qanuna daxil edilir. Nəzərinizə çatdırmaq istəyirəm ki, adıçəkilən komitə Azərbaycan Respublikası Ali Məhkəməsinin 3 hakimi, apellyasiya instansiyası məhkəmələrinin 3 hakimi, birinci instansiya məhkəmələrinin 3 hakimi tərkibində

Məhkəmə-Hüquq Şurası tərəfindən formalaşdırılır və 5 il müddətində səlahiyyətlidir.

Digər dəyişikliklər hakimlərin seçki komitəsinin fəaliyyətini tənzimləyən "Məhkəmə-Hüquq Şurası haqqında" Qanunun 14-cü maddəsinə edilir və burada komitə üzvlərinin səlahiyyət müddətinin müəyyən edilməsi, fəaliyyətinin maliyyələşdirilməsi, seçki komitəsi üzvünün, eyni zamanda, Məhkəmə-Hüquq Şurasının və hakimlərin qiymətləndirilməsi komitəsinin üzvü olmasına yolverilməzliyi və sair məsələlər öz əksini tapır.

Hörmətli deputatlar, qanun layihəsinin konseptual baxımdan birinci oxunuşun tələblərinə cavab verməsini nəzərə alaraq, qəbul olunması üçün səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim. Yazılanlar var. Azay Quliyev. Buyurun.

**Azay Quliyev**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Müzakirə etdiyimiz məsələ çox vacib bir qanun layihəsidir. Məhkəmə-hüquq islahatlarının daha da dərinləşməsi, məhkəmə institutlarının mövcud tələblə və uyğun şəkildə formalaşması və xüsusilə hakimlərin seçim prosesinin daha da etibarlı formada həyata keçirilməsi baxımından hər iki istiqamətdə verilən təklif maraqlıdır və qəbul olunmalıdır.

Burada hörmətli həmkarımız Nizami müəllim ətraflı qeyd etdi. Mən bunun üzərində çox detallı şəkildə dayanmaq istəmirəm. Məsələ burasındadır ki, bu gün məhkəmələrin işinin səmərəli təşkilində, ümumiyyətlə, bacarıqlı, bilikli, peşəkar hakimlərin seçilməsində yeni təklif olunan mexanizm daha çox faydalı ola bilər. Yəni artıq hakimlər həm yazılı, həm test, həm də şifahi – müsabiqə əsasında imtahandan sonra seçiləcəklər. Əgər əvvəl yalnız yazılı və

şifahi imtahan idisə, indi həm test, həm yazılı, həm də müsahibə əsasında seçiləcəklər. Bu nə verə bilər? İlk növbədə hakimlərin seçimində daha hazırlıqlı insanların seçilməsinin faydası ola bilər. Digər bir tərəfdən, hesab edirəm, subyektiv amillərin müəyyən mənada minimuma endirilməsi üçün bu mexanizm öz sözünü deyə bilər. Bu baxımdan maraqlıdır.

İkinci, daha vacib məqamlardan biri odur ki, məhz hakimlərin fəaliyyətinin qiymətləndirilməsi necə olacaq? İndiyə qədər bu, Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilirdi. Qanunvericiliyin 112-ci maddəsi, bütövlükdə, intizam tədbirlərinin hansı formada olmasını tənzimləyirdi. Amma indi həmin maddə ləğv olunur. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi üçün xüsusi komitə yaradılır və bu komitənin də üzvləri, əlbəttə ki, sırf məhkəmə üzvlərindən seçiləcək. Birinci apellyasiya və ali məhkəmə hakimlərindən seçiləcəkdir.

Burada digər maraqlı məqam ondan ibarətdir ki, hakimlərin fəaliyyətinin qiymətləndirilməsində, səsvermənin həyata keçirilməsində Məhkəmə-Hüquq Şurasının məhz məhkəmədən, yəni hakimlərdən olan üzvləri iştirak edəcək. Deməli, bu iki təklifin ikisində də məqsəd odur ki, məhkəmənin müstəqilliyinin təmin olunması üçün əlavə hüquqi baza formalaşdırılsın və bu hüquqi baza bu gün, biz çox inanırıq, gələcəkdə qərarların qəbulunda, məhkəmələrin verdiyi qərarlarda, ədalət mühakiməsinin təntənəsində və bu qərarların obyektiv, ədalətli olmasında öz sözünü deyəcəkdir. Bu, eyni zamanda, məhkəmələrə olan ictimai inamı və etimadı daha da gücləndirəcəkdir.

Burada qiymətləndirmə ilə bağlı bir məqamı da qeyd etmək istəyirəm. Artıq məhkəmə sistemində yaradılmış avtomatik monitorinq sistemi məhkəmələrin və hakimlərin

fəaliyyətini monitorinq edir və eyni zamanda, əldə olunan məlumatları bazaya daxil edir. Bu da qiymətləndirmə zamanı istifadə olunacaq əsas məlumatlar sırasına daxil olacaq. Ümid edirik ki, həmin intizam tədbirləri birinci növbədə proporsional və adekvat olacaq, eyni zamanda, hakimlərin fəaliyyətinə uyğun şəkildə tətbiq olunacaq.

Hörmətli xanım sədr, ədalət mühakiməsindən söz düşmüşkən, bir məsələni də qeyd etmək istəyirəm. Bu da vəkillərin fəaliyyəti ilə bağlıdır. Bilirsiniz ki, bu gün dövlət tərəfindən hüquqi yardımın hər saatına görə vəkillərə 6 manat vəsait ödənilir. Gəlin, etiraf edək ki, 6 manatın müqabilində keyfiyyətli hüquqi yardım vermək mümkün deyil. İndi mən dünya praktikasını demək istəmirəm. Orada rəqəmlər bəlkə də 50-100 dəfə fərqlidir. Amma Azərbaycanda həyat şəraiti inkişaf edir. Yeri gəlmişkən, bu, 2018-ci ildə qəbul olunan məbləğdir. Amma 2018-ci ildən bu yana Azərbaycanda minimum yaşayış həddi, minimum əmək haqqı kifayət qədər artırılıbdır. Ona görə də yaxşı olardı ki, bu məsələyə baxılsın. Çünki aparılan təhlillər göstərir ki, hüquqi yardıma görə dövlət hesabına verilən vəsait az olduğundan məhz bu sahəyə vəkillərin marağı azalır. Nəticədə bu, vəkillik institutuna təkcə Azərbaycanın paytaxtında deyil, regionlarda da onun inkişafı baxımından mənfi təsir edir. Mən düşünürəm ki, bu məsələyə də aidiyyəti qurumlar baxmalıdırlar. Vəkillərin dövlət hesabına etdiyi hüquqi yardımın müqabilində onlara layiqli şəkildə əmək haqqı ödənilməlidir, yaxud da bu rəqəm artırılmalıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bəxtiyar Əliyev. Buyurun.

**Bəxtiyar Əliyev**. Hörmətli xanım sədr, hörmətli deputatlar. Hesab edirəm ki, hər iki qanun layihəsinə təklif edilən dəyişikliklər ədalət mühakiməsi sahəsində uğurla

həyata keçirilən islahatların hüquqi bazasını daha da möhkəmləndirməyə xidmət edir. Bu dəyişikliklərin əhəmiyyəti haqqında burada hörmətli Nizami müəllim danışdı. Mən xüsusi vurğulamaq istəyirəm ki, bu gün istər Ali Məhkəmənin, istərsə də yeni tərkibdə Məhkəmə-Hüquq Şurasının fəaliyyəti olduqca təqdirəlayiqdir və bu dəyişikliklər həmin fəaliyyətin və aparılan təhlillərin nəticəsi kimi qiymətləndirilməlidir.

Çox vacib olan məsələlərdən biri Hakimlərin Seçki Komitəsi ilə yanaşı, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi komitəsinin yaradılmasıdır. Çünki seçim bir məsələdir. Seçimdən sonra təyin olunan hakimlərin müəyyən müddət ərzində fəaliyyətini qiymətləndirərək sonrakı fəaliyyəti haqqında rəyin verilməsi və Məhkəmə-Hüquq Şurasının bunun əsasında qərar qəbul etməsi bir sıra hallarda suallar doğururdu. İndi isə bu komitənin yaradılması və onun həm birinci instansiya, həm apellyasiya məhkəməsi instansiyası, həm də ali məhkəmənin hakimlərindən ibarət olması bir daha göstərir ki, bütün o instansiyalarda olan təcrübələr və problemlər nəzərə alınmaqla hakimlərin fəaliyyətinin qiymətləndirilməsi həyata keçiriləcəkdir.

Burada çox vacib bir məsələ var. Bu barədə dəfələrcə danışılıbdır və bu, həllini gözləyən aktual bir məsələdir. Bu gün məhkəmələrdə olan işlərin sayı ilə hakimlərin sayı arasında çox qeyri-mütənasiblik var. Hakimlər həddən ziyada yükləniblər. Mülki işlərlə bağlı müraciətlər və onlara yenidən baxılması prosedurları çox mürəkkəbdir. Bu baxımdan hakimlərin keyfiyyətli fəaliyyət göstərməsi və bu işlərə baxarkən ədalətsiz demirəm, amma prosessual qaydalara ardıcıl əməl etmək imkanları bir qədər məhduddur.

Eyni zamanda, nəzərə alaq ki, hakim köməkçilərinin də sayı həddən ziyada azdır. Baxmayaraq ki, bununla bağlı müəyyən tövsiyələr olubdur. Hakimlərin sayı bundan sonra da 30-40 faiz artırılacaq. Amma bu prosesləri daha da sürətləndirsək, mənə elə gəlir ki, bu, gələcəkdə hakimlərin fəaliyyətinin obyektiv, ədalətli qiymətləndirilməsinə və keyfiyyətli ədalət məhkəməsinin həyata keçirilməsinə böyük bir töhfə vermiş olardı.

Bu qanun layihəsinin qəbul edilməsi, hesab edirəm, bu istiqamətdə atılan ən uğurlu addımlardan biridir. Deputat həmkarlarımı qanun layihəsinə səs verməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Arzuxan Əli-zadə. Buyurun.

**Arzuxan Əli-zadə.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Təqdim olunan qanun layihəsini təqdir edirəm. Bu, məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi istiqamətində atılan müsbət addımdır. Bu tendensiya davam etməlidir.

Hörmətli Nizami müəllim qeyd etdi. Hazırda vakant hakim vəzifələrinə seçilmə 4 mərhələdən keçir. İndiki qanunla təklif olunur ki, bu, 3 mərhələyə endirilsin. Amma xatırlayaq ki, bir müddət bundan əvvəl bu mərhələlərin sayı 7 idi. Hakim vəzifəsinə təyin olunana qədər həmin namizədlər bir çox hallarda il yarım, 2 il müddətində o mərhələləri keçmək məcburiyyətində qalırdılar. Halbuki ölkədə, – hörmətli Bəxtiyar müəllim də qeyd etdi, – hakimlərin sayı məhkəmələrə müraciət edən işlərə adekvat deyil. Hakimlər kifayət qədər yüklənibiblər. İcraatlarında çoxlu sayda işlər olan hakimlərimiz var ki, bu da işlərin, əslində, lazımi səviyyədə araşdırılmasına mənfi təsir göstərir. Bu amil, təbii, qanunvericiləri sövq etməlidir ki,

hakimlərin hakim vəzifəsinə təyin olunana qədər keçdikləri proses təkmilləşdirilsin, mərhələlər azaldılsın və bu istiqamətdə addımlar atılır.

Onu da qeyd etmək istəyirəm ki, vakant hakim vəzifəsinə namizədliyi irəli sürülən, bu mərhələlərdən keçən şəxslərin təyinatı məsələsində əvvəlkilərə nisbətən kifayət qədər şəffaflıq var. Həmçinin bu mərhələlərdə yüksək nəticə göstərənlərə təyinat məsələsində də ilkin seçim imkanları tanınır və bu da olduqca müsbət tendensiyadır.

Bir məsələyə xüsusi diqqət yönəltmək istəyirəm ki, bir çox hallarda yaşayış yerindən kənar, xüsusilə də regionlara təyin olunan hakimlər bir çox problemlərlə üzləşirlər. Bir çox rayonlarda hakimlər üçün ayrıca mənzil fondu olmadığından yeni təyin olunan hakimlər bir çox hallarda ailə üzvlərini özləri ilə aparmaq imkanlarına malik olmurlar. Nəticə etibarı ilə öz məvacibləri hesabına mənzil kirayələməli olurlar. Bu, bir problemdir.

Digər problem ondan ibarətdir ki, hakimlərin sayı artdıqca, təbii ki, hakim köməkçilərinin, məhkəmə iclas katiblərinin də sayı artırılmalıdır. Onu da demək lazımdır ki, bir çox hakim də bu məsələ ilə bağlı kifayət qədər ciddi narahatlığını bildirir. Çünki həmin vəzifələrdə işləyən həm məhkəmə iclas katiblərinin, eləcə də hakim köməkçilərinin məvacibləri bir o qədər çox olmadığı səbəbi ilə ixtisaslı işçilər, savadlı hüquqşünaslar digər sahələrə üz tuturlar. Əgər bu gün məhkəmələrdən statistik məlumatlara baxsaq, bu sahədə işləyən məhkəmə qulluqçularının bir axını var. Bu da, təbii ki, bir çox hallarda maddiyyatla bağlı olan məsələdir. Məhkəmələrdə kifayət qədər iş çoxdur. Həm iş çoxdur, həm də məvacib adekvat deyil deyə, axın olur. Hesab edirəm ki, gələcəkdə bu nüanslara da diqqət yetirilməlidir.

Bütövlükdə, məhkəmə-hüquq sistemində həyata keçirilən islahatlar, təbii ki, "Ədalət mülkün təməlidir" prinsipinə uyğunlaşaraq bizim məhkəmələrin daha obyektiv və səmərəli fəaliyyətinə imkan verəcək, stimullaşdırılacaq. Qanun layihəsini təqdirəlayiq hesab edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən layihəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.29 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz sonuncu məsələyə çatdıq. 15-ci məsələ "Torpaq icarəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Tahir müəllim, yenə də Sizdən xahiş edirəm, məlumat verin. Buyurun.

**Tahir Rzayev.** Çox sağ olun, hörmətli sədr. Hörmətli deputat həmkarlar, işğaldan azad olunmuş ərazilərdə aparılan tikinti, təmir, quruculuq işləri, müasir infrastrukturun qurulması, mədəni tarixi abidələrin bərpası, normal həyat şəraitinin yaradılması və bu məqsədlə dövlət büdcəsindən 19 milyard manat vəsaitin ayrılması qürurvericidir. Həmin ərazilər böyük kənd təsərrüfatı potensialına malikdir və

torpaqlardan səmərəli istifadə edilməsi istiqamətində də əsaslı tədbirlər görülməkdədir.

“Torpaq icarəsi haqqında” Qanuna edilmiş dəyişikliklər işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqların sahibkarlıq subyektlərinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən müəyyənləşdirilmiş qaydada investisiya müsabiqələri vasitəsi ilə, müvafiq ərazi vahidləri daxilində məskunlaşan kənd və qəsəbə sakinləri üçün isə birillik və çoxillik əkinlərin aparılması üçün güzəştli şərtlərlə icarəyə verilməsi nəzərdə tutulur. Bu, vacib dəyişiklikdir və münasibət bildirməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hamı danışıb. Mən 3 nəfərə söz verməsəm, necə olacaq? 4 nəfərə vaxtımız çatar. Vacib məsələdir, özünüz bilirsiniz. Mən düşünürəm ki, bu haqda çıxışlara qulaq asmaq lazımdır. Fazil Mustafa. Fazil müəllim, buyurun.

**Fazil Mustafa.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. İşğaldan azad olunmuş ərazilərimizdə bu gün iqtisadi inkişafı təmin etmək üçün atılan addımları təqdir edirik. Mən bu qanun layihəsini dəstəkləyəcəyəm. Sadəcə, birinci oxunuşun tələblərinə uyğun olaraq, bəzi hallarda da elə ikinci oxunuşa uyğun olaraq, burada ikinci oxunuşa qədər bir ziddiyyətin aradan qaldırılmasını düşünürəm. Tahir müəllim məsələ haqqında fikrini çox ətraflı bildirdi.

Bizdə “Torpaqların icarəsi haqqında” Qanun var. Həmin qanunda torpaqların iki yolla sahibkarlara, icarədarlara verilməsi nəzərdə tutulur: torpaq müsabiqəsi formasında və hərrac formasında. Digər tərəfdən, bizdə qəbul olunan “Dövlət əmlakının özəlləşdirilməsi haqqında”

Qanun var. Həmin qanuna uyğun olaraq, investisiya müsabiqələrinin keçirilməsi haqqında qaydalar qəbul olunubdur. İnvestisiya müsabiqələri ancaq özəlləşdirmə üçün nəzərdə tutulan əmlaka şamil edilir. İndi burada yeni bir norma tətbiq olunur. Bildiyim qədər, "Torpaq icarəsi haqqında" Qanunda, ümumiyyətlə, investisiya müsabiqəsinin keçirilməsi nəzərdə tutulmur. Biz həmin qanunda bu məsələni baxıb dəyişməliyik. Çünki investisiya müsabiqəsinin mahiyyəti torpaq müsabiqəsindən fərqlidir. Bir var ki, əmlakı özəlləşdirirsən, alğı-satqı prosesi gedir və kim yaxşı təklif verirsə, həmin təklifə uyğun həmin torpaq verilir. Amma investisiya müsabiqəsi torpağın satılması demək deyil. Ona görə də, fikrimcə, bu məsələdə bu ziddiyyət mütləq aradan qaldırılmalıdır və investisiya müsabiqəsi məsələsinə aydınlıq gətirilməlidir.

İkinci məsələ. Burada işğaldan azad olunmuş ərazilərdə məskunlaşmış əhaliyə güzəştli şərtlərlə torpağın, o hüdudlarda inzibati əraziyə daxil olan torpaqların verilməsi nəzərdə tutulur. Bəs məskunlaşmayan, yaxud gec məskunlaşan insanlar necə olsun? Yəni yaxşı torpaqları bu gün məskunlaşan insanlar götürəcək. Tutaq ki, 1-3 aydan sonra o ərazidə evlər tikildikcə, infrastruktur qurulduqca köçürülən insanların içində daha fəal, daha bacarıqlı, o torpaqları daha faydalı istifadə edən, məhsuldarlıq əldə edən insanlar ola bilər. Ona görə də burada yalnız məskunlaşan insanlarla bunu məhdudlaşdırmamalıyıq. Məskunlaşan və irəlidə məskunlaşacaq insanları da bura aid etməliyik ki, indidən o torpaq sahəsini götürmək imkanı əldə etsinlər. Sabah bir kənd salınıb, üç kənd birləşdirildikdə, şəraitin olmamasından və ya hansısa şərtlər hələ tam yekunlaşmadığından məskunlaşa bilməyənlər köçəndən sonra baxacaqlar ki, ən məhsuldar torpaq

sahələri artıq əldən çıxıb. Ona görə biz aydınlıq gətirməliyik ki, bu məsələ sonradan ora köçən insanlar arasında narazılıq predmetinə çevrilməsin. Hamıya bərabər imkanlar yaratmaq mümkün olsun.

Qanun layihəsini bütövlükdə ideya olaraq dəstəkləyirəm və təşəkkür edirəm. Mən də deputat həmkarlarımın bu məsələyə diqqət yetirməsini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Fazil müəllim. Əli müəllimin Sizin dediyinizlə bağlı fikri var. Ancaq onu qanunun ikinci oxunuşunda deyərik. Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Məlumdur ki, cari qanun layihəsi barəsində danışdığımız ərazilər 4 il öncəyə qədər bizim üçün faktiki olaraq əlçatmaz idi. Bu gün isə 2020-ci ilin noyabrına qədər işğal, təcavüz altında olan, talan edilən, vandalcasına istismar olunan, minalanmış həmin o torpaqların iqtisadi dövriyyəyə cəlb edilməsi istiqamətində hüquqi bazasını müəyyən edirik. Təbii ki, bu, qürurvericidir və birmənalı şəkildə Heydər Əliyev siyasi kursunun, möhtərəm Prezidentin uğurlu idarəçiliyinin nəticəsidir.

Qanun layihəsinin konsepsiyasının özlüyündə üç vacib siyasi istiqamət ehtiva olunur. Birincisi, xatırlayırsınızsa, cənab İlham Əliyev Zəfərimizi elan edərkən Qarabağ və Şərqi Zəngəzuru dirçəldəcəyimizi demişdi. Bu, artıq böyük quruculuq və bərpa prosesi, habelə Böyük Qayıdışın uğurlu realizəsi fonunda Livan ölçüdə bir ərazinin dirçələn simasına şahidlik etmək deməkdir.

Cari qanun layihəsi ilə artıq işğaldan azad edilmiş ərazilərimizdə kənd təsərrüfatı torpaqlarımızın səmərəli istifadəsinin normativ əsasının formalaşdırılması bir daha möhtərəm Prezidentin sözünün imzası olduğunu göstərir.

İkincisi, 3 il əvvəl sosial-iqtisadi inkişafa dair milli prioritetlər müəyyənləşərkən işğaldan azad olunmuş ərazilərə qayıdışın uğurla reallaşdırılması üçün həmin ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası mühüm məqsəd kimi müəyyən edilmişdi. Bu gün biz işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı torpaqlarının səmərəli istifadəsi istiqamətində qəbul ediləcək normativ hüquqi aktı, əslində, milli prioritetlərimizin səmərəli və uğurlu realizəsi kimi müzakirə edirik və qəbul edəcəyik.

Üçüncü və ən vacib konseptual istiqamət. Məlumdur ki, son dövrlər Azərbaycana ədalətsiz hücumlara şahidlik edirik. 30 il münaqişənin nizamlanması istiqamətində vasitəçilik missiyası altında regionda müharibənin dayanıqlığı üçün səy göstərənlər bu gün sülh müqaviləsinin imzalanmaması üçün səfərbər olublar. Bizi öz ərazilərimizi işğal etməkdə günahlandırırlar. Soyqırımlara, etnik təmizləmələrə məruz qalanların azərbaycanlılar olmasına baxmayaraq, zorakılıqla Ermənistan ərazisindən qovulmuş 350 mindən artıq Qərbi azərbaycanlının vətən həsrətində qaldığı bir dövrdə bizi etnik təmizləmədə günahlandırırlar. Xəritədə Azərbaycanın yerini bilməyənlər Azərbaycan əleyhinə qətnamələrə səs verirlər. Azərbaycan daxilindəki antimilli ünsürlərin də dəstək verərək əlavə “arqumentlərlə” zənginləşdirdikləri Azərbaycan əleyhinə hesabatlar riyakar dairələrdə mötəbər sənəd kimi qəbul edilir.

Bütün bunların fonunda qətiyyətlə irəliləmək, güclənmək, Qarabağ və Şərqi Zəngəzura uğurlu Böyük Qayıdış, o cümlədən hazırda müzakirəmizdə olan və digər analoji qanunların qəbulu bizim verə biləcəyimiz ən yaxşı cavabdır. Hər kəs görməlidir ki, möhtərəm Prezidentin cari il ərzində iki dəfə elə bu ali tribunadan da bəyan etdiyi kimi, heç kim Azərbaycanda siyasi iradəyə təsir

edə, bizimlə diktə dilində danışa bilməz.

Təbii ki, qeyd olunanları əsas gətirərək layihənin dəstəklənməsini vacib hesab edir və həmkarlarımızı da səs verməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Bəhruz müəllim. Bəxtiyar Əliyev. Buyurun.

**Bəxtiyar Əliyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Müzakirəyə təqdim edilən "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda edilən dəyişikliklər olduqca əhəmiyyətlidir. Belə ki, birincisi, Ermənistanın işğalından azad edilmiş Qarabağ və Şərqi Zəngəzur – erməni vandallarının dağıtdığı şəhərlər, kəndlər və qəsəbələr yenidən qurulmaqla yanaşı, həm də on min hektarlarla torpaq sahəsi minalardan, partlamamış döyüş sursatlarından təmizlənərək və yararlı hala salınaraq insanların istifadəsinə verilir. Həmin torpaqlarda sənayenin və kənd təsərrüfatının inkişafı, təbii ki, böyük məbləğdə maliyyə vəsaiti tələb edir. Bu baxımdan işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqların sahibkarlıq subyektlərinə investisiya müsabiqələri vasitəsi ilə verilməsi məntiqlidir. Ona görə məntiqlidir ki, keçmiş təcrübədə əksər yararlı torpaqlar, hətta pay torpaqları maliyyə vəsaitinin azlığı və ya qeyrisağlam rəqabət nəticəsində bəzi imkanlı sahibkarlar tərəfindən yasaqlı alınmış, ya da uzun müddət icarəyə götürülmüşdür. Lakin hökumət tərəfindən yaradılmış komissiyaların araşdırmaları nəticəsində müəyyən edilmişdir ki, həmin kənd təsərrüfatı torpaqları bəzi hallarda istifadəsiz saxlanmış, ya da yaxşı halda təyinatı üzrə istifadə edilməmişdir.

Vətəndaşların müraciətləri əsasında bir sıra hallarda qanun pozuntuları da müəyyən edilmişdir. Bu nöqsanlar

və onların səbəbləri müvafiq qurumlar tərəfindən təhlil edilməli və işğaldan azad edilmiş ərazilərdə nəzərə alınmalıdır.

İkincisi. İşğaldan azad edilmiş ərazilərdə əhalinin məskunlaşdığı kənd və qəsəbə ərazi vahidləri daxilində yaşayış məntəqələrinə yaxın kənd təsərrüfatı təyinatlı torpaqların həmin kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi təqdirəlayiqdir və ədalətlidir. Çünki kənd yerlərində daimi iş yeri və insanların əsas gəlir mənbəyi zəhmətlə becərdikləri torpaqdır.

Eyni zamanda, "Torpaq icarəsi haqqında" Qanuna edilən bu dəyişikliklər insanlarda çaşqınlıq yaratmamalıdır. Onlar dəqiq bilməlidirlər ki, bu dəyişikliklər onları azad edilmiş ərazilərdə həyata keçiriləcək torpaq islahatı nəticəsində əldə edəcəkləri pay torpağı hüququndan qətiyyən məhrum etmir. Çünki "Torpaq islahatı haqqında" Qanunda birmənalı şəkildə göstərilir ki, Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində zəbt edilmiş torpaqların azad olunmasından sonra torpaq islahatlarının həyata keçirilməsi hökmən olacaqdır.

Hörmətli deputatlar, olduqca vacib bir məsələni də diqqətinizə çatdırmaq istərdim. Ağdam rayonunun Quzanlı qəsəbəsində seçicilərlə görüş zamanı onlar bir neçə mühüm məsələnin həllində köməklik göstərilməsini xahiş etmişdilər. Bunlardan biri torpaq islahatı ilə bağlıdır. Belə ki, Ağdam rayonunun Dərbənd, Təzəkənd, Əhmədağa və Sancalı kəndləri əvvəllər döyüş bölgəsində, təmas xəttində yerləşdiyi üçün orada torpaq islahatları aparılmamışdır. Bu kəndlər keçmiş təmas xəttindən 300 metrdən 1000 metrə qədər məsafədə yerləşir. Bu gün də həmin kəndlərin, evlərin hasarlarının divarlarında Ermənistanın işğalçı, terrorçu hərbi birləşmələrinin atdığı mərmilərin qəlpə-

lərinin, güllələrinin izləri qalmaqdadır. Bir neçə kənd sakini şəhid olmuş, bir neçəsi yaralanmış, təsərrüfatlarına isə xeyli ziyan dəymişdir. Amma qəhrəman insanlar 30 il ərzində bir gün də olsun, öz doğma kəndlərini tərk etməmiş, sinələrini düşmənə sipər edərək əsgərlərimizə dayaq olmuş, öz evlərində yaşamış və ağır zəhmətləri hesabına dolanmışlar.

Vətəndaşların rayon icra hakimiyyətinin müvafiq icra hakimiyyəti orqanlarına müraciət etməsinə baxmayaraq, həmin kəndlərdə torpaq islahatı hələ də həyata keçirilməmişdir. Vətəndaşlara verilən cavablar isə, ümumiyyətlə, təəccüb doğurur. Onlar hansısa normativ hüquqi aktların olmaması haqqında vətəndaşlara məlumat verirlər. Biz isə məlumat üçün bildiririk ki, 1996-cı il 155 saylı "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanunu, həmçinin 1995-ci il 18 fevral 970 saylı "Sovxoz və kolxozların islahatı haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvədədir. Dövlət qurumlarından qüvvədə olan bu qanunların icrasına və vətəndaşların probleminin həllinə çalışmasını xahiş edərdik.

Fürsətdən istifadə edərək Nazirlər Kabinetindən xahiş edirəm ki, bu məsələnin araşdırılması və həlli üçün müvafiq tədbirlərin görülməsinə köməklik göstərsin. O insanlar buna layiqdirlər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.42 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bununla da bizim iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Növbəti iclasımız ayın 22-də olacaq. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***18 oktyabr 2024-cü il***

**Bəhruz Məhərrəmov.** "Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının 2-ci maddəsinə əsasən müasir respublikamız 1918–1920-ci illərdə mövcud olmuş Azərbaycan Respublikasının varisidir. İllərcə 18 oktyabr tarixinin Müstəqillik Günü kimi qeyd edilməsi, əslində, bu varisliyin görməzdən gəlinməsi idi.

Müstəqillik yolundan özlərinə pay biçmək, SSRİ-ni "dağıdan" qəhrəmanlar kimi özlərini tarixə pərçim etmək üçün bəzi adamlar bu təqvim ətrafında mif yaratmışdılar. Baxmayaraq ki, biz müstəqilliyimizi elan edəndə, demək olar, artıq bütün ittifaq dövlətləri müstəqil idi. Hətta Rusiya özü belə dövlət suverenliyi haqqında Konstitusiya Aktını artıq qəbul etmişdi. Ona görə də Ulu Öndər Heydər Əliyev 2000-ci il 29 dekabr tarixli nitqində də bildirdiyi kimi: "Azərbaycanın müstəqilliyi bərpa etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvə təşkilatların, ayrı-ayrı şəxslərin müstəsna xidmətləri l etmək olmaz. Bu, tarixi obyektiv proseslərin qanunauyğun nəticəsi, taleyin Azərbaycan xalqına və bütün keçmiş SSRİ respublikalarının xalqlarına əvəzsiz töhfəsi idi".

Cənab İlham Əliyevin də 2021-ci il oktyabrın 17-də ifadə etdiyi kimi, buna görə minnətdar olmaq tamamilə yersizdir. Əgər müstəqilliyin bərpası istiqamətində real mübarizə tarixindən danışmaq istəyiriksə, bu, hələ SSRİ-nin mövcudluğu şəraitində 1990-cı il noyabrın 17-də Ulu Öndərin təşəbbüsü ilə o vaxt Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet sosialist" sözləri-

nin çıxarılması, Heydər Əliyevin təşəbbüsü ilə Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvanda rəsmi bayraq kimi qəbul edilməsidir. Bu mənada cənab İlham Əliyevin təşəbbüsü ilə 18 oktyabr tarixinin Müstəqilliyin Bərpası Günü kimi təqvimə daxil edilməsi möhtərəm Prezidentin 3 il əvvəl Füzuli rayon ictimaiyyəti ilə görüşü zamanı da dediyi kimi, "Tarixi həqiqətə və tarixi ədalətə tam uyğundur".

**Əziz Ələkbərov.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsinin birinci oxunuşundan sonra bəzi xətaların törədilməsinə görə cərimələrin dəfələrcə qaldırılması ilə bağlı son günlər cəmiyyətdə ciddi müzakirələr getdiyinin hamımız şahidi olduq. Mən buna etiraz edənlərin haqlı olduğunu demirəm. Razıyam ki, məişət tullantılarının nəzərdə tutulmayan yerlərə atılmasına, qatarların, avtomobillərin pəncərələrindən əşyaların tullanmasına və qanun layihəsində nəzərdə tutulan digər xətalara görə də cərimələr tətbiq olunmalıdır və bu cərimələrin məbləği də müzakirə olunmaya bilər. Adama deyərlər ki, azlığından, çoxluğundan asılı olmayaraq xətanı törətmə, cərimə də olunma.

Məni düşündürən başqa məsələdir. Bu cərimələr az da olsa, əvvəl də var idi. Doğrudur, 300 manatdan 4 min manata qədər deyildi, cəmi 50 manat idi. Gəlin, görək, qanunun indiyə qədər qüvvədə olduğu müddət ərzində nə qədər insan bu xətalara görə 50 manat cərimə olunub. Hamı mənimlə razılaşar ki, bu qanuna əməl etməyənlər arasında o 50 manata ehtiyacı olanlar da az deyil. Niyə? Ona görə ki, qanun işləmirdi. Biz bu cərimələri niyə qaldırırıq? Çünki insanlar bu qanuna əməl etmədiyi üçün cərimələri artırmaq zərurəti yaranıb. Bəlkə də qanun

işləsəydi, onu bu qədər artırmaq zərurəti yaranmayacaqdı, yaxud cərimələrin bir neçə dəfə qaldırılması insanları bu qədər narahat etməyəcəkdi. Belə çıxır ki, cərimələrin qaldırılmasına səbəb xətanı təkrar-təkrar törədənlərdən daha çox onun törədilməsinə göz yummaqla şərait yaradan vəzifəli şəxslərdir. Onda bəlkə biz bu qanun layihəsinə onun işləməsini təmin edə biləcək daha ciddi maddə əlavə edək?

Qanun layihəsinin 266.4-1-ci maddəsində bir mövqe üzrə – tullantıların cavabdeh şəxslər tərəfindən xüsusi nəzərdə tutulmuş yerlərə vaxtında daşınmamasına görə cəza nəzərdə tutulub. Bəs qalan mövqelər? Başqa sözlə, yaxşı olardı ki, qanun layihəsində xəta törədilməsinə görə cərimələrin tətbiqi səviyyəsi qədər də bu xətanın törədilməməsinə nəzarət mexanizmi və bu nəzarət mexanizminə məsul bütün vəzifəli şəxslərin də cəzası öz əksini tapaydı. Onda qısa vaxtda istədiyimizə nail olardıq.

**Fatma Yıldırım.** 1991-ci ildə dövlət müstəqilliyimiz bərpa olunduqdan sonra xalqımız çətin sınaqlardan keçdi. Dövlət müstəqilliyinin bərpası yaranmış tarixi şəraitdən əlavə, həm də Azərbaycan xalqının müstəqillik arzusu və azadlıq mübarizəsi nəticəsində mümkün oldu.

Tarix dəfələrcə sübut edib ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan daha çətindir. Müstəqilliyi bərpa etdikdən qısa müddət sonra xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi. Bir tərəfdən, işğalçı Ermənistanın ölkəmizə qarşı başladığı ərazi iddiaları və müharibə şəraiti, digər tərəfdən, daxildə gedən siyasi çəkişmələr və vətəndaş qarşıdurması müstəqilliyin beşiyindəcə boğulması təhlükəsini yaradırdı. Məhz belə bir zamanda Azərbaycan xalqının tələbi ilə 1993-cü ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayı-

dışından sonra müstəqilliyi qorumaq və inkişaf etdirmək mümkün oldu. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət və möhtərəm Prezidentimiz cənab İlham Əliyevin güclü iradəsi sayəsində Azərbaycan bu sınaqlardan şərəflə çıxdı.

Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı möhtərəm cənab Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi uzaqgörən və qətiyyətli siyasət sayəsində Azərbaycan hüququn aliliyi, demokratiya və dünyəvilik prinsipləri üzərində qurulmuş müstəqil dövlət kimi öz inkişafının ən parlaq dövrünü yaşayır. Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən siyasət təkcə tarixə çevrilmiş nailiyyətlərimizin deyil, eləcə də gələcək uğurlarımızın həlledici əsasıdır. Xüsusilə 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının birliyini, onun müstəqillik və ərazi bütövlüyünün toxunulmaz olduğunu bir daha bütün dünyaya sübut etdi. Möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən uzaqgörən və qətiyyətli siyasət tarixi ədaləti bərpa etməklə 30 illik işğala son qoydu. Müstəqil Azərbaycan Respublikası suveren hüququndan istifadə edərək öz ərazi bütövlüyünü bərpa etməklə regionda yeni reallıq yaratmış oldu. İndi Azərbaycan xalqı üçrəngli dövlət bayrağımızın işğaldan azad olunmuş bütün ərazilərimizdə ucaldılaraq əzəmətlə dalğalanmasından qürur duyur. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası müstəqillik tariximizin ən mühüm hadisəsi, qızıl səhifəsidir. Bu gün xalqımız qazanılmış tarixi Zəfərə görə müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə və qəhrəman şəhidlərimizə minnətdarlığını bildirir, Azərbaycan Ordusunun keçdiyi şərəfli döyüş yolundan iftixar hissi keçirir. Biz müstəqil dövlətimizlə hər zaman qürur du-

yuruq.

**Kamran Bayramov.** Bir neçə gün öncə Niderland Parlamentinin Nümayəndələr Palatası artıq neçənci dəfədir ki, Azərbaycana qarşı növbəti qətnamələr qəbul edib, həmin ölkənin xarici işlər naziri isə qərəzli və reallıqdan kənar olan bu qətnamələri açıq şəkildə dəstəkləyib. Təhrif olunmuş və saxta məlumatlar əsasında yazılmış bu qətnamələr Niderlandın, həmişə olduğu kimi, Azərbaycanın regionumuzda yaratmış olduğu yeni reallıqlara qeyri-obyektiv və birtərəfli yanaşmasını nümayiş etdirir. Bu yanaşma beynəlxalq hüququn fundamental prinsiplərinə hörmətsizlik kimi dəyərləndirilməlidir. Niderlandın xarici işlər nazirinin isə bu kağız parçalarını rəğbətlə qarşılaması və müdafiə etməsi Niderland hökumətinin Cənubi Qafqaza münasibətdə ayrı-seçkiliklə yanaşdığını da ortaya qoyur.

İş o yerə çatıb ki, Niderland Azərbaycanı ittiham etmək məqsədi ilə ölkəmizin ərazisində separatçılıq, terrorçuluq, qəsdən adam öldürmə, işgəncə və insanlıq əleyhinə digər cinayətlərin törədilməsində təqsirləndirilən şəxsləri müdafiə edir, onları "hərbi əsir" kimi qələmə verir və azad etməyə çağırır. Bu, ikili standartların kulminasiya nöqtəsi deyilmi? Ona görə də hazırda erməni uydurmalarının əsirinə çevrilən Niderland parlamentinə öz ölkəsinin keçmişinə baxmağı tövsiyə edərdik. Çünki XX əsrin 70-ci illərinə qədər müstəmləkəçi ölkə olan Niderland Amerika, Asiya və Afrika qitələrində onlarca xalqı siyasi və iqtisadi əsarətdə saxlayıb. Dünyada müsəlmanların ən çox yaşadığı İndoneziya kimi nəhəng ölkənin əsrlər boyu azadlıq və müstəqillik arzusunu kökündə boğub, həmin dövrdə İndoneziyada bir çox qətllər törədib. Belə rüsvayçı siyasi tarixə malik olan bir dövlətin özünü beynəlxalq hüququn keşikçisi kimi təqdim etməsi heç inandırıcı

görünmür. Çünki Niderlandın yaxın tarixində beynəlxalq hüquqa zidd "qara ləkələr" kifayət qədər çoxdur. Hesab edirəm ki, belə ədalətsiz qətnamələr və gedişlər ölkələrimiz arasındakı əməkdaşlığa ciddi zərbə vuracaq və lazım gələrsə, ikitərəfli münasibətlərimizə tərəfimizdən yenidən baxılması ilə nəticələnəcək.

Eyni zamanda, unutmayaq ki, oxşar yanaşma və mövqe ABŞ, Fransa və bəzi Qərb ölkələrinin parlamentləri və təşkilatları tərəfindən də sərgilənir. Qərb hələ də qəbul etmək istəmir ki, Azərbaycan kənar təzyiqlərə boyun əyməyib və bundan sonra da əyməyəcək. Əksinə, Azərbaycan beynəlxalq hüququn müstəqil subyekti kimi dünya siyasətində və iqtisadiyyatında getdikcə daha güclü mövqeyə sahiblənir. Belə vəziyyətdə Azərbaycanla bərabərhüquqlu əsasda əməkdaşlıq əvəzinə, ölkəmiz əleyhinə qarayaxma kampaniyasının aparılması Niderlandın və sadalanmış dövlətlərin öz mövqeyinə, maraqlarına və nüfuzuna ancaq xələl gətirəcəkdir.

**Malik Həsənov.** Bələdiyyələrlə bağlı hər iki qanun layihəsi ölkəmizdə aparılan bələdiyyə islahatlarının tərkib hissəsidir və bələdiyyə qanunvericiliyinin təkmilləşdirilməsinə, bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılmasına hesablanmışdır.

Ölkəmizdə bələdiyyə təsisatı 1999-cu ildə yaradılmışdır və xeyli müddət keçməsinə baxmayaraq, hələ də kifayət qədər və deyərdim ki, olduqca dərin problemlər vardır. Bu problemlərin ən böyüyü və daim məhkəmələrdə mübahisələndirilən bələdiyyə mülkiyyətinin idarə olunması, xüsusən də bələdiyyə torpaqları ilə bağlıdır. Bələdiyyə islahatları nəticəsində ölkəmizdə bələdiyyələrin sayı kifayət qədər azalacaq, onların hüdudları yenidən müəyyənləşdiriləcəkdir. Birləşmə nəticəsində, bələdiyyə mül-

kiyyətlərində birləşəcək debitor və kreditor borclar da ötürüləcəkdir. Bu gün fəaliyyət göstərən bələdiyyələrin əksəriyyətinin kifayət qədər irihəcmli borcları vardır. Bu borclar içərisində əməyin ödənişinə görə DSMF-yə ödəniləcək borcların xüsusi çəkisi yüksəkdir. Ümidsiz olan bu borcların silinməsini təklif edərdim.

Təklif edəcəyim digər məsələ. Bələdiyyə torpaqları paylanılan, yeni perspektiv planlar hazırlanan zaman onlardan daha səmərəli istifadə edilsin və gələcək dövrlərdə demoqrafik vəziyyəti idarə etmək üçün fərdi ailələrə deyil, ümumi yaşayış binalarının tikintisinə diqqət yetirilsin.

* * *

"Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişikliklərin edilməsinə dair qanun layihələri ölkəmizin hərbi qüdrətinin artırılmasına, ehtiyata buraxılan şəxslərin döyüş səviyyəsinin qorunmasına, onların müasir hərbi texnika ilə davranmaq vərdişlərinin qorunub saxlanmasına xidmət etmək baxımından əhəmiyyətlidir. Bu, qanun ehtiyyata buraxılan şəxslərin hərbi toplanışlara çağırılmaq qaydalarını özündə əks etdirir. Hesab edirəm ki, burada müəyyən edilən müddətlər optimal seçilmişdir və imkan verir ki, ehtiyyata buraxılmış şəxslər həm səhra təlimlərində, həm də nəzəri təlimlərdə iştirak edə bilsinlər. Toxunmaq istədiyim əsas məsələ gələcək dövrdə bu təlimlərin keyfiyyət baxımından daha səmərəli təşkili məsələləridir. Doğrudur, ordumuz Cənubi Qafqaz bölgəsinin ən güclü ordusudur. Bununla belə, ordunun döyüş ruhunun və fəaliyyət qabiliyyətinin yüksək səviyyədə saxlanılması bütün dövrlər üçün başlıca hədəfimizdir. Bu

baxımdan gənclərin çağırışaqədərki dövrdə ilkin hərbi biliklərə yiyələnməsi olduqca vacibdir.

Bu gün ümumtəhsil məktəblərinin sonuncu siniflərində gənclərə “Çağırışaqədərki hazırlığı” adlı fənn tədris olunur. Lakin daha çox praktiki biliklərə söykənən bu fənnin tədrisi zamanı hərbi ləvazimatlardan və digər təlim silahlarından istifadə olunmur, yaxud da çox cüzi səviyyədə istifadə olunur. Bunun da başlıca səbəbləri təhsil müəssisələrimizdə mövcud olan hərbi hazırlıq otaqlarında bu ləvazimatların olmamasıdır.

Ölkəmizdə xanımlar hərbi xidmətə çağırılmır. Lakin elə ekstremal şərait ortaya çıxa bilər ki, ölkənin müdafiəsində məcburi şəkildə xanımların da iştirakı vacib ola bilər. Məhz bu məqam yuxarıda qeyd etdiyim, yəni orta məkrəblərdə hərbi dərslərin keyfiyyətinin artırılmasını zəruri edir.

Toxunmaq istədiyim digər məsələ ali məktəblərdə əvvəllər mövcud olmuş hərbi kafedraların bərpası ilə bağlıdır. Çünki ölkəmizdə ali təhsilin bakalavr, magistr və doktorantura səviyyələrində əyani şəkildə təhsil alan şəxslərə hərbi xidmətdən möhlət hüququ verilir, fəlsəfə doktoru elmi dərəcəsi alan şəxslər isə ehtiyata buraxılırlar. Əgər həmin müddətləri toplasaq, təxminən 9 il edir. Deməli, təhsilin bütün pillələrini keçmiş şəxs 18 yaşında deyil, 27 yaşında həqiqi hərbi xidmətə cəlb olunur. Fəlsəfə doktoru elmi dərəcəsi alan şəxslər isə, ümumiyyətlə, ordu sıralarına çağırılmır. Hər il təxminən 60 min nəfər gənc ali məktəblərə daxil olur. Təxmini rəqəmlərlə onların 40 faizinin kişi cinsinə aid olan şəxslər olduğunu hesab etsək, yəni 24 min nəfər ordu sıralarına çağırılmır. Doğrudur, bizim ölkənin əhalisi gənc əhali hesab olunduğundan hərbi bölüklərin formalaşdırılmasında say baxımdan problem

yaşanmır. Lakin müharibə və digər hərbi vəziyyətlə əlaqədar kritik məqamlar ola bilər ki, bizim həmin ehtiyat qüvvəyə ehtiyacımız yaranar. Bu zaman isə səfərbərliyə cəlb olunmuş şəxslərin əhəmiyyətli bir hissəsinin heç bir hərbi biliyinin olmaması əlavə insan itkisinə, eyni zamanda, döyüşlərdə uğursuzluğun başlıca qaynaqlarından birinə çevrilə bilər. Amma ali təhsil müəssisələrində hərbi kafedraların bərpası imkan verəcək ki, möhlət hüququ olan şəxslər də lazımi vərdiş və biliklərə sahib olsunlar.

Digər tərəfdən, bu gün dünya ordularında ağıllı müharibələrin aparılmasına üstünlük verilir. Elə ilk ağıllı müharibəni də ölkəmiz apardı və vətən, torpaqlarımız işğaldan azad edildi.

Bu gün ölkəmizin ali məktəblərində ağıllı ordu modelinə keçidi sürətləndirməyə imkan verən yeni ixtisaslar yaradılmışdır. Eyni zamanda, müxtəlif texniki və sənayeyönümlü ali təhsil müəssisələrində dolayısı ilə ordu quruculuğuna töhfə verə biləcək ixtisaslar mövcuddur. Səhv etmirəmsə, bu gün yalnız Bakı Dövlət Universitetinin Hüquq fakültəsində hərbi kafedra fəaliyyət göstərir. Təklif edərdim ki, bütün ali təhsil müəssisələrində hərbi fakültənin fəaliyyəti bərpa edilsin.

**Sadiq Qurbanov.** Bu gün Azərbaycan Respublikasının Müstəqilliyinin Bərpası Günüdür. Müstəqillik dünyada ən böyük nemətdir. Dünya xalqları içərisində müstəqil dövləti olan xalqlar elə də çox deyil. Müasir Azərbaycan tarixinin qızıl səhifəsi olan müstəqilliyimizin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri var. Müasir Azərbaycanın müstəqillik tarixi Ümummilli Lider Heydər Əliyev şəxsiyyəti ilə o qədər ehtiva olunmuşdur ki, bu iki dəyəri bir-birindən ayrı

təsəvvür etmək mümkün deyil. Heydər Əliyev Azərbaycanın müstəqilliyinin bayraqdarıdır.

Azərbaycan Respublikasının üçrəngli müqəddəs bayrağı 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmişdir. Beləliklə, Xalq Cümhuriyyətinin 70 il əvvəl endirilmiş ay-ulduzlu üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edildi. Heydər Əliyev bu hadisəni belə xatırlayırdı: "Naxçıvanda yaşadığım müddətdə burada cəsarətli addımlar atıldı. 1990-cı il noyabrın 17-də biz Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında – mənim sədrlik etdiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən elədik. Hələ Kommunist Partiyası da var idi, Sovet hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından "sovet sosialist" sözləri çıxarılmalıdır. Çıxardıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunmalıdır. Milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır. Bu bayrağı sessiyanın salonuna gətirdik, başımızın üstünə vurduq".

Məhz bu fəaliyyətin nəticəsi idi ki, Azərbaycan xalqının istəyinə uyğun olaraq, 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edildi. Tarixi sənədin 2-ci maddəsində deyilir: "Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir".

Heydər Əliyev: "Biz müstəqilliyə nail olmasaq, tarix və gələcək nəsillər bizi bağışlamayacaq". Heydər Əliyevin parlamentdəki ilk çıxışı müstəqillik tariximizin ideoloji

aspektlərinin ən vacib komponentidir. Heydər Əliyevin bu çıxışı 1991-ci il martın 7-də yeni ittifaq müqaviləsinə qoşulmaq məsələsi müzakirə edildiyi zamana təsadüf edir. Həmin vaxt parlament ideoloji baxımdan iki cəbhəyə bölünmüşdü. Bir qisim Azərbaycanın ittifaqdan ayrılıb müstəqil, azad bir dövlət kimi yaşamasının, digər qisim isə Azərbaycanın ittifaq tərkibində qalmasının tərəfdarı idi. Müstəqillik tərəfdarları Azərbaycan xalqının azadlıq istəyinin carçıları idi. Bu şəxslərin önündə dahi Lider Heydər Əliyev gedirdi. Oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edildikdən sonra bu tarix Azərbaycanda bir müddət müstəqillik bayramı kimi qeyd edildi. Sonra isə Azərbaycanın müstəqilliyinin 1990-cı illərdən başlamadağı tarixi gerçəkliyi nəzərə alaraq həmin tarix haqlı olaraq Müstəqilliyin Bərpası Günü kimi qanunvericilik sistemində təsbit edildi.

1990-cı illərdə müstəqilliyimiz formal xarakter daşıyırdı. Məhz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra müstəqilliyimiz gerçəkləşdi. Uğurlu siyasi varis cənab İlham Əliyev isə Azərbaycanın müstəqilliyini və suverenliyini tam bərpa etdi. Azərbaycan xalqı bu iki dahi siyasətçiyə daim öz ehtiramını saxlayır. Azərbaycanın gerçək müstəqilliyi bu iki siyasətçinin adı ilə sıx bağlıdır.

Müstəqilliyimiz dönməz və əbədi olsun! Tanrı Azərbaycanı qorusun!

# MÜNDƏRİCAT

18 oktyabr 2024-cü il.......................................................... 3
Edilməmiş çıxışların mətnləri............................................ 133

Yeddinci çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

Birinci sessiya
Payız

4-cü cild

18 oktyabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 9,5. Sifariş 102. Tiraj 150.